RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN




№ 140 (9307) 8 İYUL 2023-cü il ŞƏNBƏ

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR

# Bayram Beqay: “Prezident Əliyev vədlərini reallığa çevirən şəxsdir”

◆ Albaniya Prezidenti Bayram Beqayın Azərbaycana rəsmi səfəri



## Təkbətək görüş



→ 2

## Geniş tərkibdə görüş



→ 2

## Mətbuata bəyanatlar



→ 2

## Ali qonağın şərəfinə



→ 3

## Birinci xanımların görüşü



→ 3

## Qlobal liderlik nümunəsi

Azərbaycan Qoşulmama Hərəkatına 2019-cu ildən sədrlik edir. 2019-cu ilin oktyabr ayında dünyanın ikinci ən böyük təşkilatına sədrliyin Azərbaycana keçməsi Prezident İlham Əliyevin müdrik və uzaqgörən siyasətinin nəticəsi, respublikamıza olan yüksək beynəlxalq etimadın göstəricisi idi. Həmin vaxt Prezident İlham Əliyev bununla bağlı demişdi: "Dünyanın ikinci böyük təşkilatı olan Qoşulmama Hərəkatına sədrlik etməyə başlamışıq. Qoşulmama Hərəkatından daha böyük təşkilat Birləşmiş Millətlər Təşkilatıdır ki, onun da sədri olmur. Orada Təhlükəsizlik Şurasının sədri olur və özü də rotasiya qaydasında. Ona görə biz bu gün işlək vəziyyətdə sədrliyi olan ən böyük beynəlxalq təşkilata sədrlik edirik və bu sədrliyi 119 ölkənin dəstəyi ilə əldə etmişik. Bu, nəyi göstərir? Onu göstərir ki, dünya ictimaiyyəti bizi dəstəkləyir, bizə inanır, bizə rəğbətlə yanaşır və bizim mövqeyimizi müdafiə edir".

→ 9

## Azərbaycanın Ermənistan üzərində daha bir qələbəsi

### Bu dəfə beynəlxalq hüquq müstəvisində

**Beynəlxalq Ədalət Məhkəməsi Ermənistanın may ayının 12-də bu məhkəməyə təqdim etdiyi və 23 aprel 2023-cü il tarixində Laçın yolunun başlanğıcında sərhəd-buraxılış məntəqəsinin quraşdırılmasının "qanunsuz" olduğuna dair vəsatətini yekdilliklə rədd edib.**

Xatırladaq ki, İrəvan Ermənistanla şərti dövlət sərhədində - Laçın yolunun başlanğıcında Azərbaycanın sərhəd-buraxılış məntəqəsinin aradan qaldırılması ilə bağlı tələb irəli sürmüşdü. Ermənistan iddia etmişdi ki, bu sərhəd-buraxılış məntəqəsinin quraşdırılması məhkəmənin 22 fevral 2023-cü il tarixli qərarını pozmuşdur.

→ 8

## Müstəmləkəçi Fransa işğalçı Ermənistana havadarlıq edir

Ədalət, sülh naminə Ermənistan dünyanın bütün dövlətləri tərəfindən mənfur əməllərinə görə qınanmalı, doğru yola dəvət olunmalıdır. Lakin Fransa kimi müstəmləkəçi dövlət işğalçı Ermənistanın vaxtilə azərbaycanlılara qarşı törətdiyi qətliamları, soyqırımlarını "unudur" və bu gün ölkəmizə qarşı təxribatlar törətməsinə siyasi dəstək verir. Öz tarixi qanlı cinayətlərlə, terrorla ləkələnmiş, əli milyonlarla əlcəzairlinin qanına batmış Fransa bununla faşizm xislətini bir daha ortaya qoyur. Özünü yalandan insan haqlarının və beynəlxalq hüququn müdafiəçisi kimi qələmə verən Fransa hələ də digər ölkələrin daxili işlərinə qarışır. Dövlətimizin başçısı Fransa qoşunlarının bu yaxınlarda Mali və Burkina-Fasodan çıxarılmasının onun Afrikadakı amansız neokolonializm siyasətinin uğursuzluğa məhkum olduğunu bir daha göstərdiyini vurğuladı: "Təəssüf ki, Fransa Azərbaycanın Qarabağ bölgəsində erməni separatizmini dəstəkləyərək, geosiyasi rəqabət, xarici hərbi mövcudluq və "Orientalizm" müstəmləkəçilik siyasəti ilə Cənubi Qafqaz regionunda da eyni mənfur təcrübəni tətbiq etməyə çalışır".

→ 10

## Stokholm NATO sammitində alyansa üzv ola bilməyəcək

Ötən il Türkiyə və İsveç Stokholmun NATO-ya üzv olmaq yolunda maneələrin aradan qaldırılmasına yönəlmiş saziş imzalamışlar. Ankara İsveçdən terror qruplaşması olan Kürdüstan Fəhlə Partiyasına (PKK) qarşı tədbir görməsini tələb etmişdir.

İndi Stokholm müqavilənin şərtlərinə əməl etdiyini iddia edir. Belə ki, İsveçdə qəbul edilmiş yeni qanunvericiliyə əsasən, bir neçə gün əvvəl Türkiyə vətəndaşı olan PKK-çı "terrorçuluğu maliyyələşdirməyə cəhd" ittihamı ilə həbs edilib. Bununla belə, Ərdoğan haqlı olaraq Stokholmu tənqid etməkdə davam edir və ötən həftə İsveçdə yenidən Quranın yandırılması vəziyyəti daha da gərginləşdirib.

İsveç NATO-nun iyulun 11-12-də Vilnüsdə keçiriləcək sammitində heç bir halda alyansa üzv ola bilməyəcək, hətta Türkiyənin razılığı olsa belə, həmin vaxta qədər ərizənin ratifikasiyası mümkün deyil. Bunu Brüsseldə keçirdiyi mətbuat konfransında NATO-nun baş katibi Yens Stoltenberq deyib.

→ 12

## Albaniya Prezidenti Bayram Beqayın Azərbaycana rəsmi səfəri

# Bayram Beqay: “Prezident Əliyev vədlərini reallığa çevirən şəxsdir”

## Rəsmi qarşılanma mərasimi





Azərbaycan Respublikasına rəsmi səfərə gələn Albaniya Respublikasının Prezidenti Bayram Beqayın iyulun 7-də rəsmi qarşılanma mərasimi olub.

AZƏRTAC xəbər verir ki, hər iki ölkənin Dövlət bayraqlarının dalğalandığı meydanda Albaniya Prezidentinin şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Albaniya Respublikasının Prezidenti Bayram Beqayı qarşıladı.

Fəxri qarovul dəstəsinin rəisi Albaniya Prezidentinə raport verdi.



Prezident Bayram Beqay Azərbaycan əsgərlərini salamladı. Azərbaycan və Albaniya prezidentləri fəxri qarovul dəstəsinin qarşısından keçdilər.

Albaniya Respublikasının və Azərbaycan Respublikasının Dövlət himnləri səsləndirildi.

Azərbaycan nümayəndə heyəti Albaniya Prezidentinə, Albaniya nümayəndə heyəti isə Azərbaycan Prezidentinə təqdim olundu.

Fəxri qarovul dəstəsi hərbi marşın sədaları altında Azərbaycan Prezidenti İlham Əliyevin və Albaniya Prezidenti Bayram Beqayın qarşısından keçdi.

Dövlət başçıları rəsmi foto çəkdirdilər.

## Təkbətək görüş



İyulun 7-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Albaniya Respublikasının Prezidenti Bayram Beqay ilə təkbətək görüşü keçirilib.

*AZƏRTAC*

## Geniş tərkibdə görüş



İyulun 7-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Albaniya Respublikasının Prezidenti Bayram Beqayın geniş tərkibdə görüşü olub.

AZƏRTAC xəbər verir ki, qonaqları salamlayan Prezident **İlham ƏLİYEV** dedi:

- Cənab Prezident, hörmətli qonaqlar, bir daha xoş gəlmisiniz. Cənab Prezident, rəsmi səfərinizlə bağlı Sizi qəbul etməyimdən çox məmnunam. Əvvəlcə mənim ötən il Albaniyaya səfərim zamanı göstərilmiş qonaqpərvərliyə görə minnətdarlığımı ifadə etmək istəyirəm. Şadam ki, biz çox sıx dostluq münasibətləri qurmuşuq və ölkələrimiz arasında yüksək səviyyədə siyasi dialoqun olduqca yaxşı dinamikası var. Əlbəttə, bu, ölkələrimiz arasında əlaqələrin möhkəmləndirilməsi baxımından mühüm amildir. Mən bu münasibətləri əla adlandırardım və bu, beynəlxalq təsisatlarda qarşılıqlı dəstəkdə, enerji və iqtisadi inkişaf sahələrində praktiki fəaliyyətdə özünü göstərir.

Biz artıq Sizinlə ikitərəfli gündəliyimizə, regional məsələlərə, təhlükəsizlik mövzusuna və əməkdaşlıq məsələlərinə dair fikir mübadiləsi apardıq. İndi isə nümayəndə heyətlərinin iştirakı ilə dialoqumuz davam edəcəkdir.

Çox məmnunam ki, hazırda Azərbaycanla Albaniya yaxın dost və qardaş ölkələr olaraq bir yerdə işləyir, əməkdaşlığımızın perspektivləri, həqiqətən də, çox parlaqdır. Çünki burada bizim dostluğumuz, qarşılıqlı maraq və gələcəklə, eləcə də ikitərəfli münasibətlərin irəli aparılması və əməkdaşlığın gücləndirilməsi ilə bağlı aydın baxış kimi möhkəm təməl var. Əlbəttə, əməkdaşlığın əsasını təşkil edən mühüm amil enerji sahəsinin inkişafı məsələləridir və biz artıq Sizinlə bu məsələyə toxunduq və nümayəndə heyətlərinin iştirakı ilə bu görüşdə də bu müzakirəni davam etdirəcəyik. Çünki bizim bu istiqamətdə daha çox planlarımız var və bu məsələlər mənim Albaniyaya səfərim çərçivəsində, həm də digər rəsmi şəxslər səviyyəsində müzakirə edilib.

Cənab Prezident, bir daha Azərbaycana xoş gəlmisiniz.

Prezident **Bayram BEQAY** dedi:

- Möhtərəm Prezident, əziz dost.

Bu gün Sizinlə burada, gözəl Bakı şəhərində görüşməyimdən çox məmnunam. Eyni zamanda Sizə mənə və nümayəndə heyətinə göstərilən çox isti qonaqpərvərliyə görə dərin təşəkkürümü bildirirəm. Əminəm ki, görüşlərimizin intensivliyi iki ölkə arasında qardaşlıq ruhuna əsaslanan dostluq və əməkdaşlıq əlaqələrini gücləndirməklə bağlı sadiqliyimizi və birgə iradəmizi bir daha təsdiq edir. Son illərdə bu əməkdaşlıq həm siyasi, həm də iqtisadi sahədə dinamik şəkildə inkişaf edib. Sizin də qeyd etdiyiniz kimi, bizim əla münasibətlərimiz var və çalışmalıyıq ki, iqtisadi sahədə də münasibətlər əla olsun. Şəxsən Sizin ölkələrimiz arasında əlaqələrin tarixinin yeni səhifəsinə sadiqliyinizi və töhfənizi yüksək qiymətləndirirəm. Bu il biz diplomatik münasibətlərin qurulmasının 30 illiyini qeyd edirik.

Bir daha təşəkkürümü bildirirəm.

## Mətbuata bəyanatlar

*İyulun 7-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Albaniya Respublikasının Prezidenti Bayram Beqay mətbuata bəyanatlarla çıxış ediblər. AZƏRTAC xəbər verir ki, əvvəlcə dövlətimizin başçısı bəyanatla çıxış etdi.*

### Prezident İlham Əliyevin bəyanatı



- Hörmətli cənab Prezident.

Hörmətli qonaqlar.

Xanımlar və cənablar.

Cənab Prezident, Azərbaycana xoş gəlmisiniz. Sizi rəsmi səfər çərçivəsində qəbul etmək imkanından olduqca məmnunam. Biz dəfələrlə, həm Bakıda, həm Tiranada görüşmüşük. İndi isə yenidən Bakıda rəsmi səfər zamanı görüşürük.

Biz Albaniya Prezidentinin rəsmi səfərinə çox böyük önəm veririk. Əminəm ki, səfər ölkələrimiz arasında sıx ikitərəfli münasibətləri gücləndirəcək. Mən həmçinin bu fürsətdən istifadə edərək, ötən il Albaniyaya səfərim zamanı mənə və nümayəndə heyətimə göstərilmiş qonaqpərvərliyə görə cənab Prezident, Sizə təşəkkürümü bildirmək istəyirəm. Mən həmçinin qeyd etmək istəyirəm ki, ötən il Albaniyanın Baş nazirini iki dəfə qəbul etdik və bu ilin martında Prezident Azərbaycana işçi səfərə gəlmişdi. Təkcə bu səfərlər əlaqələrimizin nə qədər sıx, dialoqumuzun nə dərəcədə fəal olduğunu nümayiş etdirir.

Biz dostluq və qarşılıqlı dəstəyə əsaslanan ikitərəfli əlaqələrimizdə çox xüsusi dinamika yaratmışıq. Biz beynəlxalq təşkilatlarda fəal çalışırıq, ilk növbədə Birləşmiş Millətlər Təşkilatında və İslam Əməkdaşlıq Təşkilatında bir-birimizə dəstək veririk. Eyni zamanda biz Azərbaycanın olmadığı təşkilatlarda ölkəmizi dəstəklədiyinə görə Albaniyaya çox minnətdarıq. Ötənilki Frankofoniya Sammitində Azərbaycana verdiyi dəstəyə görə mən cənab Prezidentə və Albaniya hökumətinə artıq öz minnətdarlığımı bildirdim. O vaxt Frankofoniya təşkilatının üzv dövlətlərindən biri yekun sənədə bir bəndi əlavə etmək və qəbul etdirməyə cəhd göstərdi. Bu, anti-Azərbaycan mahiyyəti olan bənd idi.

Albaniya həmin bəndi bloklayan ölkə oldu. Həmin addım dostluğun, eləcə də ölkələrin ərazi bütövlüyü və suverenliyi kimi beynəlxalq hüququn əsas prinsiplərinə qəti sadiqliyin təzahürü oldu. Hətta Azərbaycan özünü müdafiə etmək fürsətinə malik olmadığı təşkilatlarda belə bizim Albaniya kimi qardaş ölkəmiz var və o bu dəstəyi verdi. Buna görə biz çox minnətdarıq.

Bu gün biz, əlbəttə, ölkələrimiz arasında gələcək siyasi münasibətləri, beynəlxalq təşkilatlarda birgə fəaliyyətimizi müzakirə etdik. Eyni zamanda birmənalı olaraq gündəliyimizdə duran ticari, iqtisadi məsələləri, sərmayə imkanlarını nəzərdən keçirdik. Mən bir daha vurğuladım ki, Azərbaycan sərmayədarları Albaniyada istər turizm, istər kənd təsərrüfatı və ya hər hansı digər sahədə sərmayə layihələrini ciddi araşdırmağa hazırdırlar. Hesab edirəm ki, gələn aylarda bizim bu haqda daha çox məlumatımız olacaq və həmçinin münasibətlərimizdə yeni səhifə açılacaq. Bu vaxta qədər əməkdaşlığımızın əsas meyarı enerji sektoruna aid olub. Həmin əməkdaşlıq nəinki ölkələrimiz, o cümlədən böyük sayda digər ölkələr, xüsusən də "Cənub qaz dəhlizi"nin hissəsi olan TAP üçün əhəmiyyətlidir. Həmin boru kəməri Albaniyanın ərazisindən keçir. Hazırda o, enerji təhlükəsizliyinin mənbəyidir, Azərbaycan və Avropa İttifaqının qaz təchizatı sahəsində fəal işini, eləcə də Avropa İttifaqı ilə Azərbaycan arasında imzalanmış Enerji sahəsində Strateji Tərəfdaşlıq sənədini nəzərə alsaq, bütün bunlar, təbii ki, ölkələrimiz arasında sıx əməkdaşlıq üçün mühüm meyarlardır. Çünki bir çox Avropa ölkələri üçün enerji təhlükəsizliyi həmçinin "Cənub qaz dəhlizi" vasitəsilə təmin edilir. Həmin ölkələrin sayı artır. Avropa İttifaqı bazarına Azərbaycanın təbii qaz ixracı artır. Həcmlər artır və onun coğrafiyası genişlənir.

Bu ilin sonunadək biz Avropa İttifaqına üzv olan daha çox sayda ölkələrin Azərbaycandan təbii qaz alacağını gözləyirik. Həmçinin əvvəlki təmaslarımızda müzakirə olunan mövzulardan biri Albaniyanın qazlaşdırılması layihəsi idi və sınaq layihəsi seçilmişdi. Bu gün bizə nümayəndə heyətlərinin üzvləri tərəfindən məlumat verildiyi kimi, işlər cədvələ uyğun gedir və ilin sonunadək bizdə artıq bu layihənin texniki-iqtisadi əsaslandırılması olacaq. Bundan sonra isə ümid edirəm ki, biz dərhal investisiyalara başlayacağıq. Bu, qazpaylayıcı şəbəkəsini qurmaq üçün Albaniyaya yatırılacaq xalis Azərbaycan investisiyası olacaq. Həmçinin biz infrastrukturumuzu Albaniyadan qonşu ölkələrə necə genişləndirəcəyimizi də müzakirə etdik.

Bizim indi Tiranada səfirliyimizin olması məni çox sevindirir. Bu həmçinin mənim Albaniyaya səfərim zamanı qəbul edilmiş qərar idi və Bakıya qayıdan kimi növbəti gün qərar qəbul edilmişdir. Tiranadakı səfirliyimiz artıq öz fəaliyyətinə başlayıb. Bu, ikitərəfli əlaqələrimizi inkişaf etdirmək üçün çox güclü qarşılıqlı siyasi iradənin mövcud olduğunu göstərir və tərəfimizdən qəbul edilən qərarların hamısı icra olunur.

Əminəm ki, cənab Prezidentin bugünkü səfərinə də eyni məsələni şamil etmək olar. Biz müntəzəm görüşlərin keçirilməsi barədə razılığa gəldik. Hər bir görüşdə biz hansı işlərin görüldüyünə nəzər salacağıq və gələcək addımlarımızı planlaşdıracağıq.

Bir daha cənab Prezident, xoş gəlmisiniz. Sizə Azərbaycanda yaxşı vaxt keçirməyi arzu edirəm.

* * *

Sonra Albaniya Prezidenti bəyanatla çıxış etdi.

*Bax: səh. 3*

## Albaniya Prezidenti Bayram Beqayın Azərbaycana rəsmi səfəri

# Bayram Beqay: “Prezident Əliyev vədlərini reallığa çevirən şəxsdir”

## Mətbuata bəyanatlar



### Prezident Bayram Beqayın bəyanatı

- Təşəkkür edirəm, hörmətli Prezident.

Möhtərəm Prezident Əliyev, səmimi qarşılamaya və qonaqpərvərliyinizə görə təşəkkür edirəm. Azərbaycanda olmaq və bir daha dostum Prezident Əliyevlə görüşmək məndə böyük məmnunluq hissi doğurur. Bu il ölkələrimiz arasında diplomatik əlaqələrin qurulmasının 30-cu ildönümü qeyd olunur. Hesab edirəm ki, bu əlaqələrdən fərəhlənmək üçün bizim bir çox səbəbimiz var. Bu əlaqələr bu gün həmişəkindən daha yaxşı səviyyədədir. Buna görə bu əlaqələri daha da gücləndirmək üçün zəruri töhfə verdiyi üçün Prezident Əliyevə minnətdarlığımı bildirirəm. Ötən il Prezident Əliyev Tiranani ziyarət etdi və bu, Azərbaycan Prezidentinin Albaniyaya ilk səfəri idi.

Mən məmnunam ki, səfərin təsiri dərhal öz əksini tapdı. Çox çəkmədi və Azərbaycan parlamenti Tiranada səfirlik açmaq barədə qərar qəbul etdi. Eyni qaydada Albaniya da 2023-cü ildə Bakıda səfirliyin açılması ilə bağlı analoji qərar qəbul etdi. Hər iki qərar ölkələrimizi bir-birinə daha da yaxınlaşdıracaq, artıq mükəmməl olan əlaqələri, yüksəksəviyyəli siyasi dialoqu daha da gücləndirəcək, eləcə də iqtisadi əməkdaşlığı və digər məsələləri daha da təşviq edəcək.

Bizim dostluğumuzun 30 illiyini qeyd etmək üçün bir çox səbəblərimiz var. Mən iki ölkənin yaxınlaşması istiqamətində atılmış bəzi başqa uğurlu addımları Prezidentin diqqətinə çatdırdım. Mayda Albaniya ilə Azərbaycanın iqtisadi, sənaye və texnoloji əməkdaşlıq üzrə birgə işçi qrupunun iclası keçirildi. Bu işçi qrupu həyati əhəmiyyət kəsb edən digər sahələrdə də əlaqələri daha da dərinləşdirmək baxımından mühüm addım hesab olunur. Bu səbəbdən bu işçi qrupunun əsasında 2024-cü ildə Bakıda keçiriləcək birgə hökumətlərarası komissiyanın yaradılmasına dair razılıq konstruktiv ruhun və iki ölkə arasında mövcud olan anlaşmanın aydın təcəssümüdür. Bundan əlavə, bu ilin ilk ayında mənim təcrübələrin, ölkələrimizin və planetin gələcəyinə dair qabaqcıl baxışların mübadiləsi baxımından digər mühüm təşəbbüs olan Qlobal Bakı Forumunda iştirak etmək imkanım oldu. Prezident Heydər Əliyevin 100 illiyində onun Azərbaycanın inkişafı və gücləndirilməsinə dair müstəsna baxışı ölkənizə səfər edən hər kəs tərəfindən hiss olunur. Onun Azərbaycan üçün etdikləri tarixin yaddaşında əbədi yaşayacaq və ölkənizin gələcək inkişafına xidmət edəcək.

Möhtərəm Prezident Əliyev, Albaniya və Azərbaycan enerji sektorunda əməkdaşlıqla bir-birinə sıx bağlıdır. TAP artıq birləşmiş uğur hekayəsidir. Albaniyanın TAP-dan faydaları həm iqtisadi baxımdan, həm də regional enerji çıxışı və qovşağı kimi strateji əhəmiyyətinin güclənməsi baxımından çox olub. Adriatik-İonik qaz kəməri Albaniyanın regionda qazpaylayıcı kimi roluna daha çox töhfə verəcək. Mən Albaniyanın Azərbaycanla sıx əməkdaşlıq şəraitində ölkənin qazla təchiz olunması çərçivəsində qəti addımlar atmağa hazır olduğunu Prezident Əliyevin bir daha diqqətinə çatdırdım.

Albaniyanın qaz tranziti ölkəsi olması artıq reallıqdır. Albaniyanın qaz qəbul edən və nəql edən ölkə olması məqsədini qarşımıza qoymuşuq. Ölkəmiz buna nail olmağa və əməkdaşlığı daha da dərinləşdirməyə sadiqdir. Mən Prezident Əliyevə bildirdim ki, Albaniya Azərbaycanın regional enerji layihələrinin inkişafına artmaqda olan diqqətini alqışlayır və bu, Qərbi Balkan ölkələrini daha da yaxınlaşdıracaq. Eyni zamanda bu onların enerji təhlükəsizliyini gücləndirəcəkdir.

Bir az əvvəl biz həmçinin xarici siyasətimizə dair vacib məsələlərə toxunduq. Mən Prezidentə bildirdim ki, ötən həftə Vaşinqtonda Azərbaycan və Ermənistan arasında keçirilən görüşləri diqqətlə izləyirdim. Albaniya Cənubi Qafqazda etibarlı tərəfdaşlar və beynəlxalq təşkilatların vasitəçiliyi ilə uzunmüddətli sülhün bərqərar olunmasını dəstəkləyib və dəstəkləyəcəkdir. Prezident Əliyevə dedim ki, Albaniya hər zaman Azərbaycanın ərazi bütövlüyünü və BMT Təhlükəsizlik Şurasının qətnamələrinin icrasını dəstəkləyib. Hətta Qərbi Balkan regionunda da dialoq vacibdir ki, biz bir-birimizə keçmişin kini deyil, gələcəyin imkanları baxımından yanaşaq. Mən Qərbi Balkanlarda regional sabitliyin zəruri element olması ilə bağlı əminliyimi ifadə etdim. Serbiya və Kosovo mübahisənin həlli və aralarında yeni əməkdaşlıq ruhunun yaradılması ilə bağlı danışıqlarında iştirak edən tərəflərdir. Tərəflərin öz aralarında və beynəlxalq forumlarda irəli sürdükləri arqumentlərə hörmət dayanıqlı sülhün bərqərar olması üçün istiqamətverici məqamlar olmalıdır. Münaqişə əvəzinə firavanlıq - bu, ikitərəfli və regional tərəqqi üçün kompas olmalıdır. Bu nə qədər tez baş versə, bizim xalqlarımız ondan bəhrələnəcək.

Biz Prezident Əliyevlə birlikdə Ukraynadakı müharibəni müzakirə etdik. Ukraynanın bərpasına həsr edilmiş konfransda ölkələrimizin iştirakı Ukraynanı dinc və inkişaf etmiş görməyimizlə bağlı iradəmizin göstəricisidir. Bu məqamda biz bir daha Ukraynanın ərazi bütövlüyünə dəstəyimizi ifadə edirik. Ağır dövrdə kömək göstərilməsi xalqlar və dövlətlər tərəfindən unudulmayan jestdir. 2019-cu ilin noyabrında baş vermiş faciəvi zəlzələdən sonra Azərbaycanın Albaniyaya olan dəstəyi də həmin qəbildəndir. Mən Prezident Əliyevə həmin çətin günlərdə yanımızda olduğuna görə bir daha təşəkkürümü bildirdim. Əsl dost dar gündə tanınar.

Albaniya və Azərbaycan arasında əməkdaşlıq həm də beynəlxalq təşkilatlar çərçivəsində özünü əks etdirir. Mən Prezident Əliyevə əminliyimi ifadə etdim ki, əməkdaşlığın hazırkı çox yaxşı tempi gələcəkdə də saxlanılacaq. Albaniyada tezliklə Azərbaycan mədəniyyət həftəsi təşkil ediləcək. Əminəm ki, bu ay Albaniyanın şəhərlərinin dünyanın hər yerindən gələn turistlərlə dolu olan bir vaxtda Azərbaycan mədəniyyət həftəsi bayram ab-havasında keçəcəkdir. Bu isə mədəniyyətin xalqları və ölkələri nə dərəcədə yaxınlaşdırdığının təzahürü olacaqdır.

Turizmə gəldikdə, ölkələrimiz bu sahəni prioritet və iqtisadiyyatın çox vacib sektoru hesab edir. Bu səbəbdən əməkdaşlığın inkişafı və turizm baxımından Azərbaycanın sərmayə qoyuluşu arzuolunandır. Viza rejiminin ləğvi xalqlarımızın yaxınlaşdırılmasının daha bir yoludur. Qeyd etdiyim kimi, Prezident Əliyev vədlərini reallığa çevirən şəxsdir və o bu gün mənə söylədi ki, bu, tezliklə həll ediləcəkdir. Təşəkkür edirəm, cənab Prezident.

Hörmətli Prezident, əziz İlham, Sizin Tiranaya səfərinizdən sonra ölkələrimiz qarşılıqlı xoş niyyət və əməkdaşlıq ruhunda vədlər və sadiqlik ifadələrini konkret fəaliyyətə çevirməyə müvəffəq olub. Sizin səfəriniz, mənim bugünkü səfərim və son dövrdə yüksəksəviyyəli dövlət rəsmilərimizin həyata keçirdikləri digər səfərlər ölkələrimiz arasında münasibətlərin möhkəmləndirilməsinə müsbət təkan verir.

Cənab Prezident, yekunda icazə verin yüksək qonaqpərvərliyə görə bir daha təşəkkürümü bildirim. Bakıda olmaq, həqiqətən də, məmnunedicidir. Sağ olun.

## Ali qonağın şərəfinə



İyulun 7-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın adından Albaniya Respublikasının Prezidenti Bayram Beqayın və birinci xanım Armanda Beqayın şərəfinə rəsmi lanç verilib.

*AZƏRTAC*

## Birinci xanımların görüşü



İyulun 7-də Azərbaycan Respublikasının birinci xanımı Mehriban Əliyevanın Albaniya Respublikasının birinci xanımı Armanda Beqay ilə görüşü olub.

*AZƏRTAC*

# Albaniya Prezidenti Bayram Beqayın Azərbaycana rəsmi səfəri

## Albaniya Prezidenti və xanımı Heydər Əliyev Mərkəzi ilə tanış olublar









Azərbaycan Respublikasında rəsmi səfərdə olan Albaniya Respublikasının Prezidenti Bayram Beqay və birinci xanım Armanda Beqay iyulun 7-də Heydər Əliyev Mərkəzində olublar.

AZƏRTAC xəbər verir ki, Mərkəzin direktoru Anar Ələkbərov Albaniya Prezidenti Bayram Beqaya dünya memarlığının nadir incilərindən sayılan Heydər Əliyev Mərkəzi haqqında məlumat verib.

Qeyd olunub ki, mərkəzin fəaliyyəti Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin dövlətçilik fəlsəfəsinin, irsinin dərindən öyrənilməsinə və tədqiq edilməsinə yönəlib. Mərkəzin həyata keçirdiyi layihələr həmçinin Azərbaycan tarixinin, mədəniyyətinin və digər milli sərvətlərinin beynəlxalq aləmdə təbliğinə xidmət edir.

Albaniya Prezidenti Bayram Beqay mərkəzdə 1969-cu ildən 2003-cü ilədək Ulu Öndər Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi dövrlərdə xidməti istifadəsində olan avtomobillərlə tanış olub.

Mərkəzdə yaradılmış Heydər Əliyev Muzeyi Albaniya Respublikasının Prezidenti Bayram Beqayda böyük maraq doğurub.

Qonaqlar "Azərbaycan inciləri" sərgisi ilə tanış olublar. Bildirilib ki, Azərbaycanın tarixini və mədəniyyətini əks etdirən bu sərgidə ölkəmizin tükənməz təbii sərvətləri, çoxəsrlik tarixi, mədəni irsi ilə bağlı eksponatlar nümayiş etdirilir. Azərbaycan milli geyimlərinin, qədim sikkələrin nümayiş etdirildiyi sərgiyə gələnlər burada müxtəlif dillərdə müqəddəs kitabları da görə bilərlər.

Prezident Bayram Beqay və birinci xanım Armanda Beqay "Kukla incəsənətdə" sərgisinə baxıblar. Diqqətə çatdırılıb ki, ekspozisiyada nümayiş etdirilən sənət nümunələrinin əksəriyyəti tək nüsxədə hazırlanıb və yüksək bədii dəyərə malikdir. Həmin əsərlərin çoxu beynəlxalq kukla festivallarında qalib olub.

Qonaqlar "Azərbaycan xalçası - ilmələrin rəqsi" adlı kolleksiya ilə də tanış olublar. Bayram Beqay və Armanda Beqay Heydər Əliyev Mərkəzində "Klassik avtomobil sərgisi"ni ziyarət ediblər. Azərbaycan Avtomobil Federasiyasının prezidenti Anar Ələkbərov diqqətə çatdırıb ki, sərgidə avtomobilin yarandığı ilk dövrlərdən - XIX əsrin sonlarından başlayaraq Almaniya, ABŞ, İtaliya, Fransa, Böyük Britaniya və keçmiş SSRİ-də istehsal olunmuş avtomobillər nümayiş etdirilir.

Ali qonaq mərkəzin xatirə kitabına ürək sözlərini yazıb.

Sonda qonağa xatirə hədiyyəsi təqdim edilib.

## Albaniyanın birinci xanımı Xalça Muzeyi ilə tanış olub









Albaniya Respublikasının birinci xanımı Armanda Beqay iyulun 7-də Azərbaycan Milli Xalça Muzeyi ilə tanış olub.

AZƏRTAC xəbər verir ki, muzeydə qonağa xalqımızın qədim xalçaçılıq sənəti, onun tarixi, adət-ənənəsi haqqında məlumat verilib. Bildirilib ki, Azərbaycan xalçaçılıq sənətinin əsas bədii istiqamətlərini əks etdirən muzeyin kolleksiyası nadir gözəlliyi, istifadə olunan materialların, toxuma texnikasının, xalçalara məxsus zərif və dərin bədii xüsusiyyətlərin harmoniyasını nümayiş etdirir.

Diqqətə çatdırılıb ki, "qızıl fond"unu xovlu xalçalar təşkil edən muzeyin kolleksiyasında xovsuz xalçaların da nadir nümunələri saxlanılır. Burada Azərbaycanın 7 əsas xalçaçılıq məktəbinin - Bakı, Quba, Şirvan, Gəncə, Qazax, Qarabağ və Təbriz məktəblərinin xalça nümunələri nümayiş olunur. Xalçalar xalqın həyat və məişətini əks etdirən və insan, heyvan, quş, bitki ornamentləri ilə zəngin olan sənət əsərləridir.

Qeyd edilib ki, Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın böyük zəhməti sayəsində milli xalçaçılıq sənəti 2010-cu il noyabrın 16-da UNESCO-nun Qeyri-Maddi Mədəni İrsi Siyahısına daxil edilib. Daha sonra Albaniyanın birinci xanımı Armanda Beqay muzeydə yerləşən "Zərgərlik fondu" ilə tanış olub. Burada Azərbaycanın müxtəlif tarixi dövrlərinə aid qızıl və gümüş eksponatlar yer alır.

Muzeylə tanışlıqdan sonra qonağa xatirə hədiyyələri təqdim olunub. Maddi-mədəni irsimizlə yanaşı, muzey binasının orijinal görünüşü, qeyri-adi ekspozisiya zallarının quruluşu Albaniyanın birinci xanımında xoş təəssürat yaradıb.

## Albaniya Prezidenti Bayram Beqay Ulu Öndər Heydər Əliyevin məzarını ziyarət edib



Azərbaycan Respublikasında rəsmi səfərdə olan Albaniya Respublikasının Prezidenti Bayram Beqay iyulun 7-də Fəxri xiyabana gələrək xalqımızın Ümummilli Lideri, müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin xatirəsini ehtiramla yad edib, abidəsi önünə əklil qoyub.

AZƏRTAC xəbər verir ki, Ulu Öndərin ömür-gün yoldaşı, görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın da xatirəsi ehtiramla anılıb, məzarı üzərinə tər güllər düzülüb.

## Şəhidlərin xatirəsi ehtiramla yad edilib





Azərbaycan Respublikasında rəsmi səfərdə olan Albaniya Respublikasının Prezidenti Bayram Beqay iyulun 7-də Şəhidlər xiyabanını ziyarət edib.

AZƏRTAC xəbər verir ki, burada ali qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü. Şəhidlərin əziz xatirəsini ehtiramla yad edən Prezident Bayram Beqay "Əbədi məşəl" abidəsinin önünə əklil qoydu.

Daha sonra Bakının ən hündür nöqtəsindən paytaxtımızın mənzərəsini seyr edən Albaniya Prezidentinə Şəhidlər xiyabanının tarixi və şəhərdə görülən abadlıq-quruculuq işləri barədə məlumat verildi.

## Nizami Gəncəvi Beynəlxalq Mərkəzi ilə tanışlıq







Azərbaycanda rəsmi səfərdə olan Albaniya Prezidenti Bayram Beqay və xanımı Armanda Beqay iyulun 7-də Nizami Gəncəvi Beynəlxalq Mərkəzi ilə tanış olublar.

AZƏRTAC xəbər verir ki, qonaqlara Nizami Gəncəvi Beynəlxalq Mərkəzi haqqında məlumat verilib.

Bildirilib ki, mərkəz Azərbaycan Respublikası Prezidentinin sərəncamına əsasən, dahi Nizami Gəncəvinin 870 illik yubileyi münasibətilə 2012-ci ildə Gəncədə keçirilən xüsusi toplantıda təsis edilib. Azərbaycan Prezidentinin dəstəyi ilə fəaliyyətini genişləndirən mərkəz müxtəlif ölkələrin keçmiş dövlət və hökumət başçılarını, nüfuzlu beynəlxalq ekspertləri bir araya gətirib.

Diqqətə çatdırılıb ki, Nizami Gəncəvi Beynəlxalq Mərkəzi 2013-cü ildən etibarən paytaxtımızda keçirilən və dünyanın üzləşdiyi problemlərin müzakirə olunduğu Qlobal Bakı Forumunun əsas təşkilatçısı kimi çıxış edir. Mərkəzin əsas məqsədi dünyada sülhün, dinc birgəyaşayışın, ədalətin bərqərar olunmasına töhfə verməkdir.

Mərkəzdə qonaqlara xatirə olaraq xalça, həmçinin cari ilin mart ayında Bayram Beqayın da iştirak etdiyi və Ulu Öndər Heydər Əliyevin 100 illiyinə həsr olunmuş "Heydər Əliyev 100: həyatı və irsi" mövzusunda keçirilən konfransın materiallarının yer aldığı jurnal və albom hədiyyə edilib.

# "Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 10-cu bəndini rəhbər tutaraq **qərara alır:**

"Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013, № 8, maddə 890; 2016, № 3, maddə 428, № 11, maddə 1768, № 12, maddə 2016; 2017, № 5, maddə 739; 2018, № 11, maddələr 2187, 2200; 2019, № 1, maddə 29, № 2, maddə 201, № 6, maddə 1005; 2020, № 7, maddə 857; 2021, № 5, maddə 429; 2022, № 7, maddə 698; Azərbaycan Respublikasının 2023-cü il 17 fevral tarixli 812-VIQD nömrəli Qanunu) aşağıdakı dəyişikliklər edilsin:

1. 1-ci maddə üzrə:

1.1. aşağıdakı məzmunda 1.1.2-1-ci və 1.1.2-2-ci maddələr əlavə edilsin:

"1.1.2-1. yoxlama obyekti -yoxlamaların məqsədləri üçün nəzarət sahəsindən asılı olaraq aşağıdakılardır:

1.1.2-1.1. sahibkarın məcburi tələblər müəyyən edilən malların təqdim edilməsi, işlərin görülməsi və xidmətlərin göstərilməsi üzrə fəaliyyəti;

1.1.2-1.2. sahibkarlıq fəaliyyəti ilə əlaqədar sahibkarın mülkiyyət hüququ ilə və digər qanuni əsasla sahiblik etdiyi və məcburi tələblər müəyyən edilən əmlakı (o cümlədən sahə, istehsal sahəsi), habelə sahibkarın struktur bölməsi;

1.1.2-1.3. sahibkara məxsus və məcburi tələblər müəyyən edilən mallar, işlər və xidmətlər;

1.1.2-2. yaxın qohum -ər-arvad, valideynlər, uşaqlar, babalar, nənələr, nəvələr, doğma və ögey qardaşlar və bacılar, övladlığa götürənlər, övladlığa götürülənlər;";

1.2. 1.1.5-ci maddədə "risk qiymətləndirilməsi" sözləri "risklərin idarə olunması" sözləri ilə əvəz edilsin;

1.3.1.1.8-ci maddə aşağıdakı redaksiyada verilsin:

"1.1.8. risklərin idarə olunması sistemi -sahibkarın risk qrupunun müəyyən edilməsi və dəyişdirilməsi, riskin azaldılması, yol verilən (və ya qəbul edilən) risk səviyyəsinin təmin edilməsi məqsədilə yoxlayıcı orqan tərəfindən öz nəzarət sahəsi üzrə fəaliyyətin planlaşdırılması və təşkili ilə əlaqədar həyata keçirilən və bu Qanunun 9-1.1-ci maddəsində göstərilən tədbirlərin məcmusu;".

2. 2.2-ci maddəyə "3.2-ci," sözlərindən sonra "6-1-ci, 6-2.4-cü," sözləri əlavə edilsin və həmin maddədə "7.5 - 7.10-cu" sözləri "7.6-cı, 7.7-ci" sözləri ilə əvəz edilsin.

3. 4.2.12-ci, 11.2-ci, 15.1-ci maddələrdə və 3-cü fəslin adında "risk qiymətləndirilməsi" sözləri "risklərin idarə olunması" sözləri ilə əvəz edilsin.

4. Aşağıdakı məzmunda 1-1-ci fəsil əlavə edilsin:

**"1-1-ci fəsil**

**YOXLAYICININ VƏ SAHİBKARIN HÜQUQ VƏ VƏZİFƏLƏRİ**

**Maddə 4-1. Yoxlayıcının hüquqları**

4-1.1. Yoxlama zamanı yoxlayıcının aşağıdakı hüquqları vardır:

4-1.1.1. yoxlama obyektinin yerləşdiyi yerə maneəsiz daxil olmaq;

4-1.1.2. yoxlama sualları ilə bağlı məlumatların, sertifikat, lisenziya, icazə və sahibkarlıq fəaliyyəti ilə bağlı digər hüquqmüəyyənedici sənədlərin Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə əldə edilməsi mümkün olmadığı hallarda onların təqdim edilməsini sahibkarın razılığı ilə sorğu əsasında müvafiq dövlət orqanından (qurumundan) və ya sahibkardan əldə etmək;

4-1.1.3. yoxlama aktına əlavə edilməsi üçün yoxlama obyektinə aid olan sənədlərin və digər növ informasiya daşıyıcılarının-surətlərini kağız və ya elektron informasiya daşıyıcılarında almaq, habelə yoxlama obyektinə dair məlumat olan müvafiq informasiya sisteminə daxil olmaq;

4-1.1.4. yoxlama obyektinə bilavasitə aid olduğu halda foto, audio və video çəkiliş aparmaq.

4-1.2. Yoxlayıcı bu Qanunun 4-1.1-ci maddəsində göstərilən hüquqlardan yalnız səlahiyyəti çərçivəsində və müvafiq yoxlama suallarına uyğun istifadə etməlidir.

**Maddə 4-2. Yoxlayıcının vəzifələri**

4-2.1. Yoxlama zamanı yoxlayıcının vəzifələri aşağıdakılardır:

4-2.1.1. yoxlamaları bu Qanunun tələblərinə əməl etməklə sahibkarların hüquq və qanuni mənafelərinə uyğun həyata keçirmək;

4-2.1.2. sahibkara öz hüquq və vəzifələri barədə məlumat vermək;

4-2.1.3. yoxlama zamanı istifadə olunacaq və yoxlamanın hüquqi əsasını təşkil edən bütün hüquqi aktlardan, habelə yoxlayıcı orqanın (yoxlayıcının) qərarlarından çıxarışları sahibkara (onun səlahiyyətli nümayəndəsinə) təqdim etmək və bu Qanunun 8-ci maddəsinə uyğun olaraq sahibkarlara məsləhətlərin və izahatların verilməsini təmin etmək;

4-2.1.4. yoxlamanı tam, vaxtında, obyektiv və qərəzsiz həyata keçirmək, sahibkarın müəyyən edilmiş iş rejiminə və fəaliyyətinə mane olmamaq;

4-2.1.5. bu Qanunun 6-cı fəslində müəyyən edilən hallar istisna olmaqla, sahibkara məxsus əşyaların və sənədlərin bütövlüyünü təmin etmək;

4-2.1.6. yoxlama başlamazdan əvvəl xidməti vəsiqəsini (şəxsiyyət vəsiqəsi ilə birlikdə), yoxlamanın aparılması haqqında qərarın surətini və yoxlamanın yoxlamaların vahid məlumat reyestrində qeydiyyata alınması barədə çıxarışı sahibkara və ya onun səlahiyyətli nümayəndəsinə təqdim etmək, sahibkarın (onun səlahiyyətli nümayəndəsinin) yoxlamada iştirakına mane olmamaq, yoxlamanın hüquqi əsasları, predmeti, müddəti, yoxlama zamanı tərəflərin hüquq və vəzifələri haqqında məlumat vermək və sahibkara (onun səlahiyyətli nümayəndəsinə) bu sənədlərlə tanış olmaq imkanı yaratmaq;

4-2.1.7. yoxlamanın həyata keçirilməsi prosesində tanış olduğu məlumatlar (sənədlər) barəsində bu Qanunun 7.7-ci maddəsinin tələblərinə riayət etmək;

4-2.1.8. yoxlama aktına sahibkarın, onun səlahiyyətli nümayəndəsinin və ya onun işçilərinin təqdim etdikləri hər hansı sənədi və ya onların nüsxələrini, yazılı izahatları əlavə etmək;

4-2.1.9. yoxlama aktını tərtib etmək və bir nüsxəsini sahibkara və ya onun səlahiyyətli nümayəndəsinə təqdim etmək;

4-2.1.10. müvafiq bildirişləri və məlumatları (sənədləri) sifarişli poçt göndərişi vasitəsilə sahibkarın qeydiyyat ünvanına, sahibkar tərəfindən elektron poçt və ya digər poçt ünvanı təqdim edildikdə isə həmin ünvana göndərmək;

4-2.1.11. yoxlama müddətində sonradan sübut edilməsi mümkün olmayan və ya yoxlamanın icrasına mane olan hər hansı fakt (reyestrə daxil edilmiş hüquqi ünvanda sahibkarın və ya onun səlahiyyətli nümayəndəsinin olmaması, yoxlamanın keçirildiyi yerə girişə məhdudiyyət, tələb olunan sənədləri təqdim etməkdən imtina və s.) barədə qeydi yoxlama aktına daxil etmək və sahibkarın və ya onun səlahiyyətli nümayəndəsinin iştirakı ilə, onlar imtina etdikdə və ya onların iştirakı mümkün olmadıqda, müvafiq qeyd etməklə rəsmiləşdirmək.

4-2.2. Yoxlama zamanı yoxlayıcıya aşağıdakıları etmək qadağandır:

4-2.2.1. səlahiyyətinə, sahibkara və yoxlama suallarına aidiyyəti olmayan məlumatları (sənədləri) tələb etmək və yoxlamaq;

4-2.2.2. qanunla digər yoxlayıcıların nəzarət sahəsinə aid olan və ya yoxlama suallarının siyahısında nəzərdə tutulmamış məsələləri yoxlamaq;

4-2.2.3. bu Qanunun 6-cı fəslində göstərilən hallar istisna olmaqla, sahibkarın razılığı olmadan onun resurslarını (daşınmaz əmlakını, nəqliyyat vasitələrini, kompüterlərini, surətçıxarma avadanlığını, dəftərxana ləvazimatını və s.) istifadə etmək;

4-2.2.4. sahibkardan yoxlayıcı orqanlara əvvəllər təqdim edilmiş məlumatları (sənədləri) tələb etmək.

**Maddə 4-3. Yoxlama zamanı sahibkarın hüquqları**

4-3.1. Yoxlama zamanı sahibkarın aşağıdakı hüquqları vardır:

4-3.1.1. aşağıdakı hallarda yoxlayıcının yoxlama aparmasına icazə verməmək:

4-3.1.1.1. yoxlama bu Qanunun 10-cu maddəsində müəyyən edilən dövrilik pozulmaqla aparıldıqda;

4-3.1.1.2. yoxlamanın aparılması ilə əlaqədar bu Qanunun 18-ci maddəsində müəyyən edilən müddətlər pozulduqda;

4-3.1.1.3. bu Qanunun 4-3.1.2-ci maddəsində müəyyən edilən məlumatlar (sənədlər) yoxlayıcı tərəfindən təqdim edilmədikdə;

4-3.1.2. yoxlama başlamazdan əvvəl yoxlayıcıdan onun xidməti vəsiqəsini (şəxsiyyət vəsiqəsi ilə birlikdə), yoxlamanın aparılması haqqında qərarın surətini və yoxlamanın yoxlamaların vahid məlumat reyestrində qeydiyyata alınması barədə çıxarışı tələb etmək, yoxlamanın hüquqi əsasları, predmeti, müddəti, yoxlama zamanı tərəflərin hüquq və vəzifələri haqqında məlumat almaq və bu sənədlərlə tanış olmaq imkanının yaradılmasını tələb etmək;

4-3.1.3. yoxlayıcı orqanların (yoxlayıcıların) qərar və hərəkətlərindən (hərəkətsizliyindən) şikayət vermək;

4-3.1.4. sübut və izahatlar təqdim etmək;

4-3.1.5. yazılı izahatlar vermək, yoxlamaya aid olan hər hansı bir sənədin və ya onun surətinin yoxlama aktına əlavə olunmasını, həmçinin yoxlama zamanı baş verən, sahibkarın və ya yoxlayıcının hüquq və ya vəzifələrinə təsir edə biləcək faktlar barədə qeydlərin yoxlama aktına daxil edilməsini tələb etmək;

4-3.1.6. yoxlama zamanı tərtib olunmuş yoxlama aktı və digər sənədlərlə tanış olmaq;

4-3.1.7. bildirişlərin və yoxlama ilə əlaqədar məlumatların (sənədlərin) göndərilməsi üçün elektron poçt və ya digər poçt ünvanını yoxlayıcıya bildirmək;

4-3.1.8. yoxlayıcının fəaliyyətinə maneə yaratmamaqla, yoxlama prosesinin foto, audiovə video çəkilişini aparmaq və bu məqsədlə digər şəxsləri yoxlama prosesinə cəlb etmək;

4-3.1.9. öz hüquq və mənafelərini qorumaq məqsədilə üçüncü şəxsləri yoxlama prosesinə cəlb etmək;

4-3.1.10. yoxlama obyektinə aid olmayan, həmçinin yoxlamanın aparılması haqqında qərarda qeyd olunan yoxlama dövrünə aid olmayan məlumatları (sənədləri) yoxlayıcıya təqdim etməmək;

4-3.1.11. yoxlayıcının qanunsuz tələblərini icra etməmək.

**Maddə 4-4. Yoxlama zamanı sahibkarın vəzifələri**

4-4.1. Yoxlama zamanı sahibkarın vəzifələri aşağıdakılardır:

4-4.1.1. yoxlama suallarına aid olan və yoxlamanın icrası üçün yoxlayıcılar tərəfindən bu Qanuna uyğun olaraqtələb olunan məlumatları (sənədləri) təqdim etmək;

4-4.1.2. iş saatları ərzində yoxlayıcıların yoxlama obyektinin yerləşdiyi yerə maneəsiz daxil olmasına şərait yaratmaq;

4-4.1.3. yoxlamanın başladığı və davam etdiyi müddətdə yoxlamada iştirak etmək və ya səlahiyyətli nümayəndəsinin iştirakını təmin etmək;

4-4.1.4. bilavasitə, yaxud səlahiyyətli nümayəndəsi və işçiləri vasitəsilə yoxlayıcıya yoxlama aparılmasına şərait yaratmaq;

4-4.1.5. kommersiya, vergi və qanunla qorunan digər sirlərin qorunması məqsədilə qanunla müəyyən edilmiş tələblər nəzərə alınmaqla yoxlama aktına əlavə edilməsi üçün yoxlama obyektinə aid olan sənədlərin və digər növ informasiya daşıyıcılarının surətlərini kağız və (və ya) elektron daşıyıcıda yoxlayıcıya təqdim etmək, habelə yoxlayıcıya yoxlama obyektinə dair məlumat olan informasiya sisteminə çıxış əldə etmək imkanı yaratmaq.".

5. Aşağıdakı məzmunda 6-1-ci və 6-2-ci maddələr əlavə edilsin:

**Maddə 6-1. Etik davranış qaydaları və maraqlar toqquşmasının qarşısının alınması**

6-1.1. Dövlət qulluqçuları olan yoxlayıcılar "Dövlət qulluqçularının etik davranış qaydaları haqqında" Azərbaycan Respublikası Qanununun tələblərinə əməl etməlidirlər. Həmin Qanunun etik davranış qaydalarına dair tələbləri dövlət qulluqçusu olmayan yoxlayıcılara da şamil olunur.

6-1.2. Yoxlayıcı aşağıdakı hallarda yoxlama apara bilməz:

6-1.2.1. yoxlanılan hüquqi şəxsin təsisçisi (iştirakçısı) olduqda;

6-1.2.2. yoxlanılan fərdi sahibkarın, hüquqi şəxsin təsisçisinin (iştirakçısının), idarəetmə orqanlarının üzvlərinin (rəhbərinin) yaxın qohumu olduqda;

6-1.2.3. yoxlanılan sahibkarın son 5 (beş) il ərzində işçisi olduqda və ya həmin sahibkarla mülki hüquqi müqavilələr əsasında əməkdaşlıq etdikdə.

6-1.3. Bu Qanunun 6-1.2-ci maddəsində göstərilən hallar müəyyən edildikdə, yoxlayıcı orqanın rəhbəri və ya onu əvəz edən şəxs tərəfindən yoxlamanın aparılması haqqında qərarda dəyişiklik edilərək yeni yoxlayıcı təyin edilir və həmin qərar sahibkara və ya onun səlahiyyətli nümayəndəsinə təqdim edilir.

6-1.4. Yoxlayıcı maddi və sair nemətlər, imtiyazlar və ya güzəşt qarşılığında rəsmi və ya qeyri-rəsmi qaydada, yoxlanılan sahibkara ödənişli məsləhət xidmətləri göstərə bilməz.

**Maddə 6-2. Yoxlayıcı orqanın (yoxlayıcıların) fəaliyyətinin qiymətləndirilməsi**

6-2.1. Yoxlayıcı orqanlar fəaliyyətlərinin qiymətləndirilməsi barədə hesabatlar hazırlamalıdırlar. Bu hesabatlar növbəti ilin fevralın 15-dək müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma) təqdim olunmalıdır.

6-2.2. Qiymətləndirmə üçün yoxlayıcının bu Qanunun 4-2-ci maddəsində göstərilən vəzifələrinin icra vəziyyəti təhlil olunur. Bu məqsədlə toplanmış məlumatlar etibarlı, obyektiv və dəqiq olmalıdır.

6-2.3. Yoxlayıcı orqanının fəaliyyətinin qiymətləndirilməsi meyarları azı aşağıdakıları əhatə etməlidir:

6-2.3.1. yoxlayıcı orqanın nəzarət fəaliyyətinin icrası ilə bağlı məlumatlar;

6-2.3.2. yoxlama obyektləri üzrə sahibkarlıq fəaliyyətinə dair məcburi tələblərə riayət edilmə vəziyyəti ilə bağlı məlumatlar;

6-2.3.3. müəyyən olunmuş nəzarət sahəsində risk səviyyəsinin tədricən azalması ilə bağlı hədəflərə nail olmaqla əlaqədar məlumatlar;

6-2.3.4. yoxlama prosesində sahibkarın hüquqlarının pozulması və ya əsassız surətdə məhdudlaşdırılması ilə bağlı müraciətlərin təhlili.

6-2.4. Yoxlamaların dövriliyi, yoxlama zamanı aşkar edilmiş pozuntuların və onlara görə tətbiq edilən məsuliyyət tədbirlərinin sayı, cərimələrin və maliyyə xarakterli digər sanksiyaların məbləği yoxlayıcı orqanların fəaliyyətini qiymətləndirmək üçün nəzərə alınmır.

6-2.5. Yoxlayıcı orqan fəaliyyətinin qiymətləndirilməsi üçün aşağıdakıları müəyyən edir və bu Qanunun 6-2.1-ci maddəsində nəzərdə tutulan hesabatına əlavə edir:

6-2.5.1. yoxlayıcı orqanın illik və uzunmüddətli məqsədlərini;

6-2.5.2. yoxlayıcı orqanın fəaliyyətini və məqsədlərə nail olma dərəcəsini qiymətləndirmək üçün meyarları.".

6. 7-ci maddə üzrə:

6.1.7.4-cü maddəyə aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin:

"Dövlət qulluqçusu olmayan yoxlayıcıların fəaliyyətinin qiymətləndirilməsi müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilmiş qaydalara uyğun həyata keçirilir.";

6.2. 7.5-ci maddə aşağıdakı redaksiyada verilsin:

"7.5. Hər bir yoxlayıcı orqan illik təlim planı qəbul etməlidir. Planda əhatə olunacaq mövzular, ayrılmış resurslar, təlim keçəcək işçilər və qiymətləndirmə metodu öz əksini tapmalıdır. Təlim planları üzrə yoxlayıcıların aşağıdakı sahələr (istiqamətlər) üzrə səriştələrinin artırılması təmin edilməlidir:

7.5.1. müvafiq yoxlama sahəsi üzrə peşə biliyi;

7.5.2. risklərin idarə olunması;

7.5.3. məcburi tələblərə riayət edilməsinin təşviqi, eləcə də sahibkarlar və ictimaiyyətlə ünsiyyət;

7.5.4. yoxlamanın nəticələrinə uyğun olaraq görülən tədbirlər.";

6.3. aşağıdakı məzmunda 7.5-1-ci maddə əlavə edilsin:

"7.5-1. Yoxlayıcının peşəkarlıq səviyyəsinin müvafiq peşə və kvalifikasiya standartlarına uyğunluğu bu Qanunun 7.5-ci maddəsinin tələbləri nəzərə alınmaqla yoxlayıcı orqan tərəfindən təlimlər vasitəsilə təmin edilməlidir.";

6.4. 7.8 - 7.10-cu maddələr ləğv edilsin.

7. 8-ci maddə üzrə:

7.1.8-ci maddənin adına "Sahibkarlara" sözündən sonra "izahatların və" sözləri əlavə edilsin;

7.2. aşağıdakı məzmunda 8.5-1-ci maddə əlavə edilsin:

"8.5-1. Yoxlayıcı orqan göstərdiyi metodiki köməkliyə, verdiyi izahat və məsləhətlərə görə məsuliyyət daşıyır və bu xidmətlərin keyfiyyətini ölçmək və təkmilləşdirmək üçün tədbirlər görür.";

7.3. 8.6-cı maddəyə "izahatlara" sözündən sonra ", məsləhətlərə" sözü əlavə edilsin;

7.4. 8.7-ci maddəyə "izahatlar" sözündən sonra ", məsləhətlər" sözü, "izahatın" sözündən sonra isə ", məsləhətin" sözü əlavə edilsin.

8. Aşağıdakı məzmunda 9-1-ci maddə əlavə edilsin:

**"Maddə 9-1. Risklərin idarə olunması sistemi**

9-1.1. Risklərin idarə olunması sisteminə aşağıdakılar daxildir:

9-1.1.1. risklərin müəyyənləşdirilməsi - risklərin və onların mənbələrinin aşkar edilməsi, o cümlədən risklərin reallaşması və potensial zərərin vurulması ehtimalının müəyyənləşdirilməsi;

9-1.1.2. risklərin təhlili - risklərin zərərlə nəticələnməsi ehtimalını artıran mexanizm və amillərin araşdırılması;

9-1.1.3. risklərin qiymətləndirilməsi:

9-1.1.3.1. risklərin artmasına gətirib çıxaran səbəb və amillərin müəyyən edilməsi;

9-1.1.3.2. ölkə üzrə nəzarət fəaliyyətinin təsnifatlaşdırılması məqsədilə risklərin ümumi səviyyəsinin ölçülməsi;

9-1.1.3.3. yaratdığı risk səviyyəsi əsasında nəzarət olunan yoxlama obyektlərinin təsnifatı üçün meyarların hazırlanması;

9-1.1.3.4. risk qrupları əsasında sahibkarlar üzərində nəzarət dərəcəsinin prioritetləşdirilməsi;

9-1.1.4. risklərin idarə olunması - riskin təhlili və qiymətləndirilməsi əsasında tədbirlərin tətbiqi;

9-1.1.5. tədbirlərin görülməsi - yoxlama obyektlərinin məcburi tələblərə uyğun gəlməsi və risk yaratmaması üçün yoxlayıcı orqan tərəfindən müvafiq tədbirlərin görülməsi ilə bağlı qərar qəbul edilməsi.".

9. 9.3-cü maddəyə "meyarları" sözündən sonra "nəzarət sahəsi," sözləri əlavə edilsin.

10. 12-ci maddə üzrə:

10.1. 12.1.5-ci maddənin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 12.1.6-cı maddə əlavə edilsin:

"12.1.6. yoxlayıcı orqanın nəzarət sahəsinə aid olan risk və insan həyatı və sağlamlığının, ətraf mühitə, dövlətin əmlak maraqlarının təhlükəsizlik səviyyəsinin qiymətləndirilməsi haqqında.";

10.2. aşağıdakı məzmunda 12.1-1-ci maddə əlavə edilsin:

"12.1-1. Yoxlayıcı orqan öz nəzarət sahəsinə aid məsələlərlə bağlı sahibkarlara məsləhət və izahat verilməsini təmin etməlidir. Yoxlayıcı orqanlar məcburi tələblərə riayət edilməsinin təşviqi üzrə cari ilin noyabrın 1-dək növbəti il üçün keçirilməsi nəzərdə tutulan tədbirlərdən ibarət illik planı hazırlamalı və özlərinin rəsmi internet səhifələrində cari ilin dekabrın 1-dən gec olmayaraq yerləşdirməlidirlər.";

10.3. 12.2-ci maddəyə "12.1.1-12.1.4-cü" sözlərindən sonra "və 12.1.6-cı" sözləri əlavə edilsin.

11. Aşağıdakı məzmunda 13.5 - 13.7-ci maddələr əlavə edilsin:

"13.5. Yoxlamaların vahid məlumat reyestrini aparan müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) bu Qanunun tələblərinə uyğun olaraq təqdim edilmiş yoxlamaları reyestrdə qeydiyyata almalıdır.

13.6. Yoxlayıcı orqan bu Qanunun 12.1.5-ci maddəsinə əsasən görülmüş işlər barədə yarımillik məlumatı ildə iki dəfə (yanvarın və iyulun 15-dək) yoxlamaların vahid məlumat reyestrini aparan müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma) göndərir.

13.7. Yoxlamaların vahid məlumat reyestrini aparan müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) sahibkarlıq sahəsində aparılan yoxlamalar barədə və bu Qanunun 13.6-cı maddəsində nəzərdə tutulmuş yarımillik məlumatları ümumiləşdirərək, ildə iki dəfə (fevralın və avqustun 15-dək) müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma) göndərir.".

12. 15-ci maddə üzrə:

12.1. 15.2.2-ci maddəyə "tutulan" sözündən sonra "yoxlama obyekti və müvafiq" sözləri əlavə edilsin;

12.2. 15.2.4-cü maddədə "sahibkarın təsərrüfat obyektinin ünvanı" sözləri "yoxlama obyektinə dair məlumatlar (adı, ünvanı, təsviri və s.)" sözləri ilə əvəz edilsin.

13. 16.7.1-ci maddədən "müraciət edən şəxsin əqli sağlamlığı," sözləri çıxarılsın.

14.17-ci maddə üzrə:

14.1. 17.2.4-cü maddə aşağıdakı redaksiyada verilsin:

"17.2.4. yoxlanılması nəzərdə tutulan yoxlama obyektinə dair məlumatlar (adı, ünvanı, təsviri və s.);";

14.2. 17.3-cü maddənin birinci cümləsinə "göndərilir" sözündən sonra "və həmin məlumatların (sənədlərin) surəti yoxlamaların vahid məlumat reyestrində qeydiyyata alınmış sahibkarlar üçün göndərildiyi andan açıq olmalıdır" sözləri əlavə edilsin.

15.18.5-ci, 20.3-cü, 22.4.11-ci, 22.6-cı, 31.2.11-ci maddələrə ismin müvafiq hallarında "sahibkar" sözündən sonraismin müvafiq hallarında "və ya onun səlahiyyətli nümayəndəsi" sözləri əlavə edilsin.

16. 19-cu maddə üzrə:

16.1. 19.3-cü maddə aşağıdakı redaksiyada verilsin:

"19.3. Yoxlama suallarının siyahısı yoxlama zamanı yoxlanılan məcburi tələbləri əks etdirməli, risklərə əsaslanmalıdır.";

16.2. 19.4-cü maddəyə aşağıdakı məzmunda üçüncü-altıncı cümlələr əlavə edilsin:

"Yoxlama sualları aydın və birmənalı tərtib olunmalıdır. Sualların prioritetliyi onlara təyin olunmuş müxtəlif xüsusi çəki (bal) üzrə müəyyən edilməlidir. Hər bir yoxlama suallının siyahısının elə bir qiymətləndirmə sistemi olmalıdır ki, yoxlamadan sonra yoxlama obyektinin risk səviyyəsini müəyyənləşdirməyə imkan versin. Hər bir sual üçün fərqli xüsusi çəki (bal) risk dərəcəsinə mütənasib olmalıdır.";

16.3. 19.5-ci maddəyə "siyahısına" sözündən sonra "müvafiq qeydlərin daxil edilməsinə səlahiyyətləndirilmiş" sözləri əlavə edilsin və həmin maddədən "(yoxlamanın rəhbəri)" sözləri çıxarılsın;

16.4. 19.7-ci maddəyə aşağıdakı məzmunda üçüncü cümlə əlavə edilsin:

"Yoxlayıcı orqan yoxlama suallarının hazırlanması və onun qiymətləndirilməsi prosesinə müstəqil ekspertləri cəlb edə bilər.".

17.20.1-ci maddəyə "vəsiqəsini" sözündən sonra "(şəxsiyyət vəsiqəsi ilə birlikdə)" sözləri əlavə edilsin.

18. 25.3-cü maddəyə "göndərir" sözündən əvvəl "və (və ya) elektron formada" sözləri əlavə edilsin.

19. 26-cı maddə üzrə:

19.1. 26.1-ci maddəyə aşağıdakı məzmunda ikinci və üçüncü cümlələr əlavə edilsin:

"Sahibkar tədqiqin (sınağın) nəticəsi ilə razılaşmadıqda və ya bu nəticəyə şübhələri olduqda, öz hesabına yeni tədqiqin (sınağın) keçirilməsini tələb edə bilər. İlkin tədqiqin (sınağın) nəticəsi ilə yeni tədqiqin (sınağın) nəticəsi arasında ziddiyyət olduqda, mübahisə məhkəmə qaydasında həll olunur.";

19.2. 26.3-cü maddə aşağıdakı redaksiyada verilsin:

"26.3. Götürülən məhsul nümunələrinin dəyərinin ödənilməsi, onların saxlanılması, tədqiq (sınaq) edilən parametrlərin dəyişməz saxlanılması, daşınması, tədqiqi, alınmış nəticələr barədə məlumat verilməsi, məhsulun daha sonrakı satışı və ya utilizasiyası ilə əlaqədar yaranan xərclər yoxlayıcı orqan tərəfindən ödənilir.".

20.27.2-ci maddəyə "məhsul nümunələrinin" sözlərindən sonra "ilkin" sözü əlavə edilsin.

21. 28.9.2-ci maddədə "sahibkarın (onun müvafiq təsərrüfat obyektinin) adı və yerləşdiyi ünvan" sözləri "sahibkarın adı və ünvanı, habelə yoxlama obyektinə dair məlumatlar (adı, ünvanı, təsviri və s.)" sözləri ilə əvəz edilsin.

22. 29.2-ci maddənin birinci cümləsinə "ərzində" sözündən sonra "mövcud risklərin qiymətləndirilməsi əsasında və məhdudlaşdırıcı tədbirin tətbiqi barədə qərarda göstərilən tədbirlərin yerinə yetirilməsini sənədlər əsasında müəyyən etmək mümkün olmadıqda" sözləri əlavə edilsin.

23. 31.2.5-ci və 33.4.2-ci maddələr aşağıdakı redaksiyada verilsin:

"31.2.5. yoxlama obyektinə dair məlumatlar (adı, ünvanı, təsviri və s.);";

"33.4.2. yoxlayıcı orqanın adı, yoxlanılan sahibkarın adı və ünvanı, habelə yoxlama obyektinə dair məlumatlar (adı, ünvanı, təsviri və s.);".

24.34-cü maddə üzrə:

24.1. 34.1-ci maddədə "müvafiq icra hakimiyyəti orqanına" sözləri "yuxarı dövlət orqanı olmadıqda müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma)" sözləri ilə əvəz edilsin və həmin maddəyə aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin:

"Yuxarı dövlət orqanı olmayan yoxlayıcı orqanların siyahısı müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilir.";

24.2. 34.4-cü maddəyə "təqdim" sözündən əvvəl "elektron formada" sözləri əlavə edilsin;

24.3.aşağıdakı məzmunda 34.6-cı maddə əlavə edilsin:

"34.6. Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) yuxarı dövlət orqanı olmayan yoxlayıcı orqana münasibətdə bu Qanunun 34.1-ci maddəsinə uyğun olaraq şikayətə baxdığı zaman bu Qanunla müəyyən edilmiş tələblərin və prosedurların pozulması ilə bağlı müvafiq inzibati xətanın əlamətlərini müəyyən etdikdə, bu Qanunun 34.5-ci maddəsində nəzərdə tutulmuş tədbirləri görməlidir.".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 9 iyun 2023-cü il*

# "Azərbaycan Respublikası gömrük orqanlarının vəzifəli şəxslərinin xüsusi geyim forması və fərqlənmə nişanları haqqında Əsasnamə"nin və "Azərbaycan Respublikası gömrük orqanlarının vəzifəli şəxslərinin xüsusi geyim formasının və fərqlənmə nişanlarının təsvirləri"nin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 8 may tarixli 622 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1."Azərbaycan Respublikası gömrük orqanlarının vəzifəli şəxslərinin xüsusi geyim forması və fərqlənmə nişanları haqqında Əsasnamə"nin və "Azərbaycan Respublikası gömrük orqanlarının vəzifəli şəxslərinin xüsusi geyim formasının və fərqlənmə nişanlarının təsvirləri"nin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 8 may tarixli 622 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, № 5, maddə 415; 2020, № 12 (I kitab), maddə 1473; 2021, № 10, maddə 1116) aşağıdakı dəyişikliklər edilsin:

1.1. həmin Fərmanla təsdiq edilmiş Əlavə I - "Azərbaycan Respublikası gömrük orqanlarının vəzifəli şəxslərinin xüsusi geyim forması və fərqlənmə nişanları haqqında Əsasnamə" üzrə:

1.1.1.1.2-ci bənd üzrə:

1. 1.2.1-ci yarımbəndə "yay gödəkcəsi," sözlərindən sonra "yaz-payız gödəkcəsi, kapüşonlu gödəkcə," sözləri əlavə edilsin;

2. 1.2.2-ci yarımbəndə "şlyapa" sözündən sonra ", beysbolka" sözü əlavə edilsin;

1.1.2. 1.3-cü bəndin ikinci cümləsinə "döş nişanı" sözlərindən sonra ", tanınma döş nişanı, lövhəcik" sözləri əlavə edilsin;

1.1.3. 2.2.1-ci və 2.2.2-ci yarımbəndlərə "furajka" sözündən sonra ", beysbolka" sözü, "demisezon gödəkcə" sözlərindən sonra ", yaz-payız gödəkcəsi, kapüşonlu gödəkcə" sözləri, "yubka" sözündən sonra "və şalvar" sözləri əlavə edilsin;

1.1.4. 2.3-cü bənd üzrə:

1. 2.3.1-ci yarımbəndə "qısaqol köynək" sözlərindən əvvəl "beysbolka, üçdüymə köynək," sözləri, "yubka" sözündən sonra "və şalvar" sözləri əlavə edilsin;

2. 2.3.2-ci yarımbəndə "şlyapa" sözündən sonra ",beysbolka, üçdüymə köynək" sözləri, "yubka" sözündən sonra "və şalvar" sözləri əlavə edilsin;

1.1.5. aşağıdakı məzmunda 3.3-1-ci, 3.4-1-ci, 3.5-1-ci və 3.6-1-ci bəndlər əlavə edilsin:

"3.3-1. Beysbolka:

3.3-1.1. ali, baş və orta rəis heyəti və kiçik heyət üçün yaz-payız beysbolkası yaz-payız gödəkcəsinin hazırlandığı tünd mavi parçadan tikilir, günlüklüdür, günbəz formalı və dairəvidir. Ali rəis heyəti üçün beysbolkanın günlüyünün üzərinə həmin heyət üçün müəyyən edilmiş qızılı rəngdə naxış tikilir. Dairənin hündürlüyü boyunca 6 yerdən aşağıdan yuxarı mərkəzə doğru bərabər ölçülərdə ikitərəfli tikişlər gedir. Tikişlərin birləşdiyi təpə hissəsinin mərkəzinə düymə bərkidilir, yan və arxa hissələrində 4 ədəd hava dəlikləri vardır. Dairənin ön tərəfinin ortasına Azərbaycan Respublikası Dövlət Gerbinin təsviri olan kokarda, arxa tərəfinə üzərində qızılı rəngli "GÖMRÜK" sözü toxunmuş, ölçünü nizamlamaq üçün iki hissədən ibarət yapışqanlı lent tikilir (şəkil 43-3, 49-1);

3.3-1.2. ali, baş və orta rəis heyəti və kiçik heyət üçün yay beysbolkası yaz-payız gödəkcəsinin hazırlandığı tünd mavi parçadan tikilir, günlüklüdür, günbəz formalı və dairəvidir. Ali rəis heyəti üçün beysbolkanın günlüyünün üzərinə həmin heyət üçün müəyyən edilmiş qızılı rəngdə naxış tikilir. Dairənin hündürlüyü boyunca6 yerdən aşağıdan yuxarı mərkəzə doğru bərabər ölçülərdə iki tərəfli tikişlər gedir. Tikişlərin birləşdiyi təpə hissəsinin mərkəzinə düymə bərkidilir, yan və arxa hissələri dəliklidir. Dairənin ön tərəfinin ortasına Azərbaycan Respublikası Dövlət Gerbinin təsviri olan kokarda, arxa tərəfinə üzərində qızılı rəngli "GÖMRÜK" sözü toxunmuş, ölçünü nizamlamaq üçün iki hissədən ibarət yapışqanlı lent tikilir (şəkil 43-4, 49-2);

3.3-1.3. ali, baş və orta rəis heyəti və kiçik heyət üçün qış beysbolkası kapüşonlu gödəkcənin hazırlandığı tünd mavi parçadan tikilir, içəri qatlanan qulaqlıqları vardır, günlüklüdür, günbəz formalı və dairəvidir. Ali rəis heyəti üçün beysbolkanın günlüyünün üzərinə həmin heyət üçün müəyyən edilmiş qızılı rəngdə naxış tikilir. Dairənin hündürlüyü boyunca 6 yerdən aşağıdan yuxarı mərkəzə doğru bərabər ölçülərdə ikitərəfli tikişlər gedir. Tikişlərin birləşdiyi təpə hissəsinin mərkəzinə düymə bərkidilir. Dairənin ön tərəfinin ortasına Azərbaycan Respublikası Dövlət Gerbinin təsviri olan kokarda, arxa tərəfinin ortasına qızılı rəngli "GÖMRÜK" sözü toxunulur (şəkil 43-5, 49-3).";

"3.4-1. Plaş:

3.4-1.1. ali rəis heyəti üçün boz rəngli parçadan tikilir, ikibortludur, hər iki tərəfindən kəsmə yan cibləri, üzərində 6 ədəd plastmas düyməsi və eyni parçadan tikilmiş bel kəməri vardır. Qadınlar üçün plaş birbortludur, 3 ədəd plastmas düymə ilə sol tərəfə düymələnir. Plaşın yaxalığında sağ və sol tərəflərdə ali rəis heyəti üçün müəyyən edilmiş sarı rəngli toxunma sünbül nişanı, çiyinlərində poqonlar, sol qolunda (qadınlarda sağ qolunda) ali rəis heyəti üçün müəyyən edilmiş qol nişanı vardır (şəkil 4, 5);

3.4-1.2. baş və orta rəis heyəti və kiçik heyət üçün tünd göy rəngli parçadan tikilir, ikibortludur, hər iki tərəfindən kəsmə cibləri, üzərində 6 ədəd plastmas düyməsi və eyni parçadan tikilmiş bel kəməri vardır. Qadınlar üçün plaş birbortludur, üzərində 4 ədəd plastmas düymə vardır. Plaşın yaxalığında sağ və sol tərəflərdə sarı metaldan hazırlanmış, diametri 20 mm olan yaxa nişanı, çiyinlərində poqonlar vardır. Plaşın sol qolunda (qadınlarda sağ qolunda) qol nişanı vardır (şəkil 19, 21).";

"3.5-1. Kapüşonlu gödəkcə - ali, baş və orta rəis heyəti və kiçik heyət üçün tünd mavi rəngli sukeçirməyən parçadan tikilir, boyunluğu dikdir, düzbiçimlidir və bortları zəncirbəndlə bağlanır. İsti içliyi, boyunluğunda içəri yığılıb-açılan kapüşonu, döş hissələrində hər iki tərəfdə düz yerləşdirilmiş üstlüyü qatlanan və yapışqanlı döş cibləri, ətək hissəsində düz yan cibləri vardır. Çiyinlərində gödəkcənin parçasından hazırlanan taxılıb-çıxarılan poqonlar üçün basmadüymə ilə düymələnən kəmərcikləri vardır. Kürəyi koketkalıdır. Koketkanın tikiş xəttindən 3 sm yuxarıda hündürlüyü 6 sm olan, 27 sm-lik məsafədə yerləşən, işıqəksetdirən ağ rəngli "GÖMRÜK" sözütikilir. Sol qolunda qol nişanı, sağ döş cibinin üstündə tanınma döş nişanı, sol döş cibinin üstündə Azərbaycan Respublikası gömrük orqanının vəzifəli şəxsinin vəzifəsi və şəxsi qeydiyyat nömrəsi yazılan lövhəcik vardır (şəkil 4-1, 5-1, 26-1, 27-1).";

"3.6-1. Yaz-payız gödəkcəsi - ali, baş və orta rəis heyəti və kiçik heyət üçün tünd mavi rəngli sukeçirməyən parçadan tikilir, boyunluğu dikdir, düzbiçimlidir və bortları zəncirbəndlə bağlanır. Döş hissələrində hər iki tərəfdə düz yerləşdirilmiş üstlüyü qatlanan və yapışqanlı döş cibləri, döş ciblərinin yanında zəncirbəndlə bağlanan düz cibləri və ətək hissəsində zəncirbəndlə bağlanan düz yan cibləri vardır. Çiyinlərində gödəkcənin parçasından hazırlanan taxılıb-çıxarılan poqonlar üçün basmadüymə ilə düymələnən kəmərcikləri vardır. Kürəyi koketkalıdır. Koketkanın tikiş xəttindən 3 sm yuxarıda hündürlüyü 6 sm olan, 27 sm-lik məsafədə yerləşən, işıqəksetdirən ağ rəngli "GÖMRÜK" sözü tikilir. Sol qolunda qol nişanı, sağ döş cibinin üstündə tanınma döş nişanı, sol döş cibinin üstündə Azərbaycan Respublikası gömrük orqanının vəzifəli şəxsinin vəzifəsi və şəxsi qeydiyyat nömrəsi yazılan lövhəcik vardır (şəkil 10-1, 11-1, 28-1,29-1).";

1.1.6. 3.8.2-ci yarımbəndin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz olunsun və aşağıdakı məzmunda 3.8.3-cü yarımbənd əlavə edilsin:

"3.8.3. ali, baş və orta rəis heyəti və kiçik heyət kişi və qadın əməkdaşlar üçün kapüşonlu gödəkcə, yaz-payız gödəkcəsi, üçdüymə və ya ətəyi düz uzunqol köynəklə geyinilən şalvar tünd mavi rəngli parçadan, düz, manjetsiz tikilir. Şalvarın kəsmə yan cibləri və arxadan hər iki tərəfdə kəsmə cibləri vardır.";

1.1.7. 3.11.1-ci yarımbənd üzrə:

1. birinci cümlədə "uzunqol və qısaqol olmaqla, ağ" sözləri "qısaqol köynək ağ rəngli, uzunqol köynəklər isə ağ və açıq mavi" sözləri ilə əvəz edilsin;

2. beşinci cümlədə "Ətəyi" sözü "Kapüşonlu gödəkcə və ya yaz-payız gödəkcəsi ilə geyinilən açıq mavi rəngli uzunqol köynəyin ətəyi düz, uzunqol və qısaqol ağ rəngli köynəklərin ətəyi" sözləri ilə əvəz edilsin;

3. doqquzuncu cümlədə "qolunda" sözü" ağ rəngli uzunqol və qısaqol köynəklərin sol qolunda (qadınlarda sağ qolunda)"sözləri ilə əvəz edilsin;

4. onuncu cümlədə "Uzunqol" sözü "Ağ rəngli uzunqol" sözləri ilə əvəz edilsin;

5. on birinci cümlədə "(şəkil 14-17);" sözləri nöqtə işarəsi ilə əvəz olunsun və aşağıdakı məzmunda on ikinci cümlə əlavə edilsin:

"Açıq mavi rəngli uzunqol köynəyin sol qolunda qol nişanı, sağ döş cibinin üstündə tanınma döş nişanı, sol döş cibinin üstündə Azərbaycan Respublikası gömrük orqanının vəzifəli şəxsinin vəzifəsi və şəxsi qeydiyyat nömrəsi yazılan lövhəcik vardır (şəkil 14-17);";

1.1.8. 3.11.2-ci yarımbənd üzrə:

1. birinci cümlə aşağıdakı redaksiyada verilsin:

"baş və orta rəis heyəti və kiçik heyət üçün qısaqol köynək ağ rəngli, uzunqol köynəklər isə açıq mavi rəngli parçadan tikilir.";

2. beşinci cümləyə "rezinlidir" sözündən sonra ", kapüşonlu gödəkcə və ya yaz-payız gödəkcəsi ilə geyinilmək üçün nəzərdə tutulan açıq mavi rəngli uzunqol köynəyin ətəyi isə düzdür" sözləri əlavə edilsin;

3. doqquzuncu cümlədə "iki" sözü "üç" sözü ilə əvəz edilsin;

4. onuncu cümlədə "Köynəyin" sözü "Ətəyi düz açıq mavi rəngli uzunqol köynəyin sol qolunda qol nişanı, sağ döş cibinin üstündə tanınma döş nişanı, sol döş cibinin üstündə Azərbaycan Respublikası gömrük orqanının vəzifəli şəxsinin vəzifəsi və şəxsi qeydiyyat nömrəsi yazılan lövhəcik, ətəyi rezinli açıq mavi rəngli uzunqol və ağ rəngli qısaqol köynəklərin" sözləri ilə əvəz edilsin;

5. on birinci cümlədə "Uzunqol" sözü "Ətəyi rezinli açıq mavi rəngli uzunqol" sözləri ilə əvəz edilsin;

1.1.9. 3.11.2-ci yarımbəndin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz olunsun və aşağıdakı məzmunda 3.11.3-cü yarımbənd əlavə edilsin:

"3.11.3. ali, baş və orta rəis heyəti və kiçik heyət üçün üçdüymə köynək açıq mavi rənglidir, qatlanan boyunluqludur, qısaqoldur və ətəyi düzdür. Yaxası üç adi kiçik düymə ilə düymələnir. Sol qolunda qol nişanı, çiyinlərində taxılıb-çıxarılan poqonlar üçün basmadüymə ilə düymələnən kəmərcikləri vardır. Kürəyi düzdür, boyunluğundan 13 sm aşağıda hündürlüyü 6 sm olan, 27 sm-lik məsafədə yerləşən, işıqəksetdirən ağ rəngli "GÖMRÜK" sözü tikilir. Sol döş cibinin üstündə Azərbaycan Respublikası gömrük orqanının vəzifəli şəxsinin vəzifəsi və şəxsi qeydiyyat nömrəsi yazılan lövhəcik, sağ döş cibinin üstündə tanınma döş nişanı vardır (şəkil 16-1, 17-1, 34-1, 35-1).";

1.1.10. 3.13-cü bənd aşağıdakı redaksiyada verilsin:

"3.13. Şərf - istiləşdirilmiş gödəkcə üçün tünd göy rəngli trikotaj, plaş üçün isə ağ rəngli ipək parçadan hazırlanır.";

1.1.11. aşağıdakı məzmunda 3.18-ci bənd əlavə edilsin:

"3.18. Xüsusi bel kəməri - qara rəngli göndən hazırlanır. Eni 4,5 sm, toqqası 5x6 sm-dir. Üzərində qobur, fənər və gömrük nəzarəti zamanı lazım olan digər əşyaların asılması üçün futlyarlar vardır (şəkil 73).";

1.1.12.4.1-ci və 4.2-ci bəndlərdən "plaş," sözü çıxarılsın;

1.1.13. 4.1.4-cü, 4.2.3-cü yarımbəndlər və 5.9-cu bənd ləğv edilsin;

1.1.14.4.1.10-cu və 4.2.9-cu yarımbəndlər aşağıdakı redaksiyada verilsin:

"4.1.10. şərf - palto üçün trikotaj parçadan hazırlanır, ağ rəngdə olur;";

"4.2.9. şərf - palto üçün trikotaj parçadan hazırlanır, ağ rəngdə olur;";

1.1.15. 5.1-ci bənddən "xüsusi bel kəməri," sözləri çıxarılsın;

1.1.16. aşağıdakı məzmunda 6.8-2-ci və 6.8-3-cü bəndlər əlavə edilsin:

"6.8-2. Tanınma döş nişanı - dairəvi formalı, aşağı hissəsi uzunsov, arxası yapışqanlıdır. Üzərində gömrük orqanının emblemi toxunmuşdur, qızılı rənglə "AZƏRBAYCAN RESPUBLİKASININ GÖMRÜK XİDMƏTİ", "AZERBAIJAN CUSTOMS SERVICE" sözləri və "1992" rəqəmləri yazılmışdır. Kənarları qızılı rəngli xətlə haşiyələnmişdir. Üçdüymə və ətəyi düz uzunqol köynəyin, yaz-payız gödəkcəsinin və kapüşonlu gödəkcənin sağ döş cibinin üstünə yapışdırılır (şəkil 67-2).

6.8-3. Lövhəcik - hündürlüyü 30 mm, eni 80 mm ölçülü düzbucaqlı formasında və arxası yapışqanlıdır. Üzərində qızılı rənglə Azərbaycan Respublikası gömrük orqanının vəzifəli şəxsinin vəzifəsi və şəxsi qeydiyyat nömrəsi yazılır. Kənarları qızılı rəngli xətlə haşiyələnmişdir. Üçdüymə və ətəyi düz uzunqol köynəyin, yaz-payız gödəkcəsinin və kapüşonlu gödəkcənin sol döş cibinin üstünə yapışdırılır (şəkil 67-3).";

1.2. həmin Fərmanla təsdiq edilmiş Əlavə II-"Azərbaycan Respublikası gömrük orqanlarının vəzifəli şəxslərinin xüsusi geyim formasının və fərqlənmə nişanlarının təsvirləri" üzrə:

1.2.1. 4-1, 5-1, 10-1, 11-1, 14-1, 15-1, 16-1, 17-1, 26-1,27-1, 28-1, 29-1,32-1, 33-1, 34-1, 35-1,43-3, 43-4, 43-5, 49-1, 49-2, 49-3, 67-2 və 67-3 nömrəli şəkillər əlavə edilsin (əlavə olunur);

1.2.2. 73 nömrəli şəkil yeni təsvirdə verilsin (əlavə olunur).

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Fərmandan irəli gələn məsələləri həll etsin.

3. Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi bu Fərmandan irəli gələn məsələlərin həlli üçün zəruri tədbirlər görsün.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 7 iyul 2023-cü il*



## "Bədən tərbiyəsi və idman haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 1-ci bəndini rəhbər tutaraq **qərara alır:**

"Bədən tərbiyəsi və idman haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009, № 8, maddə 613; 2010, № 6, maddə 489; 2011, № 2, maddə 71; 2013, № 11, maddə 1281; 2014, № 4, maddə 340; 2015, № 5, maddə 507; 2016, № 3, maddə 420, № 12, maddə 2021; 2017, № 1, maddə 11, № 7, maddə 1272; 2018, № 7 (I kitab), maddələr 1393, 1412, № 10, maddə 1966; 2019, № 5, maddə 797; 2020, № 6, maddə 670, № 7, maddə 830; 2021, № 2, maddə 109, № 6 (I kitab), maddə 547, № 8, maddə 898, № 12, maddələr 1315, 1338; 2022, № 6, maddə 592, № 7, maddə 692, № 8, maddə 829; Azərbaycan Respublikasının 2023-cü il 17 fevral tarixli 814-VIQD nömrəli Qanunu) 13.1-ci maddəsində "açıqlanmasını" sözü "təşviqini" sözü ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 31 may 2023-cü il*

## Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 9 avqust tarixli 444 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi haqqında Əsasnamə"də dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 9 avqust tarixli 444 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006, № 8, maddə 670; 2007, № 3, maddə 233, № 5, maddə 455, № 8, maddə 768, № 11, maddələr 1094, 1105; 2008, № 5, maddə 373, № 11, maddə 970; 2009, № 12, maddə 983; 2010, № 2, maddə 83; 2012, № 5, maddə 420, № 9, maddə 857; 2013, № 10, maddə 1154, № 11, maddə 1331; 2019, № 7, maddə 1232, № 12, maddə 1929; 2020, № 8, maddə 1036; 2021, № 8, maddə 920) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi haqqında Əsasnamə"də aşağıdakı dəyişikliklər edilsin:

1. 8.1-ci, 8.4-cü, 8.6-cı, 9.2-ci, 9.4-cü, 9.7-ci və 9.18-ci yarımbəndlərdə "öz səlahiyyətləri daxilində" sözləri "fəaliyyət istiqamətlərinə uyğun olaraq" sözləri ilə əvəz edilsin.

2. 8.8-1-ci yarımbənddə "öz səlahiyyətləri daxilində" sözləri "fəaliyyət istiqamətlərinə uyğun olaraq" sözləri ilə, "kütləvi informasiya vasitələrində" sözləri "mediada" sözü ilə, "açıqlanmasını" sözü "təşviqini" sözü ilə əvəz edilsin.

3. 8.20-ci yarımbənddən "öz səlahiyyətləri daxilində" sözləri çıxarılsın.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 7 iyul 2023-cü il*

## "Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2023-cü il 9 iyun tarixli 903-VIQD nömrəli Qanununun tətbiqi və Azərbaycan Respublikası Prezidentinin "Sahibkarlıq sahəsində aparılan yoxlamaların vahid məlumat reyestrinin forması və aparılması qaydası haqqında Əsasnamə"nin təsdiq edilməsi barədə" 2011-ci il 15 fevral tarixli 383 nömrəli, "Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi haqqında" Azərbaycan Respublikasının 2013-cü il 2 iyul tarixli 714-IVQ nömrəli Qanununun tətbiqi barədə" 2013-cü il 28 avqust tarixli 955 nömrəli fərmanlarında dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2023-cü il 9 iyun tarixli 903-VIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. Müəyyən edilsin ki:

1.1. "Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi haqqında" Azərbaycan Respublikası Qanununun 6-2.1-ci və 7.4-cü maddələrinin ikinci cümlələrində, 13.5-ci, 13.6-cı, 13.7-ci (hər iki halda) maddələrində, 34.1-ci maddəsinin birinci və ikinci cümlələrində və 34.6-cı maddəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

1.2. həmin Qanunun 13.7-ci maddəsində (ikinci halda) "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Prezidenti və Azərbaycan Respublikasının Nazirlər Kabineti nəzərdə tutulur;

1.3. həmin Qanunun 6-2.1-ci, 7.4-cü və 34.1-ci maddələrinin ikinci cümlələrində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Nazirlər Kabineti nəzərdə tutulur;

1.4. həmin Qanunun 13.5-ci, 13.6-cı, 13.7-ci (birinci halda) maddələrində, 34.1-ci maddəsinin birinci cümləsində və 34.6-cı maddəsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi nəzərdə tutulur.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

2.1. "Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi haqqında" Azərbaycan Respublikası Qanununun 7.4-cü maddəsinin ikinci cümləsinə uyğun olaraq, dövlət qulluqçusu olmayan yoxlayıcıların fəaliyyətinin qiymətləndirilməsi qaydalarını dörd ay müddətində təsdiq edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

2.2. həmin Qanunun 34.1-ci maddəsinin ikinci cümləsinə uyğun olaraq, yuxarı dövlət orqanı olmayan yoxlayıcı orqanların siyahısını üç ay müddətində təsdiq edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

2.3. "Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2023-cü il 9 iyun tarixli 903-VIQD nömrəli Qanunundan irəli gələn digər məsələləri həll etsin.

3. "Sahibkarlıq sahəsində aparılan yoxlamaların vahid məlumat reyestrinin forması və aparılması qaydası haqqında Əsasnamə"nin təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 15 fevral tarixli 383 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011, № 2, maddə 87; 2015, № 8, maddə 910; 2016, № 8, maddə 1384; 2017, № 3, maddə 377, № 10, maddə 1778; 2018, № 10, maddə 2001; 2019, № 5, maddə 857; 2020, № 6, maddə 707; 2021, № 5, maddə 450; 2022, № 7, maddə 754, № 8, maddələr 844, 881; 2023, № 4, maddə 475) aşağıdakı dəyişikliklər edilsin:

3.1. 4-cü hissədə "sahibkarlıq fəaliyyəti subyekti" sözləri "sahibkar" sözü ilə əvəz edilsin;

3.2. həmin Fərmanla təsdiq edilmiş "Sahibkarlıq sahəsində aparılan yoxlamaların vahid məlumat reyestrinin forması və aparılması qaydası haqqında Əsasnamə" üzrə:

3.2.1. 1.4-cü bənddə "sahibkarlıq fəaliyyəti subyektlərində" sözləri "yoxlama obyektlərində" sözləri ilə əvəz edilsin;

3.2.2. 1.5-2-ci bənddə və 2.4.2-ci yarımbənddə "sahibkarlıq subyektlərinin" sözləri "sahibkarların" sözü ilə əvəz edilsin;

3.2.3. 1.6-1-ci bəndin ikinci cümləsində "sahibkarlıq fəaliyyətinin subyekti" sözləri "sahibkar" sözü ilə əvəz edilsin;

3.2.4. 3.1-ci, 3.6-cı bəndlərdə, 5.1-ci bəndin birinci cümləsində və 5.3-cü bənddə ismin müvafiq hallarında "sahibkarlıq fəaliyyəti subyektləri" sözləri ismin müvafiq hallarında "sahibkarlar" sözü ilə əvəz edilsin;

3.2.5. 3.4.3-cü, 3.4.5-ci, 3.4.6-cı yarımbəndlərdə və 3.5-ci bənddə ismin müvafiq hallarında "sahibkarlıq subyekti" sözləri ismin müvafiq hallarında "sahibkar" sözü ilə əvəz edilsin;

3.2.6. 3.4.4-cü yarımbənddə, 4.5-ci bənddə, 4.6-cı bəndin ikinci cümləsində və 5.1.3-cü yarımbənddə ismin müvafiq hallarında "sahibkarlıq fəaliyyəti subyekti" sözləri ismin müvafiq hallarında "sahibkar" sözü ilə əvəz edilsin;

3.2.7. 3.4.8-ci və 5.1.6-cı yarımbəndlərdə "təsərrüfat obyektinin" sözləri "yoxlama obyektinin adı, təsviri," sözləri ilə əvəz edilsin;

3.2.8. 4.9-cu bənddə "hər 3 aydan bir" sözləri "Qanunun 13.7-ci maddəsinə uyğun olaraq ildə iki dəfə (fevralın və avqustun 15-dək)" sözləri ilə, "sahibkarlıq subyektləri" sözləri isə "sahibkarlar" sözü ilə əvəz edilsin;

3.2.9. 4.10-cu bənddə "sahibkarlıq fəaliyyəti subyektləri" sözləri "sahibkarlar" sözü ilə, "sahibkarlıq fəaliyyəti subyektinin" sözləri isə "sahibkarın" sözü ilə əvəz edilsin;

3.2.10. 5.6-cı bənddə "Sahibkarlıq fəaliyyəti subyektləri" sözləri "Sahibkarlar" sözü ilə əvəz edilsin.

4. "Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi haqqında" Azərbaycan Respublikasının 2013-cü il 2 iyul tarixli 714-IVQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 28 avqust tarixli 955 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013, № 8, maddə 898; 2014, № 5, maddə 477; 2016, № 3, maddə 461, № 8, maddə 1384; 2018, № 11, maddələr 2248, 2250) 4-cü hissəsində aşağıdakı dəyişikliklər edilsin:

4.1. 4.1-ci bənddə ", 13.2-ci, 27.1-ci və 27.4.1-ci maddələrində" sözləri "maddəsində, 6-2.1-ci və 7.4-cü maddələrinin ikinci cümlələrində, 13.2-ci, 13.5-ci, 13.6-cı, 13.7-ci (hər iki halda), 27.1-ci, 27.4.1-ci maddələrində, 34.1-ci maddəsinin birinci və ikinci cümlələrində və 34.6-cı maddəsində" sözləri ilə əvəz edilsin;

4.2. aşağıdakı məzmunda 4.1-1-ci, 4.2-1-ci və 4.3-1-ci bəndlər əlavə edilsin:

"4.1-1. həmin Qanunun 13.7-ci maddəsində (ikinci halda) "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Prezidenti və Azərbaycan Respublikasının Nazirlər Kabineti nəzərdə tutulur;";

"4.2-1. həmin Qanunun 6-2.1-ci, 7.4-cü və 34.1-ci maddələrinin ikinci cümlələrində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Nazirlər Kabineti nəzərdə tutulur;";

"4.3-1. həmin Qanunun 13.5-ci, 13.6-cı, 13.7-ci (birinci halda) maddələrində, 34.1-ci maddəsinin birinci cümləsində və 34.6-cı maddəsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi nəzərdə tutulur;";

4.3. 4.3-cü bənddən ", 34.1-ci" sözləri çıxarılsın.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 7 iyul 2023-cü il*

## Baş nazir Əli Əsədov Tacikistanın iqtisadi inkişaf və ticarət naziri ilə görüşüb

İyulun 7-də Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov Tacikistan Respublikasının iqtisadi inkişaf və ticarət naziri Zavki Zavkizoda ilə görüşüb.

Nazirlər Kabinetinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, görüşdə Azərbaycan Prezidentinin bu ilin aprelində Tacikistana dövlət səfərinin əhəmiyyəti vurğulanıb.

Tərəflər iki ölkə arasında iqtisadi-ticari, investisiya, mədəni-humanitar sahələrdə qarşılıqlı fəaliyyəti nəzərdən keçiriblər.



Bakıda Azərbaycan ilə Tacikistan arasında ticari-iqtisadi əməkdaşlıq məsələləri üzrə birgə Hökumətlərarası Komissiyasının 6-cı iclasının keçirilməsinin əhəmiyyəti qeyd edilib.

## Moskvada Azərbaycan ilə Rusiya arasında İqtisadi əməkdaşlığa dair Hökumətlərarası Komissiyanın iclası olub

İyulun 7-də Moskvada Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında İqtisadi əməkdaşlığa dair Hökumətlərarası Komissiyanın 21-ci iclası keçirilib.



Nazirlər Kabinetinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Azərbaycan Respublikası Baş nazirinin müavini, komissiyanın Azərbaycan tərəfindən sədri Şahin Mustafayev və Rusiya Federasiyası Hökuməti Sədrinin müavini, komissiyanın Rusiya tərəfindən sədri Aleksey Overçukun sədrliyi ilə keçirilən iclasda həmçinin iki ölkənin müvafiq dövlət strukturlarının rəhbərləri və səlahiyyətli nümayəndələri iştirak ediblər.

Tərəflər Azərbaycan-Rusiya dostluq əlaqələrinin hərtərəfli inkişafından məmnunluq ifadə ediblər.

Tədbirdə qeyd olunub ki, Azərbaycan və Rusiya prezidentləri arasında fəal siyasi dialoq, şəxsi təmaslar ikitərəfli əməkdaşlığın bütün spektri üzrə yüksək dinamikanı təmin edir.

İclasda vurğulanıb ki, Azərbaycan ilə Rusiya arasında iqtisadi-ticarət münasibətləri çox müsbət dinamikaya malikdir. Məmnunluqla qeyd edilib ki, 2022-ci ildə əmtəə dövriyyəsi 24 faiz artaraq 3,7 milyard ABŞ dollarına çatıb.

Müzakirələr zamanı qarşılıqlı investisiyalar sahəsində əməkdaşlığın dinamik inkişafı qeyd edilib. Azərbaycan-Rusiya və Rusiya-Azərbaycan İşgüzar şuralarının biznes dairələri arasında birbaşa təmasların yaradılmasına töhfəsi müsbət qiymətləndirilib.

Tərəflər həmçinin sənaye kooperasiyasının uğurla inkişaf etdiyini bildiriblər. Vurğulanıb ki, aqrar-sənaye kompleksində əməkdaşlıq yaxşı templərlə inkişaf edir.

İclasda qeyd olunub ki, tərəflər nəqliyyat-logistika əlaqələrinin inkişafına böyük əhəmiyyət verir. Azərbaycan ilə Rusiya arasında yükdaşımaların həcminin artmasında müsbət dinamika təmin edilib, bu göstərici 2022-ci ildə 36 faizdən çox olub.

Tərəflər inkişafına birgə səylərin yönəldildiyi "Şimal-Cənub" Beynəlxalq Nəqliyyat Dəhlizi layihəsini prioritet kimi qiymətləndiriblər. Onlar həmçinin qarşılıqlı maraq doğuran sahələr üzrə ikitərəfli münasibətlərin inkişafı perspektivlərini müzakirə edib, qarşılıqlı faydalı əməkdaşlığın bütün kompleksi üzrə konstruktiv dialoqun davam etdirilməsinə hazır olduqlarını bildiriblər.

Sonda Azərbaycanın Baş nazirinin müavini Şahin Mustafayev və Rusiya Hökuməti Sədrinin müavini Aleksey Overçuk Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında İqtisadi əməkdaşlığa dair Hökumətlərarası Komissiyanın 21-ci iclasının protokolunu imzalayıblar.

## Mikayıl Cabbarov Ümumdünya Ticarət Təşkilatının baş direktoru ilə görüşüb

İqtisadiyyat naziri Mikayıl Cabbarovun rəhbərlik etdiyi Azərbaycan nümayəndə heyəti Ümumdünya Ticarət Təşkilatının (ÜTT) Katibliyində Azərbaycanın üzvlüyü ilə bağlı yaradılmış İşçi Qrupun 15-ci iclasında iştirak etmək üçün İsveçrəyə səfər edib.

Nazirlikdən AZƏRTAC-a bildirilib ki, səfər çərçivəsində iqtisadiyyat naziri Mikayıl Cabbarov Ümumdünya Ticarət Təşkilatının baş direktoru xanım Ngozi Okonyo-İveala ilə görüşüb. İqtisadiyyat naziri Azərbaycanın sosial-iqtisadi inkişaf məqsədləri barədə məlumat verərək, beynəlxalq təşkilatlarla əlaqələrin genişləndirilməsinə önəm verildiyini, ölkəmizlə ÜTT ölkələri arasında əməkdaşlığın inkişafını, o cümlədən ÜTT-yə üzvlüklə bağlı görülən işlərin əhəmiyyətini qeyd edib. Azərbaycanda iqtisadi sferada həyata keçirilən islahatlar, əldə olunan nəticələr, əlverişli işgüzar mühit və investorlar üçün yaradılan imkanlar barədə məlumat verilib.

Görüşdə ÜTT ilə əlaqələrin gücləndirilməsi imkanları, ölkəmizin təşkilat üzvləri ilə əməkdaşlığının prioritet istiqamətləri, ÜTT-yə üzvlüklə bağlı atılan addımlar, habelə Azərbaycan iqtisadiyyatının dünyada mövqeyi və ticarətin liberallaşdırılması üçün görülən işlər barədə müzakirələr aparılıb.

İqtisadiyyat naziri Mikayıl Cabbarovun Azərbaycanın ÜTT-yə üzvlüyü ilə bağlı İşçi Qrupun sədri Alparslan Acarsoy ilə görüşündə ölkəmizin iqtisadi-ticarət əlaqələri, ticarətin inkişafı, iqtisadi artımın sürətləndirilməsi, rifahın yüksəldilməsi məqsədilə həyata keçirilən tədbirlər barədə məlumat verilib.

## Prezidentin göstərişi ilə bölgələrdə vətəndaşların qəbulu keçirilir

Azərbaycan fövqəladə hallar naziri Kəmaləddin Heydərov iyulun 7-də Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin inzibati binasında sakinlərlə görüşüb.

Sonra fövqəladə hallar naziri tərəfindən qəbul edilən Naxçıvan Muxtar Respublikası sakinlərinin müraciətlərinin əksəriyyəti yerindəcə öz həllini tapıb, bir sıra məsələlərlə bağlı qanunvericiliyə uyğun dərhal zəruri tədbirlərin görülməsi barədə nazirliyin aidiyyəti strukturlarının rəhbərlərinə tapşırıqlar verilib.

Fövqəladə hallar naziri ilə yanaşı, nazir müavinləri, nazirliyin müvafiq baş idarə və qurum rəhbərləri də vətəndaşları qəbul ediblər.

* * *

Ədliyyə naziri Fikrət Məmmədov tərəfindən keçirilən qəbulda Xızı, Siyəzən, Şabran və digər rayonlardan olan vətəndaşlar iştirak ediblər.

Sonra vətəndaşların ədliyyə fəaliyyəti ilə bağlı müraciətləri dinlənilib, qaldırılan məsələlərə dair aidiyyəti tapşırıqlar verilib. Bu zaman Vətən müharibəsi iştirakçılarının və şəhid ailələrinin qayğılarına xüsusi həssaslıqla yanaşılıb.

Xızı Rayon Məhkəməsinin sabiq əməkdaşı, Vətən uğrunda döyüşlərdə fədakarcasına iştirak edərək iki gözündən əlil olmuş Kamran Baxşizadə igidlik və mərdlik nümunəsi göstərdiyinə görə ölkə Prezidentinin sərəncamları ilə "Cəsur döyüşçü", "Suqovuşanın azad olunmasına görə", habelə "Vətən müharibəsi iştirakçısı" medalları ilə təltif edilib, özü və ailəsi yüksək dövlət qayğısı ilə əhatə olunub.

* * *

İyulun 7-də Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Bahar Muradova Qax rayonunda vətəndaşlarla görüşüb.

Qax rayonundakı Heydər Əliyev Mərkəzində keçirilən görüşdə Qax, Zaqatala, Balakən rayonundan və Şəki şəhərindən olan sakinlər iştirak ediblər.

Dövlət Komitəsinin aidiyyəti struktur bölmələri rəhbərlərinin də iştirakı ilə keçirilən görüşdə vətəndaşların müxtəlif mövzularda müraciətləri dinlənilib. Mövzular əsasən uşaqların himayəyə verilməsi, müalicəsi, işlə təmin olunma və digər məsələlərlə bağlı olub.

Görüş zamanı qurumun fəaliyyət istiqamətlərinə uyğun olan müvafiq müraciətlər cavablandırılıb, qaldırılan bəzi məsələlərin yerində həlli ilə bağlı tədbirlər görülüb, həlli araşdırma tələb edən məsələlərlə bağlı müraciətlər qeydə alınaraq icraata götürülüb.

# Milli Məclis Sədrinin müavini Adil Əliyev vətəndaşlarla görüşüb

Milli Məclis Sədrinin müavini, Gənclər və idman komitəsinin sədri Adil Əliyev iyulun 7-də 20 saylı Nərimanov II seçki dairəsində yerləşən deputat ofisində seçiciləri, həmçinin ərazi məhdudiyyəti olmadan şəhid ailələri və qazilərlə görüşüb, onların müxtəlif məzmunlu müraciətlərini dinləyib.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, müraciətlərdə vətəndaşlar tərəfindən qaldırılmış məsələlərin bir qismi yerindəcə həll olunub, qalan məsələlərlə bağlı aidiyyəti qurumlara məktublar hazırlanıb.

Vitse-spiker Adil Əliyev müraciət edən vətəndaşlara bildirib ki, ölkəmizdə əhalinin sosial müdafiəsinin daha da gücləndirilməsi, rifah halının daha da yaxşılaşdırılması, şəhid ailələrinin və qazilərin sosial problemlərinin həlli daim diqqət mərkəzindədir. Diqqətə çatdırılıb ki, cənab Prezident tərəfindən əhalinin müraciətlərinə qayğı ilə yanaşılması barədə verilən tapşırıq və tövsiyələrə uyğun olaraq Milli Məclis Sədrinin müavini Adil Əliyevin ünvanına daxil olan bütün növ müraciətlərə yüksək diqqət göstərilir, mövcud qanunvericiliyin tələblərinə uyğun olaraq müvafiq tədbirlər görülür.

Görüşdə iştirak edən vətəndaşlar, şəhid ailələri və qazilər göstərilən yüksək diqqət və qayğıya görə cənab Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya minnətdarlıqlarını bildiriblər.

*"Azərbaycan"*

# Azərbaycandakı dini konfessiya rəhbərləri İsveçdə Quranın yandırılması ilə əlaqədar bəyanat yayıblar



İyunun 28-də İsveçin paytaxtı Stokholmda müsəlmanların müqəddəs kitabı "Qurani-Kərim"in təhqir olunaraq yandırılması ilə əlaqədar Azərbaycandakı dini konfessiyaların rəhbərləri birgə bəyanat qəbul ediblər.

AZƏRTAC xəbər verir ki, bəyanatda Azərbaycanda fəaliyyət göstərən müsəlman, pravoslav, yəhudi, katolik və alban-udi konfessiyalarının rəhbərləri iyunun 28-də İsveçin paytaxtı Stokholmda, məscidin yaxınlığında polisin himayəsi ilə müsəlmanların müqəddəs kitabı "Qurani-Kərim"in təhqir olunaraq yandırılmasını islamofobiya təxribatı və vəhşi vandalizm aktı kimi qiymətləndirib, bu iyrənc hadisəni qətiyyətlə pisləyiblər.

Qeyd edilib ki, İslam Peyğəmbərinin karikaturalarla təhqir olunması və bu əməllərin dövlət başçısı tərəfindən açıq surətdə dəstəklənməsi kimi görünməmiş islamofobiya təzahürləri özünü demokratiyanın beşiyi kimi qələmə verən Fransadan başlayıb. Müstəmləkəçilik ideyalarının pərəstişkarı olan Fransa bu gün də islamofobiya xislətinə sadiq qalaraq Azərbaycanda aqressiv separatizmi dəstəkləyir, bölgədə sülhə nail olunmasına maneə yaradır. Məhz Fransanın çirkin nümunəsindən ruhlanan bir sıra əqidəsiz şəxslərin hərəkətləri birmənalı olaraq nifrətə çağırış, insanların əqidəsinə və ləyaqətinə qarşı törədilən mənəvi cinayət kimi inancılı insanlar tərəfindən qınanıb.

"İyulun 5-də Qoşulmama Hərəkatının Əlaqələndirmə Bürosunun Bakıda keçirilən nazirlər görüşünün açılışında Azərbaycan Prezidenti İlham Əliyev bildirdi: "Neokolonializmi hələ də davam etdirən ölkələrdən biri Fransadır... Fransanın soyqırımlarla dolu hakimiyyəti dövründə 1,5 milyona yaxın əlcəzairli qətlə yetirilib. Hələ də Paris muzeyində əlcəzairli azadlıq döyüşçülərinin kəllə sümükləri mühafizə qənimətləri kimi saxlanılır. Bu utancverici və iyrənc hərəkətdir. Biz Fransa prezidenti Emmanuel Makrondan həmin qəhrəmanların qalıqlarını Əlcəzairə təhvil verməsini tələb edirik". Biz bu fikirləri, həmçinin Qoşulmama Hərəkatının qəbul etdiyi qərar və qətnamələri dəstəkləyirik. Eyni zamanda Roma Papası Fransisk və Əl-Əzhərin Baş İmamı Şeyx Əhməd əl-Tayyibin imzaladıqları "İnsani Qardaşlıq, Dünyada Sülh və Birgə Yaşayış" Birgə Sənədi əlqışlayır, BMT Təhlükəsizlik Şurasının 2686 saylı qətnaməsini təqdir edirik", - deyə bəyanatda vurğulanıb.

Konfessiya rəhbərləri bəyan ediblər ki, artıq dəfələrlə törədilən və bu gün də törədilməkdə olan belə alçaq əməllərin məqsədi beynəlxalq miqyasda ekstremizmə təkan vermək, insanlar və dinlər arasında nifrəti qızışdırmaq, dolayısı ilə terroru təşviq etməkdir. Belə halların İsveçdə mütəmadi səciyyə daşıması bu ölkədə yaşayan inanclı müsəlmanların hüquqlarının kobud şəkildə pozulması, iki milyarda yaxın müsəlmanın heysiyyətinə toxunulması deməkdir. Onlar İsveç hökumətinə müraciət edərək iyunun 28-də baş verən hadisənin törədilməsinə günahkar olaraq məsuliyyət daşıdığını qəbul etməyə, dini dəyərlərin və atributlarının təhqir edilməsinin qarşısının alınması və yenidən təkrarlanmaması üçün əməli addımlar atmağa çağırıblar.

Qeyd olunub ki, dini zəmində qarşıdurmaya təşviq edən belə çağırışlar, təcavüz və zorakılığa təhrik edən bu cür əməllər bəşəri təhlükəyə çevrilməkdədir. Dindən siyasi məqsədlər üçün sui-istifadə halları, ksenofobiya təzahürləri cəmiyyətlərin və dövlətlərin daxili sabitliyini pozmağa, qarşıdurma və nifaq yaratmağa xidmət edir.

"İctimaiyyət xadimlərini, beynəlxalq təşkilatları və din xadimlərini və qurumlarını törədilən əməli qətiyyətlə qınamağa və din pərdəsi altında hər hansı radikalizm təzahürlərini, dindən sui-istifadə edən ekstremizm, ksenofobiya hallarını, inancından, əqidəsindən asılı olmayaraq insanların mənəvi dəyərlərinə hörmət etməyə və təhqir hallarının baş verməməsi üçün daha ciddi səy göstərməyə çağırırıq. Bu məqsədlə BMT səviyyəsində dinlərin müqəddəs şəxslərinə, rəmzlərinə, atributlarına və məkanlarına qarşı vandalizm hallarını və nifrət nitqlərini qətiyyətlə pisləyən qətnamənin qəbul edilməsini, dünya dövlətlərinin öz qanunvericiliyində bu kimi əməllərə yol verilməməsi haqqında müvafiq müddəaların əks etdirilməsini məqsədəuyğun sayırıq", - deyə dini icma rəhbərləri bildiriblər.

Bir daha vurğulanıb ki, söz azadlığı heç də mənəvi hisslərə toxunmaq, nifrətə çağırışlara təhrik etmək deyil, əksinə, insanları mənəviyyata dəvət etmək üçün olmalıdır.

Onlar dünyanın dövlət və ictimaiyyət xadimlərini, beynəlxalq və dini təşkilatları səslərinə səs verməyə çağırıblar.

Sənədi Qafqaz Müsəlmanları İdarəsinin sədri Şeyxülislam Allahşükür Paşazadə, Azərbaycandakı Dağ Yəhudiləri İcmasının rəhbəri Milix Yevdayev, Rus Pravoslav Kilsəsinin Bakı və Azərbaycan Yeparxiyasının katibi Arximandrit Aleksiy, Bakıdakı Avropa Yəhudiləri İcmasının rəhbəri Aleksandr Şarovski və Azərbaycandakı Alban-Udi Xristian Dini İcmasının sədri Robert Mobili imzalayıblar.

# Beynəlxalq Ədalət Məhkəməsi Ermənistanın Laçın yolu ilə bağlı vəsatətini rədd edib

Beynəlxalq Ədalət Məhkəməsi İrqi ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi üzrə Beynəlxalq Konvensiyanın tətbiqi ilə bağlı Ermənistanın Azərbaycana qarşı məhkəmə işi üzrə 2023-cü il 22 fevral tarixli qərarında dəyişiklik edilməsi məqsədilə Ermənistanın 2023-cü il 12 may tarixli tələbini yekdilliklə rədd edib.

Bu barədə AZƏRTAC-a Xarici İşlər Nazirliyinin Mətbuat xidmətindən məlumat verilib.

"Biz Məhkəmənin Azərbaycanın öz sərhədlərinə nəzarət etmək hüququnu bir daha təsdiq edən və Ermənistanın sərhəd-nəzarət buraxılış məntəqəsinin aradan qaldırılması ilə bağlı tələbinin əsassız olduğunu sübut edən qərarını alqışlayırıq. Beləliklə, Ermənistan tərəfinin son qərarı yanlış şərh etməsi çıxılmaz vəziyyətdən fikri yayındırmaq cəhdindən başqa bir şey deyil.

Azərbaycanın Laçın yolunun girişində sərhəd-nəzarət buraxılış məntəqəsi təsis etmək qərarı onun sərhədlərinin mühafizəsi üzrə suveren hüququdur. Qeyd edilən çərçivədə, bu qərar Azərbaycanın təhlükəsizliyini və sülh perspektivlərini təhdid edən respublikanın suveren ərazisinə qeyri-qanuni olaraq silah, hərbi texnika və hərbçilərin axınının dayandırılması zərurətindən irəli gəlir.

Bununla yanaşı, sərhəd-nəzarət buraxılış məntəqəsi yaradılandan etibarən ermənisilli yerli sakinlər Azərbaycanın daxili və beynəlxalq öhdəlikləri çərçivəsində giriş-çıxışda sərhəd nəzarətinin ayrı-seçkilik olmadan həyata keçirildiyi sərhəd-buraxılış məntəqəsindən keçməkdədirlər.

Azərbaycan Beynəlxalq Ədalət Məhkəməsinin qərarını və beynəlxalq hüquqi öhdəliklərini yerinə yetirməkdədir. Azərbaycan Ermənistanın beynəlxalq hüququn davamlı şəkildə və təxirə ağır pozuntularına görə məsuliyyətə cəlb edilməsi istiqamətində bütün zəruri tədbirləri davam etdirəcək", - deyə XİN-in məlumatında vurğulanıb.

# "Beynəlxalq Ədalət Məhkəməsinin qərarı erməni fitnəkarlığının iflasa uğradığını göstərir"

"Beynəlxalq Ədalət Məhkəməsinin qərarı erməni fitnəkarlığının iflasa uğradığını göstərir".

Bu fikirləri "Report"a açıqlamasında Milli Məclisin deputatı Aydın Hüseynov deyib.

Deputatın sözlərinə görə, Beynəlxalq Ədalət Məhkəməsinin Ermənistanın Laçın yolu ilə bağlı 12 may 2023-cü il tarixli vəsatətinə rədd cavabı verməsi Azərbaycan dövlətinin beynəlxalq hüquq normaları çərçivəsində fəaliyyət göstərdiyini bir daha sübut edir: "Azərbaycan hüquqi ərazilərinin suverenliyinin qorunması məqsədi ilə Laçın yolunun başlanğıcında sərhəd-buraxılış məntəqəsini yaradıb. Rəsmi Bakının atdığı bu addım beynəlxalq səviyyədə də qanuni hesab olunur".




"Beynəlxalq Ədalət Məhkəməsinin bu qərarı faktiki olaraq Azərbaycan dövlət sərhəd-buraxılış məntəqəsinin qurulmasının beynəlxalq hüquq tərəfindən tanındığını isbatlayıb", - deyə o qeyd edib.

A.Hüseynov vurğulayıb ki, artıq dünya ictimaiyyəti Ermənistanın yürütdüyü yalan dolu siyasətini tanıyır: "Bu, onlara verilən obyektiv qiymətdir".

# Azərbaycanın Ermənistan üzərində daha bir qələbəsi

## Bu dəfə beynəlxalq hüquq müstəvisində

*Əvvəli 1-ci səh.*

Azərbaycan tərəfi məhkəməyə Ermənistan tərəfindən bu müddət ərzində Laçın yolunun qanunsuz istifadə olunmasını sübut edən dəlilləri təqdim etmiş, xüsusilə Ermənistandan Azərbaycanın Qarabağ bölgəsinə öz hərbçilərinin göndərilməsi, yeni istehsal edilmiş minaların gətirilməsi və bu ərazilərdə basdırılması, ölkəmizin təbii sərvətlərinin qanunsuz istismarı və Ermənistana daşınması, üçüncü dövlətlərin vətəndaşlarının ölkəmizə qanunsuz gəlməsinə şərait yaradılması məqsədi ilə sui-istifadə hallarına dair çoxsaylı sübutlar təqdim etmişdir.

İyulun 6-da məhkəmə Azərbaycanın təqdim etdiyi sübutlar və gətirdiyi arqumentlərlə tam razılaşaraq Ermənistanın vəsatətini yekdilliklə rədd etmiş və bununla Azərbaycanın Ermənistanla şərti dövlət sərhədlərində sərhəd-buraxılış məntəqəsini qurmağa beynəlxalq hüquq əsasında suveren hüquqa malik olduğunu rəsmi tanımış, Azərbaycanın Laçın yolundan öz silahlı qüvvələrini çıxarmağa dair beynəlxalq hüquq əsasında hər hansı bir öhdəliyə malik olmadığını təsdiqləmiş, habelə Ermənistan tərəfindən cari ilin aprel ayından Azərbaycan tərəfindən öz suveren hüququna əsaslanaraq quraşdırılmış sərhəd-buraxılış məntəqəsinin fəaliyyətinin məhkəmənin 22 fevral 2023-cü il tarixli qərarını pozduğuna dair iddiasını əsassız hesab etmiş və Azərbaycanın sərhəd-buraxılış məntəqəsi vasitəsilə Laçın yoluna tam nəzarət həyata keçirməyə haqlı olduğu ilə razılaşmışdır.

Məhkəmənin Azərbaycanın öz sərhədlərinə nəzarət etmək hüququnu bir daha təsdiq edən və Ermənistanın sərhəd-nəzarət buraxılış məntəqəsinin aradan qaldırılması ilə bağlı tələbinin əsassız olduğunu sübut edən qərarı təqdirəlayiqdir. Bu qərar Azərbaycanın təhlükəsizliyini və sülh perspektivlərini təhdid edən ölkəmizin suveren ərazisinə qanunsuz silah, hərbi texnika və hərbçilərin axınının dayandırılması zərurətindən irəli gəlir. Azərbaycanın Laçın yolunun girişində sərhəd-buraxılış məntəqəsi təsis etmək qərarı onun sərhədlərinin mühafizəsi üzrə suveren hüququdur.

Bununla da Ermənistanın 1988-ci ildə başladığı "Miatsyum" layihəsi rəsmən beynəlxalq səviyyədə iflasa uğramışdır.

Qeyd edək ki, Ermənistanın yalan təbliğatına baxmayaraq, sərhəd-buraxılış məntəqəsi yaradılandan sonra ermənisilli yerli sakinlər Azərbaycanın daxili və beynəlxalq öhdəlikləri çərçivəsində ayrı-seçkilik və maneə olmadan sərhəd-buraxılış məntəqəsindən keçə bilirlər.

**Rizvan CƏFƏROV,**
*"Azərbaycan"*

# Azərbaycan və Türkiyə məhkəmələri arasında əməkdaşlığın perspektivləri müzakirə olunub

İyulun 6-7-də Azərbaycan Respublikasının Ali Məhkəməsinin və Məhkəmə-Hüquq Şurasının sədri İnam Kərimovun başçılıq etdiyi nümayəndə heyəti Türkiyədə işgüzar səfərdə olub.



Ali Məhkəmənin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, nümayəndə heyəti əvvəlcə Ankarada Türkiyə Respublikasının qurucusu Mustafa Kamal Atatürkün məzarını - Anıtqabir Movzeley Kompleksini ziyarət edib, önünə əklil qoyub. Həmçinin Ankaradakı Heydər Əliyev Parkı ziyarət edilib. Nümayəndə heyəti Ulu Öndərin burada ucaldılan abidəsinin önünə əklil qoyub, xatirəsini dərin ehtiram və hörmətlə yad edib.

Sonra Türkiyənin Ali Məhkəməsinin (Yargıtay) sədri Mehmet Akarca, Ali İnzibati Məhkəməsinin (Danıştay) sədri Zeki Yiğit, ədliyyə naziri Yılmaz Tunç və baş prokuroru Bekir Şahinlə görüşlər keçirilib.

Görüşlərdə iki qardaş ölkənin məhkəmələrinin təcrübəsi və qarşılıqlı əməkdaşlığının perspektivləri müzakirə olunub. Azərbaycan və Türkiyənin məhkəmə-hüquq sistemləri arasında əlaqələrin yüksələn xətlə inkişaf etdiyi və bu münasibətlərin daha da genişlənməsi üçün səylərin artırılmasının vacibliyi vurğulanıb. Ədalət mühakiməsini həyata keçirən məhkəmələrin əməkdaşlığının ikitərəfli münasibətlərin inkişafına böyük töhfə verdiyi diqqətə çatdırılıb. Daha sonra Ankara Universitetinin rektoru Necdet Ünüvar və Türkiyə Ədliyyə Akademiyasının rəhbəri Muhittin Özdemir ilə görüşlər keçirilib. Hüquqşünaslıq üzrə yüksəkixtisaslı kadrların hazırlanması, hakimliyə namizədlərlə yanaşı, məhkəmə aparatı işçilərinin də peşəkarlıq səviyyəsinin artırılması istiqamətində gələcək əməkdaşlıq məsələləri müzakirə olunub.

# Daha 140 mənzil və fərdi ev

Bu il şəhid ailələri və müharibə ilə əlaqədar əlilliyi olanlara 500, postmüharibə dövründə 5 000, ümumilikdə ötən dövrdə 13 800 mənzil və fərdi ev verilib.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən Bakı, Abşeron, Gəncə, Bərdə, Beyləqan, Oğuz, Qazax, Saatlı, Salyan, Tovuz, Ucar, Zaqatala, Bərdə, Xaçmaz, Şabran şəhər və rayonlarında şəhid ailələrinə və müharibə ilə əlaqədar əlilliyi olan şəxslərə 140 mənzil və fərdi ev təqdim edilib.

MİDA-nın Gəncə şəhərindəki yaşayış kompleksindən mənzillərin təqdim edilməsi tədbirində əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini Vüsal Nəsirli və Gəncə Şəhər İcra Hakimiyyəti başçısının birinci müavini Səməd Tomuyev iştirak ediblər.



Qeyd olunub ki, Prezident, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusunun möhtəşəm zəfər əldə etdiyi 44 günlük Vətən müharibəsindən sonrakı dövrdə şəhid ailələri və müharibə ilə əlaqədar əlilliyi olan şəxslərin mənzil və fərdi evlə təminatı proqramı 5 dəfə genişlənib. Bu gün də **(dünən - red.)** 15 şəhər və rayonda daha 140 mənzil və fərdi ev verilir. Beləliklə, postmüharibə dövründə 5 000, bu il 500, ümumilikdə ötən dövrdə 13 800 mənzil və fərdi ev şəhid ailələrinə və müharibə ilə əlaqədar əlilliyi olan şəxslərə təqdim olunub.

Eyni zamanda ölkə Prezidentinin sərəncamı ilə 2021-ci ilin əvvəlindən İkinci Qarabağ müharibəsi şəhidlərinin ailələri və həmin müharibə ilə əlaqədar əlilliyi olanların da mənzillə təminatı həyata keçirilir.

# Azad edilmiş ərazilərdə hərbi polis bölmələrinin komendant xidməti fəaliyyəti daha keyfiyyətli təşkil olunacaq

Müdafiə Nazirliyinin Hərbi Polis İdarəsində təlim-metodiki toplanış keçirilib.

Bu barədə AZƏRTAC-a Müdafiə Nazirliyinin Mətbuat xidmətindən məlumat verilib. Bildirilib ki, Hərbi Polis İdarəsinin tabeliyindəki hərbi hissə komandirlərinin iştirakı ilə keçirilən toplanışda əvvəlcə xalqımızın Ümummilli Lideri Heydər Əliyevin və ölkəmizin azadlığı, müstəqilliyi, ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsi birdəqiqəlik sükutla yad edilib. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Toplanışda bu ilin birinci yarımilində hərbi polis bölmələrinin nəzarət-buraxılış məntəqələrində patrul xidmətinin təşkili, obyektlərin mühafizəsi, hərbi nəqliyyat vasitələrinin hərəkətinin istiqamətləndirilməsi, kolonların təhlükəsiz hərəkətinin təmin edilməsi və digər tapşırıqlar üzrə məruzələri dinlənilib, həmçinin növbəti tədris dövründə icra ediləcək tədbirlər barədə müzakirələr aparılıb.

Müdafiə naziri general-polkovnik Zakir Həsənovun növbəti tədris dövründə xüsusilə azad edilmiş ərazilərdə hərbi polis bölmələrinin komendant xidməti fəaliyyətinin daha keyfiyyətli təşkili və sayıqlığın artırılması ilə bağlı tapşırıqları diqqətə çatdırılıb.

Sonda atəş hazırlığı üzrə nümayiş məşğələsi toplanış iştirakçılarına təqdim edilib.

# İLHAM ƏLİYEV irqçiliyə, ədalətsizliyə, separatçılığa qarşı qlobal mübarizə platforması yaradır




## Qlobal liderlik nümunəsi

### Azərbaycan sədri olduğu Qoşulmama Hərəkatı vasitəsilə dünyada sülhü və ədaləti təşviq edir

Azərbaycanın Qoşulmama Hərəkatına sədrliyi bu təşkilatın son dördillik tarixində böyük nailiyyətlərlə əlamətdardır. Belə ki, bu dövrdə respublikamızın təşəbbüsləri ilə üzv dövlətlərin maraqları naminə təşkilatın potensialından və imkanlarından səmərəli istifadə olunub, təşkilat qlobal məsələlərdə söz sahibi kimi çıxış etməyə başlayıb. Beləliklə, məhz İlham Əliyevin Sədrliyi ilə Qoşulmama Hərəkatının nüfuzu əhəmiyyətli dərəcədə yüksəlib və bu təsisat beynəlxalq münasibətlər sistemində mühüm rol oynayan siyasi platformaya çevrilib.

#### Uğurlu xarici siyasət, yüksək nüfuz və qlobal etimad

Xatırladaq ki, Azərbaycan Qoşulmama Hərəkatına 2019-cu ildən sədrlik edir. 2019-cu ilin oktyabr ayında dünyanın ikinci ən böyük təşkilatına sədrliyin Azərbaycana keçməsi Prezident İlham Əliyevin müdrik və uzaqgörən siyasətinin nəticəsi, respublikamıza olan yüksək beynəlxalq etimadın göstəricisi idi. Həmin vaxt Prezident İlham Əliyev bununla bağlı demişdi: "Dünyanın ikinci böyük təşkilatı olan Qoşulmama Hərəkatına sədrlik etməyə başlamışıq. Qoşulmama Hərəkatından daha böyük təşkilat Birləşmiş Millətlər Təşkilatıdır ki, onun da sədri olmur. Orada Təhlükəsizlik Şurasının sədri olur və özü də rotasiya qaydasında. Ona görə biz bu gün işlək vəziyyətdə sədrliyi olan ən böyük beynəlxalq təşkilata sədrlik edirik və bu sədrliyi 119 ölkənin dəstəyi ilə əldə etmişik. Bu, nəyi göstərir? Onu göstərir ki, dünya ictimaiyyəti bizi dəstəkləyir, bizə inanır, bizə rəğbətlə yanaşır və bizim mövqeyimizi müdafiə edir".

2012-2013-cü illərdə 155 dövlətin dəstəyi ilə BMT Təhlükəsizlik Şurasının üzvlüyündə təmsil olunan Azərbaycan indi Qoşulmama Hərəkatına sədrlik edir. Bu siyasi hadisə bir daha ölkəmizin nüfuzundan və İlham Əliyevin uğurlu xarici siyasətindən xəbər verir. Qoşulmama Hərəkatına ən son üzv olan dövlətlərdən olmasına baxmayaraq, Azərbaycanın regionda və dünyadakı güclü mövqeyi, qlobal problemlərin həllinə verdiyi töhfələr və digər bu kimi amillər respublikamızın QH-yə sədrliyinin bütün üzv dövlətlər tərəfindən dəstəklənməsini şərtləndirdi.

#### Pandemiya ilə mübarizəyə töhfə

Sədrliyə başladıqdan sonra Azərbaycan təşkilatın qlobal məsələlərdə iştirak səviyyəsini artırmaq üçün böyük işlər görüb. Bu istiqamətdə fəaliyyətin ilk uğurlu nəticəsi isə pandemiya ilə mübarizədə Qoşulmama Hərəkatının xətti ilə beynəlxalq həmrəyliyin təmin edilməsində özünü göstərib. Qoşulmama Hərəkatının Sədri kimi bu məsələdə qlobal liderliyi öz üzərinə götürən Prezident İlham Əliyevin qətiyyəti və təşəbbüsləri bu məsələdə öz sözünü deyib. Hələ 2020-ci ilin mayında Azərbaycanın təşəbbüsü ilə Hərəkatın COVID-19 ilə mübarizəyə həsr edilən liderlər səviyyəsində onlayn sammitinin keçirilməsi bu istiqamətdə atılmış ilk addımlardan biri idi. Həmin ilin dekabr ayında isə Prezident İlham Əliyevin təklifi ilə BMT Baş Assambleyasının pandemiya ilə mübarizəyə həsr edilən xüsusi sessiyası keçirildi. Yetmişdən çox dövlət və hökumət başçısının çıxış etdiyi bu xüsusi sessiya pandemiya ilə mübarizə sahəsində ən qlobal tədbir oldu.

Azərbaycan peyvənd millətçiliyinə qarşı da qətiyyətli mübarizə apardı. 2021-ci ilin mart ayında BMT-nin İnsan Hüquqları Şurasının 46-cı sessiyası çərçivəsində Qoşulmama Hərəkatının sədri qismində Azərbaycanın təşəbbüsü ilə "COVID-19 əleyhinə peyvəndlərə bərabər, məqbul qiymətə, vaxtında və universal əlçatanlığın təmin edilməsi" adlı qətnamə qəbul edildi. BMT Baş Assambleyasının 76-cı sessiyası çərçivəsində isə plenar iclasda Hərəkatın Sədri qismində Prezident İlham Əliyevin təşəbbüsü ilə Hərəkat üzvləri adından irəli sürülmüş "COVID-19 əleyhinə peyvəndlərə bərabər, məqbul qiymətə, vaxtında və universal əlçatanlığın təmin edilməsi" adlı qətnamə BMT üzv dövlətlərinin mütləq əksəriyyətinin dəstəyi ilə qəbul olundu.

#### Azərbaycan Hərəkata sədrliklə bağlı yeni nümunələr yaradıb

Azərbaycanın sədrliyi dövründə Qoşulmama Hərəkatının institusional fəaliyyətinin inkişafı istiqamətində də mühüm işlər görülüb. Belə ki, Hərəkatın Parlament Şəbəkəsi və Gənclər Təşkilatı yaradılıb. Hazırda isə Azərbaycanın təşəbbüsü ilə təsisatın qadınlar platformasının yaradılması üzərində iş gedir.

Bir neçə gün əvvəl Bakıda keçirilmiş Qoşulmama Hərəkatının Əlaqələndirmə Bürosunun "Qoşulmama Hərəkatı: meydana çıxan çağırışlarla mübarizədə birgə və qətiyyətli" mövzusunda nazirlər görüşü bir daha təsdiq edir ki, Azərbaycan bu təşkilatı üzv dövlətlərin maraqları, qlobal problemlərin müzakirəsi və həlli istiqamətində uğurla səfərbər edir. Nazirlər iclasında QH-nin üzv dövlətləri, Hərəkat yanında müşahidəçi statusu almış dövlətlər və beynəlxalq təşkilatlar, xüsusi qonaq qismində dəvət olunan ölkə və təşkilatların təmsilçiləri daxil olmaqla ümumilikdə 93 ölkə, 11 beynəlxalq təşkilatın nümayəndəsinin iştirakı da göstərir ki, Azərbaycanın təşəbbüsləri təşkilat daxilində möhkəm dəstəklənir.

Azərbaycanın sədrliyi ilə geniş müzakirələr və qətiyyətli səylər nəticəsində iclasda Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyi ilə bağlı Anım Bəyannaməsi, Yekun sənəd, Bakı Bəyannaməsi, Ev sahibi olan ölkəyə təşəkkür, eləcə də 2024-cü ildə Parisdə keçiriləcək Olimpiya Oyunlarına dair Xüsusi Bəyannamə kimi mühüm sənədlər qəbul edilib.

Uğurlu fəaliyyətinin və təşkilatın ümumi işinə verdiyi töhfələrin nəticəsidir ki, Azərbaycanın Qoşulmama Hərəkatına sədrliyi bir ildə uzadılıb. Bütövlükdə isə Azərbaycan Hərəkata sədrliklə bağlı yeni nümunələr yaradıb və bu, təşkilatın qlobal nüfuzunu və çəkisini artırıb.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

## Qoşulmama Hərəkatının Əlaqələndirmə Bürosunun nazirlər görüşü uğurla yekunlaşıb

İyulun 5-6-da Bakıda Azərbaycanın sədrliyi ilə keçirilən Qoşulmama Hərəkatının Əlaqələndirmə Bürosunun nazirlər görüşü uğurla yekunlaşıb.

Nazirlər görüşündə Qoşulmama Hərəkatının üzv dövlətləri, Hərəkat yanında müşahidəçi statusu almış dövlətlər və beynəlxalq təşkilatlar, xüsusi qonaq qismində dəvət olunan ölkə və təşkilatların təmsilçiləri daxil olmaqla ümumilikdə 93 ölkə, 11 beynəlxalq təşkilat iştirak edib.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Prezidenti İlham Əliyevin sədrliyi və çıxışı ilə başlayan nazirlər görüşü zamanı Hərəkatın institusional inkişafı, xüsusən də müvafiq olaraq 2021-ci və 2022-ci illərdə Qoşulmama Hərəkatı Parlament Şəbəkəsinin və Qoşulmama Hərəkatı Gənclər Təşkilatının yaradılması, habelə Cənubi Sudanın Hərəkata yeni üzv qəbul edilməsi kimi Azərbaycanın 2019-2023-cü illəri əhatə edən sədrliyinin uğurları xüsusi olaraq vurğulanıb.

Tədbir zamanı, Hərəkatın gündəliyində duran və əhatə dairəsinə aid bir çox məsələnin əks olunduğu sənədlər yekdilliklə qəbul olunub.

Nazirlər görüşü çərçivəsində Ulu Öndər Heydər Əliyevin 100 illiyinə həsr olunmuş tədbir və "Kolonializmin tamamilə aradan qaldırılmasına doğru" mövzusunda konfrans xüsusi marağa səbəb olub.

Azərbaycanın sədrliyi ilə geniş müzakirələr və qətiyyətli səylər nəticəsində iclasda Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyi ilə bağlı Anım Bəyannaməsi, Yekun sənəd, Bakı Bəyannaməsi, Ev sahibi olan ölkəyə təşəkkür, eləcə də 2024-cü ildə Parisdə keçiriləcək Olimpiya Oyunlarına dair Xüsusi Bəyannamə kimi mühüm sənədlər qəbul edilib.

Qəbul edilmiş yekun sənədlərin mətnləri ilə aşağıdakı keçiddə tanış olmaq mümkündür: *https://namazerbaijan.org/ministerial-meeting-documents*

Qeyd edək ki, Azərbaycan Qoşulmama Hərəkatında sədrliyi 2024-cü ilin yanvar ayında Uqandaya təhvil verəcək.

## İlham Əliyev Qoşulmama Hərəkatına sədrliyi dövründə mükəmməl model yaradıb

İyulun 5-6-da Bakıda keçirilən Qoşulmama Hərəkatının Əlaqələndirmə Bürosunun nazirlər görüşü yekunlaşıb. Görüşdə ümumilikdə 93 ölkə, 11 beynəlxalq təşkilat iştirak edib.





Azərbaycanın sədrliyi ilə keçirilmiş iclasda Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyi ilə bağlı Anım Bəyannaməsi, Yekun sənəd, Bakı Bəyannaməsi, Ev sahibi olan ölkəyə təşəkkür, eləcə də 2024-cü ildə Parisdə keçiriləcək Olimpiya Oyunlarına dair Xüsusi Bəyannamə kimi mühüm sənədlər qəbul edilib.

İclas çərçivəsində Qoşulmama Hərəkatı Gənclər Təşkilatının mənzil qərargahının açılış mərasimi baş tutub, Ulu Öndər Heydər Əliyevin 100 illiyinə həsr olunmuş tədbir və "Kolonializmin tamamilə aradan qaldırılmasına doğru" mövzusunda konfrans keçirilib.

#### Qlobal proseslərə daha effektiv və adekvat reaksiya verən təşkilat

Milli Məclisin deputatı Bəhruz Məhərrəmov qəzetimizə açıqlamasında deyib ki, Qoşulmama Hərəkatının Əlaqələndirmə Bürosunun Bakıdakı nazirlər görüşü həm milli maraqlar, həm də qlobal məqsədlər baxımdan çox mühüm tarixi-siyasi hadisədir.

Deputat qeyd edib ki, yeni çağırışlar şəraitində BMT başda olmaqla, çoxsaylı təsisatların yeni dünya düzəninin tələblərini ödəmədiyi heç kimə sirr deyil: "Məsələn, bəzən saatlar içində icra olunan BMT Təhlükəsizlik Şurasının 822, 853, 874 və 884 saylı qətnamələrinin 30 il ərzində yerinə yetirilmədiyinin şahidi olmuşuq. Yaxud BMT-nin ixtisaslaşmış təşkilatı UNESCO 30 il Azərbaycan ərazilərinin işğala məruz qalmasına, mədəni nümunələrin, elm-təhsil ocaqlarının, dini abidələrin, qəbiristanlıqların dağıdılmasına göz yumduğu halda zəfərimizdən sonra işğaldan azad olunan Azərbaycan ərazilərində erməni irsi axtarmağa başladı. Yaxud Fransanın əsrlərlə davam edən kolonial siyasəti, habelə müasir dövrdə Korsikada milli dilin və kimliyin qadağan olunmasına bu təsisatların demək olar ki, hamısı susqunluqla yanaşır".

B.Məhərrəmov bildirib ki, bu cür institutlarla yeni çağırışları qarşılamaq mümkün deyil. Bu mənada Bakıda "Qoşulmama Hərəkatı: meydana çıxan çağırışlarla mübarizədə birgə və qətiyyətli" mövzusunda nazirlər görüşündə Azərbaycan Prezidenti, Qoşulmama Hərəkatının sədri İlham Əliyevin verdiyi bəyanatlar yeni dünya düzənində qlobal məqsəd və hədəflərə doğru birgəfəaliyyət üçün yol xəritəsi hesab edilməlidir.

Deputat vurğulayıb ki, BMT-də islahatlar aparılması barədə ümumi təkliflərdən o yana keçməyən liderlərdən fərqli olaraq Prezident İlham Əliyev Qoşulmama Hərəkatına sədrliyi dövründə islahat nümunəsi ortaya qoyub. "Etiraf edək ki, Qoşulmama Hərəkatı böyük potensialına baxmayaraq, Azərbaycanın sədrliyinə qədər ətalətdə olan bir təsisat olub, amma bu gün cənab İlham Əliyevin rəhbərliyi altında Hərəkat özünün təsirli parlament və gənclər şəbəkəsi olan, qlobal proseslərə BMT-dən daha effektiv formada adekvat reaksiya verən institusional təşkilata çevrilib. Prezident İlham Əliyev pandemiya dövründə qlobal səyləri birləşdirərək məhz Qoşulmama Hərəkatı çərçivəsində pandemiya ilə səmərəli mübarizəni təşkil etdi. BMT də, ÜST də cənab İlham Əliyevin rəhbərliyi altında formalaşan data bazaya istinadən hərəkət etdi. Yaxud BMT qətnamələrinin icra mexanizmlərinin yaradılması, BMT Təhlükəsizlik Şurasının tərkibinin genişləndirilməsi və məzmunca yeni baxışla bağlı konkret formulun ortaya qoyulması, BMT-nin dayanıqlı inkişaf məqsədlərinin genişləndirilməsi məsələləri məhz Azərbaycan liderinin ideyalarıdır", - deyə o əlavə edib.

Azərbaycan Prezidentinin yeni çağırışlar fonunda yeni dünya düzəninə keçid prosesinin aparıcı simalarından olduğunu vurğulayan deputat bildirib ki, bununla da əvvəllər bizi görməzdən gələnlər, dinləmək istəməyənlər artıq özləri Azərbaycanın qlobal oyunçu olduğunu etiraf edirlər. Etiraf etməyənlərin, bu reallığı hələ də anlamaq istəməyənlərin də Makronun simasında aqibəti bəllidir.

B.Məhərrəmov qeyd edib ki, Prezident İlham Əliyev iki dəfə BMT TŞ-də, Ərəb Liqasında, eləcə də Qoşulmama Hərəkatının Əlaqələndirmə Bürosunun Bakıdakı nazirlər görüşündə Marseldə Azərbaycana təzyiqlərdən danışan Fransa Prezidentinin artıq qlobal müstəvidə "fail persona" olduğunu hamıya göstərdi.

#### QH öz əhəmiyyətini bir daha göstərdi

Milli Məclisin deputatı Kamilə Əliyeva bildirib ki, Qoşulmama Hərəkatının Əlaqələndirmə Bürosunun nazirlər görüşünün açılış mərasimində Prezident İlham Əliyev müasir dünyada hələ də ikili standartların, ədalətsizliyin hökm sürməsi barədə həqiqətləri beynəlxalq ictimaiyyətin diqqətinə çatdırıb.

Deputat qeyd edib ki, bu gün millətlərin azadlığının, dövlətlərin suverenliyinin, ərazi bütövlüyünün qorunmasının təminatçısı olduğu BMT, əslində, bir neçə dövlətin maraqlarını müdafiə edən yararsız quruma çevrilib. BMT Təhlükəsizlik Şurasının daimi üzvü olmasından sui-istifadə edən Fransa bir çox dövlətlərə və xalqlara qarşı həm işğalçılıq, həm də soyqırımı siyasəti həyata keçirir: "Fransa Əlcəzairdə, bir sıra Afrika və Şərqi Asiya dövlətlərində talançılıq həyata keçirərək, milyonlarla insanı qətlə yetirib. Bu gün Fransa Prezidenti Makron da bu siyasəti davam etdirir. Beynəlxalq təşkilatlar bu dövlətin törətdiyi cinayətlərlə bağlı səslərini çıxarmırlar. Prezident İlham Əliyev isə yeganə dövlət başçısıdır ki, Fransa dövlətinin və rəhbərinin təcavüzkar, işğalçı siyasət aparmasını Qoşulmama Hərəkatının tribunasından qətiyyətlə dünyaya çatdırdı. Əslində, ölkə rəhbərimiz bir çox dövlət başçılarının söyləyə bilmədiyi fikirləri çox cəsarətli şəkildə səsləndirdi".

K.Əliyeva bildirib ki, Makron işğalçı Ermənistana dəstək verməklə, çirkin siyasətini Cənubi Qafqazda da həyata keçirmək niyyətindədir. "Səriştəsiz "siyasətçi" başa düşməlidir ki, regionda İlham Əliyev kimi qətiyyətli siyasətçi və güclü dövlət başçısı var. Makron onsuz da gec-tez alçalmış şəkildə geri çəkiləcək", - deyə o əlavə edib.

Prezident İlham Əliyevin islamofobiya haqqında fikirlərinə toxunan deputat bir sıra Qərb dövlətlərində islamofobiyanın geniş yayıldığını qeyd edib. Bu ölkələrdə müsəlmanların müqəddəs kitabı Quranın yandırıldığını xatırladan K.Əliyeva əlavə edib ki, bunu söz və fikir azadlığı adlandıranlar, əslində, bütün islam dünyasına qarşı mənəvi terror törədirlər: "Bu dövlətlərin rəhbərləri Azərbaycanda tolerantlığa, multikultural dəyərlərə olan hörmətə baxıb utanmalıdırlar. Ölkəmizdə digər dinlərə, mədəniyyətlərə göstərilən qayğıdan ibrət götürməlidirlər. Qoşulmama Hərəkatının nazirlər görüşündə dövlət başçısı bir daha Azərbaycanın dünyada ikili standartlara son qoyulmasını və ədalətin bərpa olunmasının tərəfdarı olduğunu açıqladı. Bu, çox mötəbər tədbir idi və öz əhəmiyyətini bir daha göstərdi".

***Əsmər QARDAŞXANOVA,***
***"Azərbaycan"***

# Ermənistan Respublikasının dağ-mədən sənayesinin Cənubi Qafqaz regionunda ekoloji sabitliyi pozması barədə Baş nazir Nikol Paşinyana açıq məktub

Cənab Baş nazir!

Biz, aşağıda imzası olan Azərbaycan Respublikasında fəaliyyət göstərən vətəndaş cəmiyyəti təşkilatları beynəlxalq ekoloji norma və standartları kobud şəkildə pozmaqla, Ermənistan Respublikasının dağ-mədən sənayesində aparılan işlərin ətraf mühitə regional və qlobal təsirlərinin yol açdığı ciddi ekoloji böhranla bağlı dərin narahatlığı ifadə edən bu məktubu sizə ünvanlayırıq.

Ermənistanın vətəndaş cəmiyyəti təşkilatlarının da ölkədə genişlənən ekoloji problemlərlə bağlı artan həyəcanını diqqətlə izləyir, onların da dərin narahatlığını bölüşürük. Davam edən mədən əməliyyatları nəticəsində ekosistemin korlanması təkcə Ermənistanın ətraf mühiti üçün təhdid deyil, həm də qonşu ölkələrə böyük təhlükədir. Ekoloji zərərin transsərhəd xarakteri regionda və ondan kənarda yaşayan icmaların sağlamlığını və rifahını riskə atır.

Biz, beynəlxalq ekoloji norma və standartları, region əhalisinin hüquqlarını pozmaqla aparılan dağ-mədən sənayesi işlərinin dayandırılmasını tələb edirik.

Qeyd edirik ki, Birləşmiş Millətlər Təşkilatının Dayanıqlı İnkişaf Məqsədləri (DİM) ekoloji, sosial və iqtisadi problemlərin həlli üçün hərtərəfli çərçivə təqdim edir. BMT-yə üzv dövlətlər təmiz hava, təhlükəsiz içməli su və sanitariya kimi amilləri sağlamlığın ətraf mühit amilləri kimi tanıyıb. Eyni zamanda BMT təmiz, sağlam və davamlı ətraf mühiti əsas insan hüququ kimi tanıyır. Lakin Ermənistan bu ekoloji cinayətləri törətməklə, BMT-nin Dayanıqlı İnkişaf Məqsədlərinin, xüsusən "Yaxşı Səhiyyə və Rifah" üzrə 3-cü, "Təmiz Su və Sanitariya" ilə bağlı 6-cı, "Məsuliyyətli İstehsal və İstehlak" üzrə 12-ci, "İqlim Dəyişikliyinin Fəsadlarına qarşı Mübarizə"yə dair 13-cü, "Torpaq Ekosisteminin Mühafizəsi" üzrə 15-ci Məqsədlərinin tamamilə əleyhinə çıxış edir.

Biz, Ermənistan Respublikasını regionda ekosistemi ciddi şəkildə korlayan aşağıda adları çəkilən müəssisələrin fəaliyyətini dərhal dayandırmağa çağırırıq:

1. Qacarandakı Zəngəzur Mis-Molibden Kombinatının, Qafandakı dağ-mədən kombinatının xrom, nikel, mis, molibden, sink, alüminium, vanadium, qurğuşun və digər ağır metal tərkibli mədən tullantıları Oxçuçayı və Araz çayını çirkləndirir. Zəngəzur Mis-Molibden Kombinatının səhmlərinin 60%-i Almaniyanın "Cronimet Mining GmbH" şirkətinə məxsusdur. Burada heç bir ekoloji norma gözlənilmədən il ərzində orta hesabla 20 milyon ton filiz emal edilir. Kombinatın mədən tullantıları hovuzu olan 270 milyon kvadratmetrlik Artsevanik su anbarı bütün region üçün təhdiddir;

2. Qafan dağ-mədən kombinatı 2019-cu ildən Böyük Britaniyanın "Chaarat Gold International Limited" şirkətinin tərkibindədir və hazırda "Chaarat Kapan" adlanır. İl ərzində burada orta hesabla 1.3 milyon ton filiz emal edilir. Qafan dağ-mədən kombinatının tərkibində 4.6 milyon kvadratmetr ərazini əhatə edən Gütqum (Qeqanuş) mədən tullantısı anbarı region üçün təhlükə saçır;

3. Əkərək (Aqarak) Mis-Molibden Kombinatının da ağır metal tərkibli mədən tullantıları Kərçivançay (Karçevançay) vasitəsilə Araz çayını zəhərləyir. ABŞ-ın "Comsup Commodities" şirkəti kombinatın bütün səhmlərini satın alaraq onun tam payçısıdır. İl ərzində burada orta hesabla 4 milyon ton filiz emal edilir. Kombinatın Davazam tullantı anbarında hazırda təxminən 36,8 milyon kubmetr təhlükəli tullantı toplanması barədə məlumatlar yayılıb. Tullantı anbarının suyu transsərhəd Araz çayına tökülür;

4. İşğal dövründə Ermənistan hakimiyyəti Azərbaycanla sərhəddə yerləşən Kəlbəcərin Zod yatağını qeyri-qanuni olaraq "GeoProMining" şirkətinin tam istismarına verib. 2009-cu ildə buradan 320,5 min ton, 2010-cu ildə 490 min ton, 2011-ci ildə 880 min ton miqdarında hasil edilmiş filizin emalı Dəvəli (Ararat) qızıl emalı kombinatında həyata keçirilib. Nəticədə mədən yaxınlığındakı Zod (Sotk) çayı mis, dəmir, kadmium və molibden kimi ağır metallarla çirkləndirilib. Çirklənmiş Zod (Sotk) çayının Kür çayına töküldüyünü nəzərə alsaq bu, milyonlarla insanın həyatı üçün böyük təhdiddir. 2018-ci ildə Avropa İnsan Hüquqları Məhkəməsi bu mədənin işləməsinə icazə verməklə regionu çirkləndirməsinə görə, Ermənistan tərəfindən ekoloji tarazlıq hüquqlarının pozulmasına dair qərar da çıxarıb;

5. Avropa İnsan Hüquqları Məhkəməsi 2019-cu il 14 fevral tarixli qərarı ilə Şınıx (Şnoq) və Tuğut (Teqout) kəndlərinin məhkəməyə müraciət etmiş sakinlərinin torpaqlarında qanunsuz mədən sənayesi istismarını təsbit edib, bununla bağlı Ermənistan hökumətindən zərər dəymiş kəndlilərə 69400 avro dəyərində təzminat ödənməsi tələb olunub;

6. Göyçə vilayətindəki Daşdəm (Daşdam) Qızıl Mədəni ildə təxminən 10.000 unsiya qızıl hasil edir. Mədən yerli su təchizatını aramsız şəkildə çirkləndirir. Mədənin çirkab sularında arsen və civə kimi insan sağlamlığına və ətraf mühitə zərərli ağır metalların yüksək qatılığı aşkar edilib. Mədənin çirkab suları yaxınlıqdakı çayları, o cümlədən əsas içməli su mənbəyi olan Bərgüşad (Vorotan) çayını da zəhərləyir. Bərgüşad çayı Araza tökülür. Mədən Kanadanın "Lydian International" şirkəti tərəfindən idarə olunur;

7. Ermənistanın Lori vilayətindəki Axtala mədəni ildə təxminən 5 min ton mis və qurğuşun istehsal edir. Mədənin tullantı sularında mis, qurğuşun və sink kimi insan sağlamlığına və ətraf mühitə zərərli ağır metalların yüksək qatılığı aşkar edilib. Mədən "Metal Prince" şirkətinin tərəfindən idarə olunur. Mədənin çirkab suları yaxınlıqdakı Tona (Debed) çayını çirkləndirir. Həmin çay Kür çayına tökülür. Axtala mədəni 2017-ci ildə ekoloji problemlərə görə bağlanıb. Lakin 2020-ci ildə mədən yenidən istismara açılıb;

8. Qafan Manqan Zavodu nəinki Ermənistandakı, dünyanın ən böyük manqan zavodlarından biridir. Zavod manqan filizi, manqan dioksidi və digər manqan məhsulları istehsal edir, illik hasilatı təxminən 1,5 milyon ton filizdir. Manqan filizinin çıxarılması və emalı zamanı hava və suya ağır metallar, toz və digər çirkləndiricilər buraxılır. Bu çirkləndiricilər tənəffüs problemləri, nevroloji xəstəliklər və xərçəng də daxil olmaqla bir sıra sağlamlıq problemləri yaradır. Zavod, həmçinin Cənubi Qafqaz regionu üçün vacib içməli su mənbəyi olan yaxınlıqdakı Bərgüşad çayını əhəmiyyətli dərəcədə çirkləndirir;

9. Ellər (Qotayq) zavodu mis, sink və qurğuşun istehsal edən metallurgiya zavodudur. Zavod Arpaçayını mis, qurğuşun və kadium kimi insan sağlamlığına mənfi təsir göstərən ağır metallarla çirkləndirir. Zavod kükürd dioksidi, azot oksidləri və bərk hissəciklər də daxil olmaqla, böyük miqdarda hava çirkliliyi yaradır. Bu çirklənmə insan sağlamlığına mənfi təsir göstərərək tənəffüs problemləri, ürək xəstəlikləri və digər ağır xəstəliklərə səbəb olur. Zavod tullantı sularını əsas içməli su mənbəyi olan Arpaçaya axıdır. Zavodda yaranan, tərkibi ağır metallarla zəngin olan böyük miqdarda bərk tullantılar torpağı çirkləndirir və yeraltı sulara sızır;

10. Göyçə (Geqarkunik) Mis Əritmə Zavodu Ermənistanda əsas mis əritmə zavodlarından biridir. İldə təxminən 100 min ton mis istehsal edir. Zavod Ermənistanın "GeoProMining" şirkətinə məxsusdur. Zavod atmosferə çoxlu miqdarda kükürd dioksidi və digər çirkləndiricilər atır ki, bu da havanın çirklənməsinə və turşu yağışlarına səbəb olur. Zavod tullantı sularını əsas içməli su mənbəyi olan Arpaçayına axıdır. Arpaçay isə öz növbəsində çirkləndirici maddələri Araza daşıyır. Çirkab suları Arpaçayda su canlılarını məhv edir. Göyçə Mis Əritmə Zavodu ətraf mühit və insanlar üçün böyük təhlükə mənbəyidir;

11. Arazdəyəndə (Yerasx) ekoloji normaların, beynəlxalq konvensiyaların tələblərinə zidd inşa olunan yeni metallurgiya zavodunun tikintisi də dayandırılmalıdır. Bu metallurgiya zavodunun zəhərli kimyəvi tullantılarının yerli ekosistemə potensial təsirləri çox böyük ola bilər. Tullantıların Araz çayına axıdılması çayda yaşayan canlılar və suvarma üçün Araz suyundan istifadə edən iri təsərrüfatlar üçün faciə deməkdir. İçməli su təchizatına bu təsir həm də sərhəd ərazilərdə yoluxucu xəstəliklərin yayılmasına gətirib çıxara bilər. Bu, həm Azərbaycan, həm də Ermənistan üçün ciddi ictimai səhiyyə böhranı yaradacaq;

12. Beynəlxalq qurumlar tərəfindən də fəaliyyətinə dəfələrlə etiraz edilmiş, əleyhinə qərarlar qəbul edilmiş Amuldağ (Amulsar) qızıl yatağının istismarı nəticəsində formalaşan ağır metal tərkibli mədən tullantıları da Bərgüşad (Vorotan) çayına axıdılaraq Həkəri çayı vasitəsilə Araz çayını çirkləndirir. Qızıl hasilatı sənayesi milli sərhədlərdən kənara çıxan ekoloji çirkləndirməyə səbəb olub. Belə ki, mədən geridə böyük həcmdə tullantı süxurları və tullantı yığınları qoyur, bu isə torpağı çirkləndirir, dağlarda aşınma prosesinin kəskin sürətlənməsinə gətirib çıxarır. Amuldağ (Amulsar) qızıl yatağının bu cür istismarı Qafqaz dağları ilə əhatə olunmuş region və onun əhalisi üçün ciddi təhdiddir;

Amuldağ yatağı təbii mineral su yatağı olan İstisu (Cermuk) şəhərindən 13 kilometr məsafədə yerləşir, yatağın istismarı İstisu (Cermuk) mineral bulaqlarına məhvedici zərər vurur. Yataq həm də Arpaçay və Bazarçay arasındakı ərazidə yerləşir. Hər iki çay Azərbaycan ərazisindən keçərək Araz çayına tökülür. Amuldağ yatağının istismarında çoxdan qadağan edilmiş, ətraf mühit üçün yüksək təhlükə törədən zəhərli maddələrin istifadəsi təbiəti məhv edir, çay sularının turşulaşmasına, suyun zəhərlənməsinə səbəb olur. Qızıl hasilatının bu çayın sularını çirkləndirməsi ilə yanaşı, əraziyə yaxın yerləşən Ermənistanın ən böyük şirin su gölü olan Göyçə (Sevan) gölünün ekosisteminə də mənfi təsir göstərir.

Eyni zamanda bu sənaye Xəzər dənizi hövzəsi üçün də ciddi təhlükə törədir. Azərbaycan Respublikasının Naxçıvan Muxtar Respublikası ərazisindən axan Arpaçay, eləcə də Bazarçay Araz çayına və oradan da Xəzər dənizinə tökülür. Beləliklə, bu, təkcə Azərbaycanın deyil, həm də İranın, eləcə də digər Xəzəryanı ölkələrin ekologiyasına ciddi ziyan vurur.

Qızıl yatağını "Lydian Armenia" şirkəti istismar edir. Bu şirkətin tam payçısı Böyük Britaniyanın "Lydian International" şirkətidir. Şirkətin əsas səhmdarları "Orion Mine Finance" (ABŞ), "Resource Capital Funds" (ABŞ), "Merk Investments" və "Tocqueville Asset Management LP" şirkətləridir.

Yuxarıda sadalanan 12 fakt hələ törədilmiş ekoloji fəlakətlərin görünən hissəsidir, ictimaiyyətdən gizlədilən faktlar daha çoxdur. Təsadüfi deyil ki, bir müddət öncə Ermənistanda fəaliyyət göstərən 60-dan çox vətəndaş cəmiyyəti təşkilatı sizə müraciət ünvanlayaraq xəbərdarlıq ediblər ki, Amuldağ (Amulsar) mədəninin işi ətraf mühitə böyük ziyan vuracaq və buna görə də Ermənistan hakimiyyəti onun fəaliyyətini bərpa etmək qərarını ləğv etməli, prokurorluq isə mədənin ətraf mühitə təsiri ilə bağlı ekspertizanın nəticələrini yoxlamalıdır.

Cənab Baş nazir!

Bildiririk ki, 2014-cü ildə qüvvəyə minən Birləşmiş Millətlər Təşkilatının (BMT) Beynəlxalq Su Axarlarının Qeyri-Naviqasiya İstifadəsi Hüququ Haqqında Konvensiyası - Transsərhəd Çaylar Konvensiyasının tələbləri Ermənistan hökuməti tərəfindən kobud şəkildə pozulur. Konvensiyanın məqsədi transsərhəd su axarlarından ədalətli və davamlı istifadəni təmin etməkdir. Bu Konvensiya su ehtiyatlarının sosial, iqtisadi və ekoloji inkişaf üçün risk yaratdığı təqdirdə, təsirə məruz qala biləcək icmalarla yaxından işləməyi, onların rəyini nəzərə almağı nəzərdə tutur. Lakin Ermənistan hökuməti regionun şirin su ehtiyatına təsir göstərə biləcək dağ-mədən sənayesinin təşkilində qonşu kəndlərdə yaşayan gürcü, azərbaycanlı və o cümlədən ermənilərin bu günədək rəylərini, fikirlərini nəzərə almayıb və onları ətraf mühitin qiymətləndirilməsi prosesinə cəlb etməyib.

BMT-in Biznes və İnsan Hüquqları üzrə Rəhbər Prinsipləri mədən sənayesi də daxil olmaqla, biznesdə məsuliyyətli davranışın təşviqi üçün çərçivəni müəyyən edir. Bu prinsiplər şirkətlərin insan hüquqlarını müdafiə etməsi, ətraf mühitə mənfi təsirlərin qarşısının alınması və təsirə məruz qalan icmalarla şəffaf, inklüziv şəkildə əlaqə saxlaması zərurətini vurğulayır.

Ermənistan hökuməti yuxarıda qeyd olunan mədənlərin istismarı ilə həm də Transsərhəd Kontekstdə Ətraf Mühitə Təsirin Qiymətləndirilməsi üzrə BMT-nin Avropa İqtisadi Komissiyası Konvensiyasında (Espoo Konvensiyası) ifadə edilənlərə açıq şəkildə məhəl qoymur. Espoo Konvensiyası ekoloji məsələlərin milli sərhədləri aşdığını ifadə edir və ekoloji məsələlərin transsərhəd xarakteri daşıdığı halda, beynəlxalq danışıqların zəruriliyini vurğulayır.

Orhus Konvensiyası ətraf mühitlə bağlı məsələlərdə məlumat əldə etmək, ictimaiyyətin iştirakını və ədaləti təmin etməkdə mühüm rol oynayır. Bu konvensiyanı imzalayan ölkə kimi Ermənistan təsirə məruz qalmış region əhalisinin mədən hasilatı fəaliyyətləri, qərarların qəbulu proseslərində iştirakı və ətraf mühitə dəyən zərərin aradan qaldırılması yolları ilə bağlı məlumatlara çıxışını təmin etməklə öz öhdəliklərini yerinə yetirməlidir.

Biz Ermənistan hökumətini vətəndaş cəmiyyəti təşkilatları və yerli icmalar üçün mədən hasilatı ilə bağlı dialoq və qərar qəbuletmə proseslərində fəal iştirak etmək üçün əlverişli mühit yaratmağa çağırırıq. Kanadalı professor Steven Emermanın dediyi kimi, "Bu, bir həqiqətdir ki, mədən sənayesinin iş qurbanı həmişə su hövzələri olur. Haradakı mədən sənayesi var, orada suyun tullantılarla daimi çirklənməsi təhlükəsi mövcuddur".

Biz Ermənistandakı mədənlərdə hasilat ilə məşğul olan bütün maraqlı tərəfləri, xarici şirkətləri öz fəaliyyətlərini bu prinsiplərə uyğunlaşdırmağa və onları əməliyyat təcrübələrinə inteqrasiya etməyə çağırırıq. Biz yataqda kəşfiyyat işlərinə və hasilat sənayesinə investisiya qoyanları hansı ekoloji fəlakəti yaratdıqlarının fərqində olmağa, məsuliyyətli davranmağa dəvət edirik.

Cənab Baş nazir!

Yuxarıda qeyd olunan faktlardan da məlum olduğu kimi, Ermənistanın dağ-mədən sənayesi Cənubi Qafqaz regionunu ciddi ekoloji fəlakətlə üz-üzə qoyub.

Biz sizə müraciət edirik ki, yuxarıda sadalanan beynəlxalq standart və prinsipləri nəzərə alaraq Ermənistanın bütün dağ-mədən sənayesi obyektlərinin qapılarını ekologiya və səhiyyə sahəsində ixtisaslaşmış ekspertlər, Azərbaycanın bu sahədə ixtisaslaşmış vətəndaş cəmiyyətləri təşkilatları üçün açasınız, yerində müəssisələrə baxış keçirilməsinə, qiymətləndirmə və monitorinq aparılmasına, müvafiq nümunələr götürülməsinə, ölçmə işləri edilməsinə tam şərait yaradasınız.

Həmçinin tövsiyə edirik ki, güvən, inklüzivlik və ortaq məsuliyyəti gücləndirmək məqsədilə dialoq və məsləhətləşmələr üçün əlverişli müvafiq platformalar yaradasınız. Mədən sənayesində şəffaflıq və hesabatlılığı təmin edərək, zəruri islahatlar həyata keçirib və hasilat sənayesi ilə bağlı vaxtında, etibarlı və hərtərəfli məlumatların açıqlanmasını təmin etmək üçün siyasi iradə və liderlik nümayiş etdirəsiniz.

Biz Ermənistan hökumətini məsuliyyətli idarəetməyə, regionumuza, planetimizə təhlükə yaradan dağ-mədən sənayesindəki işləri dərhal dayandırmağa, region əhalisi üçün davamlı inkişafı, sağlam gələcəyi təmin edən qərarlar qəbul etməyə çağırırıq.

**İmzalar:**

***1. "Sağlamlığa Xidmət" İctimai Birliyinin icraçı direktoru Pərvanə Vəliyeva***

***2. "Sudan İstifadə Sahəsində Mütəxəssislər" İctimai Birliyinin sədr müavini Amin Məmmədov***

***3. "Ekoloq-2010" Ekoloji Maarifləndirmə İctimai Birliyinin sədri Səlim Balayev***

***4. "Biosfer" İctimai Birliyinin sədri Qorxmaz İbrahimli***

***5. "Şəfəq" Ekoturizm İctimai Birliyinin prezidenti Vamiq Babayev***

***6. Pasiyent Təşkilatları İttifaqı və Hemofiliyalı Xəstələr İctimai Birliyinin sədri Ayaz Hüseynov***

***7. Ekoloji Maarifçilik və Monitorinq İctimai Birliyinin sədri Qəmzə Yusubova***

***8. Pediatrik Kardiologiya və Revmotologiya İctimai Birliyinin sədri Sveta Rəfiyeva***

***9. "Vərəmsiz Gələcəyə Doğru" İctimai Birliyinin direktoru Çingiz Ramazanlı***

***10. "Yaşıl Dünya" Ekoloji Maarifləndirmə İctimai Birliyinin sədri Elman Cəfərli***

***11. "Sosial İqtisadi və Ekoloji İnkişaf" İctimai Birliyinin sədri Rahilə Mehdiyeva***

***12. Ekoloji İnformasiya İctimai Birliyinin sədri Musa Muradlı***

***13. "Sağlam həyata doğru" Ekoloji İctimai Birliyinin sədri Sadiq Həsənov***

***14. "İnkişafa Doğru Qadın Təşəbbüsü" İctimai Birliyinin sədri Ziba Nəbiyeva***

***15. "Eşitmə və Nitq Məhdudiyyətli Şəxslərə Sosial Yardım" İctimai Birliyinin rəhbəri Cəmilə Abdulova***

***16. Leykemiya ilə Mübarizə İctimai Birliyinin sədri Mehriban Bağırova***

***17. "Ekoleks" Ekoloji Hüquq Mərkəzinin direktoru Sevil İsayeva***

***18. "Davamlı Turizmin İnkişafına Dəstək" İctimai Birliyinin sədri Nərminə Qəribova***

***19. "Səhiyyə və Sağlam Həyat" İctimai Birliyinin sədri Əlizadə Cahangir***

***20. "Eko-TES" Ekoloji Tədqiqatlar və Maarifçilik İctimai Birliyinin sədri Çingiz Nəzərov***

***21. "Ana Kür" Ekoloji Problemlərin Öyrənilməsinə Kömək İctimai Birliyinin sədri Rüstəm Məlikov***

***22. "İnkişaf və Rifah Naminə" İctimai Birliyinin sədri Zəminə Səfərova***

***23. Yoluxucu Xəstəliklərlə Mübarizə İctimai Birliyinin icraçı direktoru Əminə Kərimli***

***24. "Səma və Eko" Sosial-iqtisadi inkişafa yardım İctimai Birliyinin sədri İradə Həsənova***

# Müstəmləkəçi Fransa işğalçı Ermənistana havadarlıq edir

Azərbaycan yalnız öz sərhədləri daxilində deyil, yerləşdiyi regionda, eləcə də bütün dünyada sülhün, sabitliyin tərəfdarıdır və bunu bütün fəaliyyəti, xoş məramı ilə təsdiq edir.

44 günlük Vətən müharibəsində ərazilərində otuz ilə yaxın davam edən işğala son qoyan, 2020-ci il noyabrın 10-da işğalçı Ermənistanı kapitulyasiya aktına imza atmağa məcbur edən Azərbaycan öz böyük humanizmini müharibədən sonra məğlub ölkəyə sülh təklif etməsi ilə bir daha göstərdi. Təəssüf ki, Ermənistan imzaladığı üçtərəfli Bəyanatın şərtlərinə əməl etməkdən yayınaraq iki ölkə arasında normallaşmaya, sülhün bərqərar olunmasına hələ də əngəl yaratmağa cəhd edir.

İyulun 5-də Bakıda keçirilmiş Qoşulmama Hərəkatının Əlaqələndirmə Bürosunun "Qoşulmama Hərəkatı: meydana çıxan çağırışlarla mübarizədə birgə və qətiyyətli" mövzusunda nazirlər görüşündəki çıxışında Azərbaycan Prezidenti İlham Əliyev bildirdi ki, əgər Ermənistan həqiqətən də regionda çoxdan gözlənilən sülhdə maraqlıdırsa, onda onun silahlı qüvvələri Azərbaycanın Qarabağ bölgəsindən tamamilə çıxmalıdır.

Ermənistan sülhlə bağlı baş tutan üçtərəfli görüşlərdə Qarabağı Azərbaycan ərazisi kimi tanıdığını rəsmən bəyan edir. Buna baxmayaraq, hələ də Rusiya sülhməramlılarının müvəqqəti yerləşdiyi Qarabağ bölgəsindən silahlı tör-töküntülərini çıxarmır. Bununla da ölkəmizə qarşı ərazi iddiasından əl çəkmədiyini və məramının sülhə xidmət olmadığını nümayiş etdirir.

Əslində, zəif olduğunu yaxşı bilən, hər zaman öz gücünə deyil, başqalarına arxalanan Ermənistan məkrli mövqeyindən uzaqlaşmayıb. Yenə də xarici havadarlarının ətəyindən bərk-bərk yapışaraq onların şirin vədlərinə uyaraq istədikləri havaya oynayır. Üçtərəfli Bəyanatla üzərinə götürdüyü öhdəlikləri yerinə yetirməməklə, ölkəmizə qarşı təxribatlar törətməklə, Azərbaycanın beynəlxalq hüquq çərçivəsində Laçın yolunda nəzarət-keçid məntəqəsi qurmasını "blokada" kimi dünyaya çatdırmağa çalışmaqla yalnız iki ölkə arasında deyil, bütün regionda sülhün bərqərar olmasına əngəl törədir. Ermənistan separatçılara açıq dəstək verir, onları silahlandırır, eyni zamanda da Qarabağda yaşayan erməni sakinlərin cəmiyyətimizə reinteqrasiya olunmasına maneçilik yaradır.

Ədalət, sülh naminə Ermənistan dünyanın bütün dövlətləri tərəfindən mənfur əməllərinə görə qınanmalı, doğru yola dəvət olunmalıdır. Lakin Fransa kimi müstəmləkəçi dövlət işğalçı Ermənistanın vaxtilə azərbaycanlılara qarşı törətdiyi qətliamları, soyqırımlarını "unudur" və bu gün ölkəmizə qarşı təxribatlar törətməsinə siyasi dəstək verir. Öz tarixi qanlı cinayətlərlə, terrorla ləkələnmiş, əli milyonlarla əlcəzairlinin qanına batmış Fransa bununla faşizm xislətini bir daha ortaya qoyur.

Qoşulmama Hərəkatının Əlaqələndirmə Bürosunun nazirlər görüşündəki çıxışında Prezident İlham Əliyevin dediyi kimi, Fransa hətta Korsika dilinə qadağa qoyur və etnik azlıqlar konsepsiyasını qəbul etmir, lakin eyni zamanda özünü Azərbaycandakı erməni milli azlığının müdafiəçisi kimi göstərməyə çalışır. Dövlətimizin başçısı bildirdi ki, bu, riyakarlıq və ikili standartlardan başqa bir şey deyil, Fransa hakimiyyəti başqalarına mühazirə oxumağa cəhd etmək əvəzinə, öz ölkəsində bu cür narahatedici meyillərlə mübarizə aparmalıdır.

Azərbaycanın neokolonializm meyillərinin artmasından olduqca narahat olduğunu qeyd edən dövlətimizin başçısı dekolonizasiya prosesi nəticəsində yaranmış Qoşulmama Hərəkatının keçmişin bu utancverici mirasına qarşı qətiyyətlə mübarizə aparmalı və onun tamamilə aradan qaldırılmasına öz töhfəsini verməli olduğunu söylədi: "Neokolonializmi hələ də davam etdirən ölkələrdən biri Fransadır. Fransanın Avropadan kənarda idarə etdiyi ərazilər fransız müstəmləkə imperiyasının iyrənc qalıqlarıdır. Fransa Qəmər adalarının Mayot adası üzərində suverenliyinə, həmçinin Yeni Kaledoniya xalqının, o cümlədən özünün digər dənizaşırı icma və ərazilərində yaşayan xalqların hüquqlarına hörmət etməlidir".

Dövlət başçısı İlham Əliyev nəzərə çatdırdı ki, Fransanın soyqırımlarla dolu hakimiyyəti dövründə 1,5 milyona yaxın əlcəzairli qətlə yetirilib. Dövlətimizin başçısı hələ də Paris muzeyində əlcəzairli azadlıq döyüşçülərinin kəllə sümüklərinin müharibə qənimətləri kimi saxlanılmasının utancverici və iyrənc hərəkət olduğunu bildirdi: "Biz Fransa Prezidenti Emmanuel Makrondan həmin qəhrəmanların qalıqlarını Əlcəzairə təhvil verməsini tələb edirik".

Prezident İlham Əliyev qeyd etdi ki, özünü yalandan insan haqlarının və beynəlxalq hüququn müdafiəçisi kimi qələmə verən Fransa hələ də digər ölkələrin daxili işlərinə qarışır. Dövlətimizin başçısı Fransa qoşunlarının bu yaxınlarda Mali və Burkina-Fasodan çıxarılması onun Afrikadakı amansız neokolonializm siyasətinin uğursuzluğa məhkum olduğunu bir daha göstərdiyini vurğuladı: "Təəssüf ki, Fransa Azərbaycanın Qarabağ bölgəsində erməni separatizmini dəstəkləyərək, geosiyasi rəqabət, xarici hərbi mövcudluq və "Orientalizm" müstəmləkəçilik siyasəti ilə Cənubi Qafqaz regionunda da eyni mənfur təcrübəni tətbiq etməyə çalışır".

Prezident İlham Əliyev vurğuladı ki, Fransa öz müstəmləkə keçmişinə, qanlı müstəmləkə cinayətlərinə və soyqırımı aktlarına görə Qoşulmama Hərəkatına üzv olan Afrika, Cənub-Şərqi Asiya ölkələrindən və digər ölkələrdən üzr istəməlidir.

Bakıda keçirilən növbəti mötəbər beynəlxalq görüşdə Azərbaycan Prezidenti bu günlər Fransada baş verən və bütün dünyanın diqqət mərkəzində olan hadisələrdən də danışdı, Fransada, xüsusilə mediada və internetdə müəyyən etnik azlıqlara qarşı davamlı və geniş şəkildə yayılmış irqçi, ayrı-seçkilik salan fikirlərin, rəsmi şəxslər və parlamentin iki palatasının üzvləri tərəfindən irqi nifrət xarakterli çıxışların getdikcə artmaqda olduğunu söylədi. Dövlətimizin başçısı bu yaxınlarda əlcəzairəsilli 17 yaşlı yeniyetmənin Fransa polisi tərəfindən qətlə yetirilməsinin bu ölkədə irqçiliyin və islamofobiyanın daha bir əlaməti olduğunu qeyd etdi: "Bu baxımdan, biz BMT-nin polisin atəş açmasını pisləyən və Fransanı "hüquq-mühafizə orqanlarında irqçilik və ayrı-seçkiliyin dərin problemlərini ciddi şəkildə həll etməyə" çağıran bəyanatını dəstəkləyirik".

***Zöhrə FƏRƏCOVA,***
***"Azərbaycan"***




# Bir dühanın portreti

Nigar BAĞIROVA: "Ən böyük azərbaycanlı Heydər Əliyevin portretini onun şəxsiyyətinə, şanına yaraşır şəkildə yaratmaq xoşbəxtliyinə nail olmuşam"





...O gün həyatının ən unudulmaz, qürurverici, həm də ən həyəcanlı günü idi. Bir rəssam olaraq uzaq Amerikada, okeanın o tayında ölkəmizi həm də Ulu Öndər Heydər Əliyevin portreti ilə təmsil edirdi. Dahi şəxsiyyətin portretini çəkmək kimi fəxrli və məsuliyyətli bir işi necə yerinə yetirməsinin ona tamaşa edənlər tərəfindən veriləcək qiymətini intizarla, ürək çırpıntıları ilə gözləyirdi...

Lakin Ümummilli Liderin sərgilənən fotoları arasında yer alan yeganə tabloya, həm azərbaycanlı, həm də xarici sərgi iştirakçılarının böyük maraq və bəyənmə ilə baxması, "İlahi, necə də iti baxır, sanki gözləri canlıdır...", pıçıltılarını eşitməsi isə ona ruhi rahatlıq bəxş etmiş, ömründəki ən böyük xoşbəxtliyi yaşatmışdı: "O an özümü dünyanın ən bəxtəvəri sandım, bir azərbaycanlı olaraq qürur duydum ki, ən böyük azərbaycanlı Heydər Əliyevin portretini onun şəxsiyyətinə, şanına yaraşır şəkildə yaratmaq xoşbəxtliyinə nail olmuşam".

## Heydər Əliyev ideyalarının işığından rəssam fırçasına süzülən nur

Azərbaycan Rəssamlar İttifqının üzvü Nigar Bağırova Ulu Öndər Heydər Əliyevin 100 illiyi münasibətilə çəkdiyi portretin ölkəmizdə, eyni zamanda da bu il iyunun 22-də Amerikadakı səfirliyimizin təşkilatçılığı ilə Vaşinqtonda sərgilənən zaman görənlər tərəfindən böyük maraq və rəğbətlə qarşılanmasından danışır.

Rəssam həmsöhbətimiz deyir ki, onun tərəfindən indiyə qədər də xeyli rəsm əsərləri çəkilib, dünyanın müxtəlif yerlərində - Malayziyada, Fransada, Mayamidə sərgiləri təşkil olunub, amma Ulu Öndərin bu tablosunu özünün şah əsəri hesab edir: "Düzü, bu dahi şəxsiyyətin portretini çəkməyə qərar verməyə xeyli çətinlik çəkdim, birincisi, bu mənim üçün böyük məsuliyyət idi, istər-istəməz düşünürdüm ki, birdən layiqincə alınmaz..."

Amma bu fenomen şəxsiyyətə olan böyük rəğbətdən, ehtiramdan güc alan xanım rəssam "bismillah" deyərək fırçanı əlinə alır və ruhundan, düşüncələrindən süzülən duyğularını ecazkar rənglərin köməyi ilə ağ kətan üzərinə həkk etməyə başlayır: "Ulu Öndərin çox xoşladığım bir fikri var, hətta övladlarıma da uşaqlıqdan bu fikirləri aşılayıram: "Fəxr edirəm ki, mən azərbaycanlıyam!". Ulu Öndərin bu fikirləri hər zaman həyat yolumun mayakı olub, həmişə fəxr etmişəm ki, azərbaycanlıyam, Azərbaycan qadınıyam, mənim qədim yurdum, ədəbiyyatım, incəsənətim, musiqim, tarixim var. Bax elə bu portret də Heydər Əliyev ideyalarının işığından süzülən nurla yaradılıb".

Nigar xanım deyir ki, Heydər Əliyevin portretinin bu qədər canlı və təbii alınmasında həm də həyat yoldaşının, 1993-2003-cü illər ərzində Heydər Əliyevin fotoqrafı olmuş Rafiq Bağırovun Ulu Öndəri yaxından tanıyan bir insan kimi ona məsləhətlər verməsi də böyük rol oynayıb: "Sanki mən Ulu Öndəri yaxından görmüş kimi çəkdim, Rafiq müəllimin gözləri ilə..."

## Arzuların zirvəsində

Bu il mayın 10-da Ümummilli Liderin doğum günündə dahi şəxsiyyətin portretini ilk dəfə yerli televiziya kanallarının birində nümayiş etdirən Nigar Bağırova əsəri haqqında yerli tamaşaçılardan xeyli xoş sözlər, təriflər eşidir. Bundan az sonra isə Azərbaycanın Amerikadakı səfirliyi tərəfindən möhtəşəm bir təklif alır: "ABŞ-dəki səfirliyimizdən mart ayında Rafiq müəllimə belə bir təklif edilmişdi ki, Ulu Öndərin ABŞ-yə səfərlərindən olan fotolarından ibarət bir kitab nəşr edilsin. Qısa zamanda nəfis tərtibatda işıq üzü görən bu kitabın təqdimatının isə Vaşinqtonda həyata keçirilməsi planlaşdırıldı. Orada həm də Rafiq müəllimin kitabda da yer alan fotolarından ibarət sərgi təşkil olunacaqdı. Təklif etdilər ki, çəkdiyim portret də orada sərgilənsin. Bu mənim üçün təsvirəgəlməz fürsət, arzularımın gerçəkləşməsi idi, çünki çəkdiyim tablonun bütün dünyanı gəzməsi diləyim idi".

İyunun 22-də Vaşinqtonda ABŞ-dəki səfirliyimiz tərəfindən təşkil olunan və yüzlərlə yerli və xarici qonağın iştirak etdiyi möhtəşəm kitab təqdimatında və fotosərgidə yeganə rəsm əsəri olan Ulu Öndərin tablosu da böyük diqqət çəkir, maraqla qarşılanır.

Həmin gün Rafiq Bağırovun 100 fotosunun yer aldığı və nəfis tərtibatla hazırlanmış kitabı da, fotosərgisi də hamı tərəfindən bəyənilir. Eyni zamanda burada sərgilənən və öz canlılığı ilə hər kəsin diqqətini çəkən Ulu Öndərin Nigar Bağırova tərəfindən çəkilən portreti seyr edənlərin qəlbini fəth edir: "Təsəvvür edin ki, uzaq Amerikada hər kəs sənin çəkdiyin portreti tərif edirdi, tablonun çox canlı olduğunu söyləyirdi, daha bundan böyük xoşbəxtlik olarmı?!. O gün ölkəmiz, Rafiq müəllim adına qürur hissi yaşadım. Bu mənim üçün də böyük şərəf idi ki, Ulu Öndərin 100 illiyinin ABŞ-də qeyd edildiyi möhtəşəm gündə, həm də elə dahi şəxsiyyətin portreti ilə Azərbaycan Rəssamlar İttifaqını təmsil edirdim. Buna görə ittifaqın rəhbəri Fərhad Xəlilova çox təşəkkür edirəm ki, vaxtilə o mənim uğurlarımı görüb Rəssamlar İttifaqına qəbul edib. İncəsənət, rəssamlıq elə bir sənət növüdür ki, sənə inanmalıdırlar, onda sən öz yaradıcılıq gücünü daha çox göstərmək istəyirsən. Belə olmayanda ruhdan düşürsən".

## Dağ ucalığında insan

Ulu Öndərin Amerikada böyük rəğbət qazanan sözügedən portretini şəxsən ABŞ-dəki səfirimiz Xəzər İbrahimliyə təqdim edərək səfirliyimizə hədiyyə etdiklərini söyləyən Nigar xanım deyir ki, bu rəsm əsəri həm də ölkələrimiz arasındakı mədəni əlaqələrə və Azərbaycanın təbliğinə böyük töhfə verəcək: "Ulu Öndər kimi bir dühanın portretini çəkmək, onun kimi uca şəxsiyyətin xarakterini incə cizgilərinə qədər verə bilmək böyük hünər tələb edir. Və buna nə qədər müvəffəq olduğunu yalnız əsərə baxanların ona verdiyi dəyərdən anlamaq olur. O gün də mən Ulu Öndərin portretinə baxanlardan həmin böyük qiyməti aldım və bu mənə dünyanın ən böyük hədiyyəsidir...

Yaradıcılığımda ən çox dağlara geniş yer vermişəm, Heydər Əliyev də mənim üçün dağ ucalığında əlçatmaz zirvədir.

Azərbaycanı hərtərəfli tərəqqi ünvanına çevirən Ulu Öndər Heydər Əliyev mədəniyyətimizi inkişaf etdirib, incəsənət və mədəniyyət xadimlərimizə hər zaman böyük diqqət və qayğı göstərib. Hər bir azərbaycanlı Ulu Öndəri ilə fəxr edir və mənəvi borc olaraq onun adını yaşatmaq üçün əlindən gələn nə isə etməyə çalışır.

Mən də azərbaycanlı rəssam kimi böyük ehtiramla bu portreti Ulu Öndər Heydər Əliyevin 100 illiyinə ithaf etmişdim, amma elə bu tablo mənim özüm üçün Ulu Öndərin möhtəşəm töhfəsi oldu".

***Yasəmən MUSAYEVA,***
***"Azərbaycan"***

# Azərbaycan Sahibkarlar Konfederasiyasının nümayəndə heyətinin Özbəkistana işgüzar və yaddaqalan səfəri




İyulun 3-7-də Daşkənd şəhərində "Yeni Özbəkistan: biznes və investisiya üçün yeni perspektivlər" mövzusunda silsilə tədbirlər keçirilib.

Tədbirlərin ilk günü Türk Ticarət və Sənaye Palataları Birliyinin iclası keçirilib. Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının (ASK) prezidenti Məmməd Musayevin rəhbərlik etdiyi nümayəndə heyəti iclasda iştirak edib.

İclasda Özbəkistan Respublikasının Baş nazirinin müavini Cəmşid Xocayev, Türk Ticarət və Sənaye Palataları Birliyinin İdarə Heyətinin sədri, Türkiyə Palatalar və Birjalar Birliyinin prezidenti M.Rıfat Hisarcıklıoğlu, Özbəkistan Respublikası Ticarət və Sənaye Palatasının Rəyasət Heyətinin sədri - gənclər siyasəti və idman naziri Adham İkramov, Türk Dövlətləri Təşkilatı Baş katibinin müavini Ömər Kocaman, Türk İnvestisiya Fondunun prezidenti Bağdad Amreyev, Özbəkistan Respublikası Ticarət və Sənaye Palatasının sədri Davron Vahabov, Qırğız Ticarət və Sənaye Palatasının prezidenti Temir Sariev, Türkmənistanın Ticarət və Sənaye Palatasının şöbə müdiri Kamal Vəliyev və Kipr Türk Respublikasının Ticarət və Sənaye Palatasının sədri Turqay Deniz çıxış ediblər.

M.Musayev çıxışında Rıfat Hisarcıklıoğlunu yenidən TOBB prezidenti seçilməsi münasibətilə təbrik edib. O, Özbəkistanın istər Azərbaycan, istərsə də türk dünyası üçün əhəmiyyəti və ölkələrimiz arasındakı iqtisadi əməkdaşlığın hazırkı vəziyyəti, mövcud imkanlar barədə danışıb. ASK-nin prezidenti Türk Ticarət və Sənaye Palatasının gələcək imkanlarının çox geniş olduğunu vurğulayıb. Məlumat olaraq tədbir iştirakçılarının diqqətinə çatdırıb ki, Türk Dövlətləri Təşkilatının üzvlərinin ümumi ərazisi 4,8 milyon kvadrat kilometr, əhalisi 174 milyon nəfərdən çoxdur. 2022-ci ilin yekun nəticələrinə görə, üzv dövlətlərdə ümumi daxili məhsulun (ÜDM) həcmi 1,4 trilyon, ticarət dövriyyəsi 856 milyard ABŞ dolları təşkil edir. Ümumilikdə dünya ərazisinin 1 faizini, ticarət dövriyyəsinin 3faizini Türk Dövlətləri Təşkilatına üzv ölkələr əhatə edir.

Palata ilk növbədə üzv ölkələrdə fəaliyyət göstərən sahibkarların şəbəkələşməsinə, ölkələrimizin iqtisadi özəlliklərini öyrənməyə imkan yaradıb. Ötən dövr ərzində üzv dövlətlərin bir çoxunda biznes-forumlar təşkil olunub və müəyyən yeni iqtisadi əməkdaşlıqların əsası qoyulub.

Eyni zamanda konfederasiya rəhbəri Azərbaycan Sahibkarlar Konfederasiyası ilə Özbəkistan Ticarət və Sənaye Palatası arasında yüksək əlaqələrin olduğunu böyük məmnunluqla vurğulayıb. O, hər iki qurum arasında təsis edilən Azərbaycan-Özbəkistan İşgüzar Şurasının fəaliyyətindən bəhs edərək, sahibkarlara dəstəyin göstərilməsi, ölkələrimiz arasında investisiya qoyuluşunun artırılması məqsədilə atılan addımları qeyd edib. M.Musayev ölkəmizdə iqtisadi sahədə aparılan struktur islahatlar, investisiya mühiti, Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarındakı mövcud iqtisadi potensial haqqında da tədbir iştirakçılarına ətraflı məlumat verib.

Səfər çərçivəsində nümayəndə heyəti bir sıra mühüm görüşlərdə və debatlarda iştirak edib, Türkiyə Odalar və Borsalar Birliyi nəzdində Türkiyə İqtisadiyyat və Texnologiya Universitetinin Daşkənd filialı olan "TOBB ETÜ TASHKENT" Universitetinin fəaliyyəti, mövcud elmi-innovativ potensialı ilə tanış olublar.

ASK-nin prezidenti səfər çərçivəsində "Yeni Özbəkistan: biznes və investisiya üçün yeni perspektivlər" panel müzakirələrində iştirak edib. Paneldə Özbəkistan Parlamentinin vitse-spikeri Sodiq Safoyev, Türkiyə, Rusiya və digər ölkələrin tanınmış biznes nümayəndələrinin iştirak etdikləri tədbirdə M.Musayev bildirib ki, qardaş Özbəkistan istər Azərbaycan, istərsə də türk dünyası üçün hər zaman mühüm əhəmiyyət kəsb edib. Hazırda Azərbaycanla Özbəkistan arasında siyasi, mədəni, iqtisadi və digər sahələrdə əlaqələr yüksələn xətlə inkişaf edir. Belə ki, hər iki ölkənin dövlət başçıları arasında olan dostluq və qardaşlıq münasibətləri ikitərəfli əlaqələrdə bütün sahələrə öz töhfəsini verib. Bu dostluq əlaqələrinin ruhuna uyğun olaraq, Azərbaycan Sahibkarlar Konfederasiyası Özbəkistanın müvafiq biznesə dəstək təşkilatları ilə birgə ölkələrimiz arasında ticarət və iqtisadi əlaqələrin inkişafı istiqamətində işlər görməkdədir.

İlk dəfə 2018-ci ilin mart ayında Azərbaycan Sahibkarlar Konfederasiyası olaraq böyük nümayəndə heyəti ilə Özbəkistanda rəsmi səfərin təşkil olunması ilə biznes nümayəndələri arasında başlanan əməkdaşlığın inkişaf etdiyini deyən M.Musayev Azərbaycan Sahibkarlar Konfederasiyası ilə Özbəkistan Respublikası Ticarət və Sənaye Palatası arasında İşgüzar Şuranın yaradılmasına dair sazişin müddəalarına görə artıq 3 iclasın keçirildiyini və perspektiv əməkdaşlıq istiqamətlərinin müəyyən olunduğunu bildirib.

Konfederasiya prezidenti hər iki ölkədə çalışan sahibkarlara dəstəyin göstərilməsi, ölkələrimiz arasında investisiya qoyuluşunun artırılması məqsədi ilə ASK-nin Özbəkistan Respublikasında nümayəndəsi kimi 2021-ci ildən Fərid Verdiyevin fəaliyyətə başladığını vurğulayıb.

M.Musayev onu da qeyd edib ki, Azərbaycan Sahibkarlar Konfederasiyası ilə Özbəkistan Ticarət və Sənaye Palatası arasında əməkdaşlıq həm ikitərəfli formada, həm də beynəlxalq təşkilatlar, xüsusilə Türk Ticarət və Sənaye Palataları Birliyi çərçivəsində uğurla davam edir. O, 2022-ci il sentyabrın 16-da Şuşa şəhərində Qarabağ və Şərqi Zəngəzur regionunun bərpası və inkişafına həsr olunmuş Şuşa Türk Biznes-Forumunu xüsusilə qeyd edib. M.Musayev Türk Dövlətləri Təşkilatına üzv və müşahidəçi ölkələrdə fəaliyyət göstərən sahibkarları Qarabağ və Şərqi Zəngəzur regionunun geniş iqtisadi potensialından istifadə etməyə dəvət edib. Bildirib ki, qardaş özbək xalqı adından işğaldan azad edilmiş Füzuli şəhərində Özbəkistan Prezidenti cənab Şavkat Mirziyoyevin təşəbbüsü ilə tikilməkdə olan məktəb dostluq və qardaşlığımızın bariz nümunəsidir.

Azərbaycan dövlətinin öz iqtisadiyyatını, onun strukturunu reformasiya etdiyini, ölkəmizdə güclü iqtisadi islahatların aparıldığını vurğulayan Məmməd Musayev bu islahatlarda başlıca hədəflərdən biri kimi investisiya mühitinin əlverişliliyini artırmaq olduğunu bildirib. Azərbaycan dövlətinin postpandemiya və postkonflikt dövründə keyfiyyətcə yeni olan və 2021-2030-cu illəri əhatə edən strateji mərhələyə daxil olduğunu söyləyib. M.Musayev həmçinin ölkəmizin ərazi bütövlüyünün bərpası ilə səciyyələnən yeni strateji dövrdə dərin institusional islahatlar hesabına Azərbaycan dövlətinin qüdrətinin daha da artırılması, yüksək rifah cəmiyyətinin qurulması, azad edilmiş bölgələrə tarixi qayıdış və məskunlaşmanın təmin edildiyini bildirib.

ASK-nin prezidenti Azərbaycan ilə Özbəkistan, həmçinin digər Türk Dövlətləri Təşkilatına üzv ölkələr arasında qeyri-neft sektoru, xüsusən "yaşıl enerji", maliyyə, elm və texnologiya, informasiya texnologiyaları, təhsil, kənd təsərrüfatı, o cümlədən turizm kimi sahələrdə əhatə dairəsini genişləndirmək üçün böyük potensial olduğunu qeyd edib.

Konfederasiya rəhbəri və nümayəndə heyəti səfər çərçivəsində keçirilmiş ikitərəfli görüşlərdə sahibkarları maraqlandıran sualları cavablandırıb.

# "İpək Yolu" festivalı çərçivəsində Şəkinin "Zirvə" Folklor Ansamblının konserti olub

Şəki "İpək Yolu" XII Beynəlxalq Musiqi Festivalı sona yaxınlaşır. Festival çərçivəsində iyulun 7-də "Yuxarı Karvansara" mehmanxana-kompleksində Şəkinin "Zirvə" Folklor Ansamblının konserti olub.





AZƏRTAC xəbər verir ki, konsertin əvvəlində "Zirvə" Folklor Ansamblı haqqında məlumat verilib. Qeyd olunub ki, ansambl 2017-ci ildə Şəki Şəhər Uşaq İncəsənət Məktəbinin direktoru Eldar Rəcəbovun təşəbbüsü ilə yaranıb. Ansamblın üzvləri qədim milli xalq çalğı alətlərində - tar, ud, çəqanə, kamança, topuz, baş tar, qanun, nağara, balaban və digər alətlərdə ifa edirlər. Ansambl ilk dəfə 2018-ci ildə Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyinə həsr olunmuş tədbirdə çıxış edib. Kollektiv daha sonra İncəsənət məktəbinin yaranmasının 80 illiyinə həsr olunmuş yubiley tədbirində, həmçinin dövlət əhəmiyyətli bir çox tədbirlərdə iştirak edib, tamaşaçı rəğbəti qazanıb.

Daha sonra folklor ansamblı çıxış edib.

# AzMİU-nun rektoru Danimarkada keçirilən Ümumdünya Memarlar Konqresində iştirak edib

2-6 iyul 2023-cü ildə Danimarkanın Kopenhagen şəhərində Beynəlxalq Memarlar İttifaqının (BMİ) təşkilatçılığı ilə Ümumdünya Memarlar Konqresi keçirilib.



Konqresdə ölkəmizi Azərbaycan Memarlıq və İnşaat Universitetinin (AzMİU) rektoru professor Gülçöhrə Məmmədova, Azərbaycan Memarlar İttifaqının sədri, AzMİU-nun Memarlıq layihələndirilməsi və şəhərsalma kafedrasının müdiri professor Elbay Qasımzadə, İtaliya-Azərbaycan Dizayn Mərkəzinin direktoru Fərid Kərimov, AzMİU-nun Memarlıq konstruksiyaları və abidələrin bərpası kafedrasının baş müəllimi Aliya Əliyeva və Memarlıq fakültəsinin tələbələri Leyli Əfəndiyeva, Jalə Abuşova, Ayməsey Qafarzadə, Ramid Səlimov təmsil ediblər. Konqresin əsas mövzusu "Dayanıqlı gələcək - heç kəsi geridə qoymayın" olub və dünya üzrə 400-dən çox məruzəçi iştirak edib. İştirakçılar arasında məşhur memarlar, yeni istedadlar, elm adamları ilə yanaşı, transmilli şirkətlərin rəhbərləri və nüfuzlu siyasətçilər də olublar. Ümumilikdə 135 ölkədən 6000-dən çox iştirakçının qatıldığı konqresdə tanınmış tədqiqatçılar və elm adamları iqlim dəyişikliyi ilə mübarizə, biomüxtəlifliyi artırmaq və sosial inklüzivliyin təşviqi üçün yeni dizayn yollarını axtarıblar. Konqres "Kopenhagen dərsləri" adı altında sürətli və köklü dəyişiklik üçün 10 prinsipin təqdim edilməsi ilə yekunlaşıb.

# Stokholm NATO sammitində alyansa üzv ola bilməyəcək

İsveç yaxın günlərdə Vilnüsdə keçiriləcək NATO sammiti öncəsi Ankara ilə danışıqlarda irəliləyiş əldə etməyə çalışır.



Xatırladaq ki, ötən il Türkiyə və İsveç Stokholmun NATO-ya üzv olmaq yolunda maneələrin aradan qaldırılmasına yönəlmiş saziş imzalamışlar. Ankara İsveçdən terror qruplaşması olan Kürdüstan Fəhlə Partiyasına (PKK) qarşı tədbir görməsini tələb etmişdir.

İndi Stokholm müqavilənin şərtlərinə əməl etdiyini iddia edir. Belə ki, İsveçdə qəbul edilmiş yeni qanunvericiliyə əsasən, bir neçə gün əvvəl Türkiyə vətəndaşı olan PKK-çı "terrorçuluğu maliyyələşdirməyə cəhd" ittihamı ilə həbs edilib. Bununla belə, Ərdoğan haqlı olaraq Stokholmu tənqid etməkdə davam edir və ötən həftə İsveçdə yenidən Quranın yandırılması vəziyyəti daha da gərginləşdirib.

Qeyd edək ki, Macarıstan da İsveçin NATO-ya daxil olmaq istəyini hələ ratifikasiya etməyib. Lakin rəsmi Budapeşt bildirib ki, Türkiyə razılaşarsa, Macarıstan da eyni addımı atacaq.

Bu arada Brüsseldə İsveçin NATO-ya üzvlük üçün müraciəti ilə bağlı Türkiyə, İsveç və Finlandiya arasında Daimi Birgə Mexanizm Toplantısı keçirilib. Türkiyənin xarici işlər naziri Hakan Fidan Belçika paytaxtında keçirilən üçtərəfli görüşlə bağlı jurnalistlərə açıqlamasında deyib: "Biz Türkiyədə 4-cü Daimi Komitə iclasını keçirdik. NATO siyasi və hərbi ittifaqdır. NATO-ya üzv olmaq istəyən ölkələr terrorla mübarizədə qətiyyətli mövqe tutmalıdırlar. Onlar Türkiyəyə qarşı hərbi sanksiyalar tətbiq etməməlidirlər. Bunlar İsveçin 3-cü Anlaşma Memorandumu üzrə öhdəlikləridir. İsveç müdafiə sənayesi məhdudiyyətlərini ləğv etdi. Terrorla mübarizə qanunvericiliyində də dəyişiklik edilib. Bunlar indi reallıqda öz əksini tapmalıdır. İsveçin Türkiyə üçün etibarlı müttəfiq olacağını bilməliyik. Əgər PKK və FETÖ İsveç küçələrində nümayişlərini davam etdirəcəksə qanunvericilik dəyişikliyinin Türkiyə üçün heç bir mənası olmayacaq".

İsveç NATO-nun iyulun 11-12-də Vilnüsdə keçiriləcək sammitində heç bir halda alyansa üzv ola bilməyəcək, hətta Türkiyənin razılığı olsa belə, həmin vaxta qədər ərizənin ratifikasiyası mümkün deyil. Bunu Brüsseldə keçirdiyi mətbuat konfransında NATO-nun baş katibi Yens Stoltenberq deyib. O, Vilnüs sammitində İsveçin alyansa üzv olub-olmayacağı ilə bağlı sualı belə cavablandırıb: "Mümkün olan və sammitdə əldə etmək istədiyimiz müsbət qərar Türkiyənin ratifikasiyaya razılığını almaqdır. Amma hələ görüləcək işlər var. Ratifikasiya bazar ertəsinə qədər baş tutmayacaq, amma biz siyasi həllə nail ola bilərik".

Alyansın baş katibi onu da bildirib ki, fikir ayrılıqlarının aradan qaldırılması istiqamətində işi davam etdirmək üçün iyulun 10-da - sammit ərəfəsində Litva paytaxtında Türkiyə və İsveç liderləri ilə görüşəcək.

***Rizvan CƏFƏROV, "Azərbaycan"***

# Hayastanda indi də vəkillər etiraz edirlər

Hayastanda korrupsiya tüğyanı davam edir. Baş nazir Nikol Paşinyan mətbuata açıqlamalarında korrupsiya və rüşvətxorluğun ölkəsi üçün kifayət qədər ciddi problemlər yaratdığını diqqətə çatdırıb. O, hər dəfə korrupsiyaya qarşı mübarizə aparıldığını qeyd edəndə isə ölkə müxalifəti bunun gülməli və yalnız kütləyə hesablanmış fikirlər olduğunu bildirir.

Hazırda Hayastanda baş verənlər əhalinin haqlı narazılığının daha da artmasına, etiraz aksiyalarının vüsət almasına səbəb olmaqdadır. Çünki vəziyyət getdikcə pisləşir, xarici iqtisadi tərəfdaşlar da ölkədən üz döndərirlər.

Əslində, ölkədə başlanan son etiraz aksiyaları da vəziyyətin gərgin olmasından xəbər verir. Məsələn, elə bu günlər Hayastanda vəkillər etiraz aksiyası keçiriblər. Buna səbəb vəkil Karen Alaverdyanın polis bölməsində döyülməsidir. Faktla bağlı istintaq başlasa da, vəkillər həmkarlarının üzləşdikləri zorakılıqlarla bağlı üçgünlük tətil elan ediblər və Daxili İşlər Nazirliyi yanında Polis İdarəsinin rəisi Aram Ovannisyanın istefası tələbini irəli sürüblər. Hüquqşünaslar qeyd ediblər ki, fevral-iyun ayları ərzində polis bölmələrində vəkillərə qarşı bir neçə zorakılıq halları baş verib. Onlar bütün məsuliyyəti Ovannisyanın üzərinə qoyaraq onun istefasını tələb edirlər.

Vəkillər iyulun 11, 12 və 13-də üçgünlük etiraz aksiyası keçirəcəklər. Onlar dövlət orqanlarında (o cümlədən məhkəmələrdə və ibtidai istintaq orqanlarında) müdafiə və ya təmsilçilik həyata keçirməyəcəklər. Aksiyaya qoşulan vəkillərin yalnız fövqəladə hallarda məhkəmələrdə iştirak edəcəkləri vurğulanıb. Polis rəisinin vəkillik peşəsinin düşməni elan edilməsi ilə bağlı hüquq ictimaiyyətində sorğular keçiriləcək.

Xatırladaq ki, bu ilin əvvəlində daha iki vəkil Marzpet Avakyan və Emmanuel Ananyan polis idarəsində zorakılığa məruz qalmışlar. Hüquqşünaslar hesab edirlər ki, bu cür işlərin istintaqı ləng aparılır və təqsirkarlar cəzasız qalırlar.

Bu arada Hayastanın ən böyük problemlərindən olan xarici dövlətlərdən alınan borcun vaxtında geri qaytarılmaması əlavə iqtisadi gərginliyə yol açıb. Ölkənin xarici borcu 11 milyard ABŞ dollarını ötüb. İşsizliyin hökm sürdüyü, əhalisinin əksəriyyətinin yoxsulluğun son həddində yaşadığı Hayastan isə xarici borclarını ödəmək iqtidarında deyil. Bu borcların gələcəkdə daha da artacağı gözlənilir.

Belə acınacaqlı vəziyyət qarşıdakı dövr ərzində Hayastanda sosial-iqtisadi durumun daha da gərginləşəcəyindən xəbər verir. Həmçinin ölkədə korrupsiyanın və rüşvətxorluğun miqyasının durmadan artması fonunda əhalinin hakimiyyətdən narazılığı daha da güclənir. Hadisələrin bu səpkidə inkişafı müxalif qüvvələrin fəallığının artmasına və hakimiyyət əleyhinə apardığı təbliğatın miqyasının əhəmiyyətli dərəcədə genişlənməsinə səbəb olub. Hakimiyyət isə getdikcə dərinləşən problemlərə son qoymaq iqtidarında deyil. Elə bu səbəbdən qarşıdakı dövrdə Hayastanda vəziyyətin daha da pisləşməsi qaçılmazdır.

***Elçin CƏFƏROV, "Azərbaycan"***


## Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tabeliyində Sosial Xidmətlər Agentliyi "Yaşlı nəslin nümayəndələri ilə bağlı testlərin Azərbaycan dilinə adaptasiyası" adlı müsabiqə keçirir

Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tabeliyində Sosial Xidmətlər Agentliyi "Yaşlı nəslin nümayəndələri ilə bağlı testlərin Azərbaycan dilinə adaptasiyası" adlı müsabiqə keçirir.

Müsabiqədə qeyri-hökumət təşkilatları, hüquqi və fiziki şəxslər iştirak edə bilərlər.

İştirak haqqı yoxdur.

Maraqlanan təşkilatlar müsabiqənin əsas şərtlər toplusunu və texniki tapşırığını əldə etmək üçün nazirliyin tabeliyində Sosial Xidmətlər Agentliyinə (Ünvan: Nərimanov rayonu, Ziya Bünyadov prospekti 1965, "Çinar Park" Biznes Mərkəzi, bina 1) yazılı müraciət edə bilərlər.

Müsabiqədə iştirak edən təşkilatların təklifləri 20 iyul 2023-cü il saat 17:00-dan gec olmayaraq agentliyə təqdim edilməlidir. Gecikdirilmiş təkliflər qəbul olunmayacaqdır.

**Müsabiqə 21 iyul 2023-cü il saat 11:00-da agentliyin inzibati binasında keçiriləcəkdir.**
**Əlaqə telefonu: (012) 525-41-30 (daxili: 5038)**

***Müsabiqə komissiyası***

## "Kainat" Açıq Səhmdar Cəmiyyətinin səhmdarlarının nəzərinə!

"Kainat" Açıq Səhmdar Cəmiyyətinin İdarə Heyətinin sədrinin vəzifədən azad edilərək həmin vəzifəyə yeni şəxsin təyin edilməsi ilə bağlı cəmiyyətin səhmdarlarının növbədənkənar ümumi yığıncağı 14 avqust 2023-cü ildə, saat 12:00-da Bakı şəhəri, Qaradağ rayonu, Salyan şosesi 2 ünvanında ("Səyyarmextikinti" ASC-nin inzibati binası) keçiriləcəkdir.

Səhmdarların həmin yığıncaqda iştirakı zəruridir.

***İdarə Heyəti***

## B İ L D İ R İ Ş

"Azərenerji" ASC tərəfindən 06.02.2023-cü il və 17.02.2023-cü ildə elan edilmiş

- **330/110/10 kV-luq "Ələt Azad İqtisadi Zona" Yarımstansiyasının tikintisi, "Qobu" Elektrik Stansiyasının 330 kV-luq Açıq Paylayıcı Qurğuda və "Cənub" Elektrik Stansiyasının 330 kV-luq Qapalı Paylayıcı Qurğuda genişlənmə tədbirlərinin icrası, yeni xətt üçün əlavə 330 kV-luq yuvaların quraşdırılması işlərinin satın alınması;**
- **330 kV-luq "Qobu Elektrik Stansiyası - Ələt AİZ Yarımstansiyası" Elektrik Veriliş Xəttinin tikintisi işlərinin satın alınması;**
- **330 kV-luq "Cənub Elektrik Stansiyası - Ələt AİZ Yarımstansiyası" Elektrik Veriliş Xəttinin tikintisi işlərinin satın alınması məqsədi ilə müsabiqələrin müddəti podratçının sorğusuna əsasən uzadılır.**

İddiaçıların tenderdə iştirak etmək üçün sənədlərin son təqdim olunma tarixi (tender təklifi və bank təminatı istisna olmaqla) 04 sentyabr 2023-cü il saat 15:00-dək uzadılır.

Bank təminatının və tender təklifinin son təqdim olunma tarixi 12 sentyabr 2023-cü il saat 15:00-dək uzadılır.

İddiaçıların tender təkliflərinin açılışı 13 sentyabr 2023-cü il saat 15:00-a keçirilir. Tender təklifləri Bakı şəhəri, Ə.Əlizadə küçəsi 10 ünvanında (onlayn qaydada) açılacaqdır.

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin Təsərrüfathesablı Əsaslı Tikinti və Təchizat İdarəsi tərəfindən "Respublika üzrə bir sıra təhsil müəssisələrinin təmir, kommunal-kommunikasiya və abadlıq işlərinin satın alınması və respublika üzrə bir sıra təhsil müəssisələrinin təmir və kommunal-kommunikasiya işlərinin satın alınması"na dair 7 iyul 2023-cü ildə dərc edilmiş açıq tender prosedurlarında mexaniki səhv olaraq ilkin sənədlərin qəbulu saatı **"10.08.2023-cü il saat 11:00"** kimi qeyd edilmişdir. Etender.gov.az portalına uyğun olaraq ilkin sənədlərin qəbulu 1**0.08.2023-cü il saat 15:00** kimi hesab edilsin.

***Tender komissiyası***


# Abşeron çimərliklərində dəniz suyunun temperaturu 24-27 dərəcə isti olacaq

Azərbaycanda iyulun 8-nə gözlənilən hava proqnozu açıqlanıb.

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Xidmətindən AZƏRTAC-a verilən məlumata görə, Bakıda və Abşeron yarımadasında hava günəşli olacaq. Cənub küləyi əsəcək. Havanın temperaturunun gecə 20-25°, gündüz 33-38° isti olacağı gözlənilir. Atmosfer təzyiqi 756 millimetr civə sütunundan 752 millimetr civə sütununa enəcək. Nisbi rütubət gecə 65-75, gündüz 35-45 faiz təşkil edəcək.

Abşeron çimərliklərində cənub küləyi əsəcək. Dəniz suyunun temperaturu şimal çimərliklərində - Sumqayıt, Novxanı, Pirşağı, Nardaran, Bilgəh, Zuğulbada 24-25° isti, cənub çimərliklərində - Türkan, Hövsan, Sahil, Şıxda 26-27° isti olacaq.

## ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Respublikası Baş Prokurorluğunun rəhbərliyi və kollektivi Azərbaycan Prokurorluğunun veteranı, sabiq hakim **ELDAR ƏLİ OĞLU MİKAYILOVUN** vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

Prokurorluq veteranı İlham Məmmədov dostu, prokurorluğun və məhkəmə orqanlarının veteranı **ELDAR ƏLİ OĞLU MİKAYILOVUN** vəfatından kədərləndiyni bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

Azərbaycan Respublikası Əqli Mülkiyyət Agentliyinin rəhbərliyi və kollektivi Fikrət Əzizova qardaşı **RAMİZ ƏZİZOVUN** vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


**BAŞ REDAKTOR**
**Bəxtiyar SADIQOV**

**Əlaqə telefonları:**

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 539-72-39 | Humanitar siyasət şöbəsi | - 538-56-60 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Fotoillüstrasiya şöbəsi | - 538-84-73, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Kompüter mərkəzi | - 538-20-87, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | Mühasibatlıq | - 539-59-33 |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə*

contact@azerbaijan-news.az
az.reklam@mail.ru



www.azerbaijan-news.az

**Qeydiyyat № 1**

**"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir**

**Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır**

**Gündəlik rəsmi dövlət qəzeti**

**Tiraj 4646**
**Sifariş 1660**

**Qiyməti 40 qəpik**